**SURXAY SUBU**

# *Bayatılar dastanı*



**"Elm və təhsil"**
**Bakı-2023**

**Surxay Subu (Surxay Rafiq oğlu Babayev)**
**Bayatılar dastanı. Bakı."Elm və təhsil", 2023, 152 səh.**

**İSBN 978-9952-37-417-9**

**© Surxay Subu, 2023**

## BAYATILAR DASTANI

İsti yay günlərində babamın ərsəyə gətirdiyi taxta məhəccərli çardağımız mənim üçün əsil cənnət malikanəsi idi.Ən çox gecələr sayrışan ulduzları və bütöv olan ayın tədricən aypara şəklini almasını seyr etmək mənə başqa bir aləmdən xəbər verirdi.Ulduzların axını və birdən yoxluğu məni başa düşə bilməyəcəyim qeyri-adi sirrli bir dünyaya aparırdı.Bu sirrli aləmi ha vurnuxsam da anlaya bilmir və məyuslanırdım.Gecənin cırcırama cırıltısını elə ki,sübhə yaxın quşların cik-ciriki əvəz edirdi könlümə qonşumuz Mələk nənənin laylaları, oxşamaları, əzizləmələri, qayğı-nəvaziş dolu bayatıları düşürdü. Uşaq beynimdə cövlan edən Mələk nənənin laylaları məni sübhə yaxın elə yuxuya aparardı ki,örüşə gedən mal-qaranın mələrtisini belə eşitməzdim.Həmişəki kimi mal-qaranı örüşə yola salıb tövləni təmizləyən babamla-qocam səhər yeməyini masaya düzüb şirin-şirin yatmış nəvəsini oyatmağa qıymaz və bostanı sulamağa gedərdilər.Handan-hana yuxudan oyanar, əl-üzümü yumaq üçün "umuvalnik"deyilən aşağı hissəsi deşikli və uc hissəsi mismar başlığa toxunaraq şaq-şukla əl-üzümü yuyub,məftildən asılmış ağappaq məhrəba ilə silinərdim.Süfrəyə düzülmüş və milçək yeməklərə miz salmasın deyə yekə cuna ilə qapanmış masaya yaxınlaşıb yeməkləri,-nehrə yağını,şoru,pendiri,qaynanmış yumurtanı, sulanmış pilə kimi təndir lavaşın üzə-

rinə düzər,əlimi oxlov kimi tutaraq yekə bir çoban dürməyi düzəldərək iştah və acgözlülüklə səhər yeməyimi nuş edib kəkotu çayı ilə sonlayardım.Tələsik süfrəni yerbəyer edib Mələk nənənin bayatılarını dinləməyə həvəsli olardım.

Bu elə bir vaxt idi ki,anam Qafanda(Qapan) işləyərdi və mən babamgildə tənha qalardım.Babamın Toplan dediyi,qocamın isə Qapan adlandırdığı itimiz mənim ona etdiyim şiddətə rəğmən məni dişləyəndən sonra,babam iti iydə ağacının gövdəsinə zəncirləmişdi.Mən az-çox böyüdüyümdən itə şiddət etməyi unutmuşdum və deyəsən toplan itimiz də,bunu hiss etdiyindən mənimlə oynamaq üçün yerində hoppanaraq yüz cür oyundan çıxırdı.Ancaq, mən toplanımızın oyunlarına fikir verməyib,bayatı eşqi ilə Mələk nənəgilə gedirdim.

Mələk nənəgilin həyətində tut ağacı ilə iydə ağacı arasında yüyrük düzəldilmişdi.Mələk nənə yüyrüyə bağlanmış çatının bir ucunu ayağına bağlayaraq əlində corab toxuyar,nəvəsi ağlamsınanda ayağına bağlanmış çatını tərpədərək yüyrüyü yellədər və laylaları ilə körpənin ürəyinə oxşayar dı ki,o da səsini kəsib yuxuya gedərdi.Bu laylaların təsiri o qədər dərindən mənə sirayət edərdi ki,quru torpaq üstündə mən də yuxuya gedərdim.Mələk nənənin böyük nəvazişlə dediyi laylay bayatıları yuxulu olsam da qulaqlarımda səslənərdi:

Lay-lay balam can balam,
Mən sənə qurban balam.

Ağlayıban könlümü,
Gəl eyləmə qan balam.
xxx
Lay-lay dedim yatınca,
Gözlərəm ay batınca.
Canım zinhara gəldi,
Sən hasilə çatınca.

Elə ki,körpənin tərs damarı tutardı, nənənin laylaları da kömək etməzdi.Körpənin hıçqırığına məndə biixtiyar,təəssüflə oyanardım.Mələk nənə əlindəki corabını kənara qoyar,lavaş qıddılarının əziklərini keçi südünə qarışdırar körpəyə yedizdirər və məni də qonağ edərdi.Bəzən körpəyə yeməyi mən verərdim və körpənin çöhrəsindəki gülüşü görüb sevinərdim.Beləcə mən günümün əksərini Mələk nənə gildə keçirərdim.Mələk nənə də, Xurşud baba da mənə öyrəşmişdilər.Mən hər dəfə cırıltı verən,yekə çəpərli qapını açanda məni görən Mələk nənə deyərdi:-gəl bala,qızcığaz indicə uyuyub,duranda yuyrüyün çatısın sənə verəcəm.Nənən day qocalıb,bir yüyrüyü belə yellədə bilmir.Mən həvəslə yüyrüyün çatısını nənədən alar bayatıya oxşar hı-hı-larımla onu ovudar,mənə dikilmiş təbəssümlü körpə baxışlarından anlayardım ki,qızcığaz mənimlə oynamaq istəyir.Mən yüyrüyə yaxınlaşar sifətimi cürbəcür hallara salaraq onu güldürərdim.Körpə qızcığaz hər dəfə bərkdən gülümsəyəndə sevincdən aşıb-daşan Mələk nənə əlini sinəsinə qoyub razılıq hisslərini mənə izhar edərdi.Birdə görərdin nənənin qoltuq altına qoyduğu

yumru ipliyi dığırranıb çəpərə dəyərdi.Mən bir göz qırpımında top kimi olan ipliyi götürüb cəld nənəyə verərdim.Mənim bu cəldliyim,uşağı ovsundurma bacarığım Xurşud babanın ürəyincə olardı.Xurşud baba çox pəvəzəng,üzü gülər bir yaşlı kişiydi.Qıpqırmızı yekə burnu,qar kimi ağappaq burmalı buğları güləndə onu qayğıkeş bir babaya bənzədirdi.Özünün dediyinə görə Böyük Vətən müharibəsində igidcəsinə vuruşmuş,hətta frislərdən əsir belə götürməyi bacarmışdı.Mən ona nemes dilində bir kəlmə deməyi xahiş edəndə,o mənim başıma sığal çəkərək deyərdi ki,əsir düşən frisləri tələsdirmək üçün tez-tez onların dilində,-şnel-şnel deyərdim.Mən də Xurşud babanın "şnel"sözünü zəhləm getmiş itimizə deməkdən ləzzət alardım.Bir də görərdin tövlə təmizliyindən yorulmuş Xurşud baba Mələk nənənin yanında mütəkgəyə dirsəklənib ordan-burdan söhbətlər edir.Bir dəfə də Mələk nənənin bayatılarından mürgü döyərkən,bərk yuxuladığımı yəqin edən Xurşud baba nənədən soruşdu ki,yenə bu tifilin baba-qocası bağlarına gediblər?Mələk nənə başının işarəsi ilə sorumu təsdiqləmiş olurdu.Mənim qayğıma qalan baba:-biş-düşdən tifil balaya əl uzadırsanmı?Mələk nənə yenə başının işarəsi ilə sorumu təsdiqlədi.Hayıf bu uşaqdan.Ata, baba-nənəsi əsilli- nəcabətli bir ailə idilər.Müharibənin o qızğın vaxtında hökumət adamları olub at belində gəzərdilər.Belə bir keçmişləri olan bu tifilciyəzin indiki halı adamı vardan-yoxdan edir.Odu ki,babalar deyiblər,-kiminin əvvəli,kiminin axırı!Eh,ay gidi dünya,-deyə dərindən bir ah çəkən Xurşud baba deyərdi:-allah indən belə

olanlarının talehinə xoşbəxtlik gətirsin! İlahi,Amin!Körpənin qığıltısından məlum oldu ki,yatmayıb.Əl-ayağını oynadan körpəni ehtiyyatcasına qucağına alan baba,körpənin ağ yumru sifətindən bir marçıltılı öpüş götürüb,el adət-ənənəsi olaraq qayçı vurmadığı yekə buğu ilə uşağın üz-gözünü dalayıb ağlamasına səbəb oldu.Xurşud baba uşağı sakitləşdirmək üçün onu yüyrüyə qoyub,mənə işarə elədi ki,gəl balacanı oynat sakitləşsin.Elə də oldu.Uşağın sakitləşməsindən kefi durulan baba nənədən xahiş etdi ki,könlünə yumurta qayğanağı düşüb,hazır eləsəydi ağzını dada gətirərdi.Yağ içində üzən sapsarı qayğanaq yeməyindən mən də xoşlanardım.Odur ki,hələ yemək süfrəyə gəlməmiş ağzımın suyunu yığışdıra bilmirdim.Elə ki,qayğanaq palaz üstündəki sərilmiş süfrəyə qoyulurdu,Mələk nənə yağı süzülən bir çoban dürməyi düzəldib məni qonaq edirdi.Dürməyin yağı palaza tökülməsin deyə,yüyrüyə yaxınlaşıb böyük iştahla dürməyimi yeyib körpə ilə oynayardım. O vaxtkı beşguşəli soldat toqqası ilə qarnını bərkitmiş Xurşud baba qarnına bir sığal verib,yağlı əlləri ilə buğunu tumarlamış oldu.Yeməkdən sonra samovar çayının dadından ləzzətlənən baba yüyrüyə yaxınlaşıb körpə nəvəsinə bir oxşama dedi:

Çaydakı qazlar,
Tükün tarazlar.
Nişanlı qızlar,
Bu balama qurban.

Mələk nənə Xurşud babanın oxşamasına xitabən, nazlanmışlar kimi buyurdu.Sən allah,ay Xurşud yazıq deyil nişanlı qızlar?! Elə sənin bu körpə nəvəciyin gözünü açyum görəcəksən böyüyüb gözəl bir nişanlı qız olub.Nə tez yadından çıxıb mənim nişanlı qız vaxtım.Yadındadır atını minib şahə qalxardın məndən ötrü.Eh ay gidi dünya,elə bil mənim nişanlı olmağım,hünərini göstərmək üçün sənin at çapmağın dünən olub.Yüyrüyə yaxınlaşan Mələk nənə körpə nəvəsini qucağına alıb sinəsinə yaxın çəkərək uşaq ətrini iyləmiş kimi sinədəftərindən bir oxşama dedi:

Dağda meşəlik,
Gül,bənövşəlik.
Mən həmişəlik,
Bu balama qurban.

Uşaqlığımda heç bir nəvaziş görmədiyimdən Mələk nənədən,yaxud Xurşud babadan eşitdiyim layla-oxşamalar mənə elə sirayət edərdi ki,palaz üstündə yox,sarı gil torpaq üstündə nə vaxt yuxuya getdiyimi bilməzdim.O torpaq ki,onun yumru-yumru gil dənələri ac vaxtımda mənim aclığımı öldürərdi.O torpaq ki,ayağı yalın gəzməkdən ayaqaltı dərim qabıq bağlayar, rezin çarığı əvəz edərdi.Az-çox imkanı olanlar rezin çarıq geyərdilər.İmkanlılar isə,toxunmuş bəzəkli corab üstündən dəri çarıx geyib,ipini dizlərinə kimi bağlayardılar.Mən bu bəzəkli corabla,dəri çarığa həsədlə baxardım.Ana babam mənim bu həsəd hisslərimi görüb mənə rezin çarıx toxuyardı.Kəndimizin

vur-tut bir yük maşını var idi ki,onun da patrişkasını əldə etmək müşgül məsələ olurdu.Dəri çarıxdan danışanda,babam deyərdi ki,bir az imkan tapan kimi sənə dəri çarıx da toxuyacam.Babamın belə bir imkanı oldu.Həmin dəri çarığı mən səliqə ilə geyər,yastıq altında əzizləyərdim.

İllər keçdi,ac-tox böyüdüm.Kənddə dörd illik məktəb olduğundan qəsəbədə yaşamağa başladıq.Xurşud babanın,Mələk nənənin layla-oxşamalarına tamarzı qaldım.Məktəbdə şifahi xalq ədəbiyyatımızın nəinki,layla-oxşamalarını,əzizləmələrini,nəsihətlərini,ağılarını,şikayətlərini özündə əks etdirən digər bayatı növlərini də oxuduqca xalqımızın şifahi ədəbiyyatına marağım artırdı.Çox hallarda bədahətən bayatılar deyərdim,ancaq yazıb saxlamaq ağlıma belə gəlməzdi.Sonralar xalqımızın tarixində yaranmış keşməkeşli hadisələr məni məcbur etdi ki,dediyim bayatıları heç olmasa dəftərimə qeyd edim.

Qəsəbədə yaşadığım illərdə biz uşaqlar yay vaxtı Baharlı kəndi qarşısındakı Şıxılcan şəlaləsindən zövq alar,aclığımızı moruqla dəf edərdik.Sonra dəmiryol körpüsü altında düzəldilmiş gölməçədə çimərdik.Biz çimdiyimiz körpünün altından Bəsit çayı tikanlı məftillərlə hasarlanmış Araz çayına axırdı.Tikanlı məftillə hasarlanmış Araz çayının sahilində böyük qüllədə rus soldatları növbə çəkərdi.Onlar həməşə bizi izləyərdi ki,biz sərhəddə bir şuluqluq salmayaq.Bizimlə bərabər böyüklər də istirahət edərdilər və onların danışığından başa düşürdüm ki,İranda onların qohumları yaşayır.Tanımadığım adamlar deyərdilər:-Müharibəyə qədər gediş-gəliş olub,axı biz bir

millətik.Qohum-əqrəbaları bir –birindən ayırıb, Arazımızı da bizə sərhəd etdilər.Biz hər dəfə Bəsit çayına çimməyə gələndə bir milləti iki bölən Araz çayına sullarım yaranırdı.Beləcə mənim ilk bayatım ərsəyə gəldi:

Əziziyəm Arazdı,
Bəsit axan Arazdı.
Milləti iki bölən,
Sərhəd,niyə Arazdı?

Bir dəfə böyük dayımla kəndimizə odun gətirməyə getmişdik.Qayıdan başı dayım kəndimizin məşhur sürücüsü Ağamməd dayıdan xahiş etdi ki,səni öz canın maşını Bartaz poçtu(stansiyası) deyilən yerdən sür ki,dədəmin bacısı Dilbər bibimin yaşadığı İran kəndi olan Aşıqlıya bir göz gəzdirim.Əslində,Ağamməd dayının da kökü elə Aşıqlıdan idi.Odu ki,dayımın sözünü yerə salmayıb deyilən səmtə doğru maşını sürdü.Ağamməd dayı maşını Araz çayı yaxınlığında əyləyib,özünün və dayımın qəribsədikləri kəndi göstərdi.Dayım gözü yaşlı olaraq kəndə baxıb,için-için ağlayırdı.Dayımın bu halından mən çox pərişan olurdum.Demə dayımın bibisinə olan məhəbbəti onun adını əbədiləşdirməyə vadar etmiş, o isə qızını Dilbər adlandırmışdı.Dayım Ağamməddə çönüb bildirdi ki,ürəyindən bir qışqırtı keçir və istəyir ki,haylayıb Dilbər bibisinin sağ-salamat olduğunu öyrənsin.Ağamməd tez dayımın ağzını əli ilə sıxıb dedi ki,ə kişi sən dəli-zad olmamısan ki,istəyirsən rus soldatları gəlib bizim başımıza bə-

la açsınlar.Bütün olanları qulaqlarımla duysam da,fikrim-xəyalım kənddə qalmışdı.Kənd evləri balaca-balaca daxmalardan ibarət idi.Kəndin ətəyində mal-qara günəş istiliyindən torpağa çömbəlmiş və gəvşək vururdular.Həyətdə uşaqlar oynayır,uzun tumanlı,dar bədənli qadın-qızlar isə misli-gümüşlü darboğaz səhəngləri ilə Araz çayı sahilindəki bulaqdan su götürürdülər.Mənim xəyalımı reallıqdan dayımın,-ədə bala gəl otur maşına gedək,sözləri ayırdı.Yol boyu yenə ayrılıq bir kədər olaraq məni ağuşuna aldı və yeni bir bayatım yarandı:

Əzizinəm Aşıxlı,
Qızları yaraşıxlı.
Yunus Sobuda qaldı,
Dilbər oldu Aşıxlı.

İsti yay aylarında dincliyimizi tək Bəsit çayından almırdıq.Qəsəbəmizin digər bir hissəsində Oxçu çayı axırdı.Bəsit çayına yolumuz uzaq olduğundan bəzi hallarda çay Oxçuya da baş vururduq.Hər iki çay sürətli axını,musiqi ahəngli şəlaləsi ilə bizə zövq verirdi.Fərq burasında idi ki,Bəsit çayı həməşə şəffaf olurdu,suyun dərinliyində gözümüzü açıb balıqları əlimizlə belə tuturduq.Çay Oxçu isə həməşə lil axınlı olurdu.Bu lildə gözü nəinki açmaq mümkün deyildi,heç balığı belə görmürdük.Çayın sahilində bir neçə ölü balıqdan başqa diri balıq tək-tük hallarda olardı.Bizdən yaşca böyük adamların dediyinə görə Oxçu çayı həməşə şəffaf olub, lil olmasının səbəbi Qafan şəhə-

rində filiz mədəninin olması ilə bağlı idi.Hətta, bizdən böyük olanlar zəhərlənməmək üçün sudan içməməyi bizlərə məsləhət görürdülər.Ancaq,biz bərk susuzluq hiss edəndə köynəyimızdən süzgəc kimi istifadə edib dodaqlarımızı yaşladardıq.Çay Oxçunun sarılı- lilli dərdi,aclığımızı balıq kababı ilə öldürə bilməməyimiz məni düşündürdüyündən,yeni bayatı yazmağa vadar oldum:

Əzizinəm  Oxçu çay,
Şəffaflığın yoxdu day.
Lildə balıq tələfdir,
Qapan zülmlü Oxçu çay

Bütün bununla bərabər dağ ətəyi olan düzənlikdə yerləşən qəsəbəmiz çil-çıraqlı,insanları şən,qonaqpərvər,qürurlu,vətənpərvər və qeyrətli sakinlər idi, desəm yanılmaram.Sovet dönəmində bizlərə xalqlar dostluğu tərbiyəsi versələr də,ermənilərin bizlərə qarşı kin-küdurətini görürdük.O vaxtları qəsəbəmizdən keçən Bakı-Yerevan,Mincivan-Qafan sərnişin qatarının erməni sərnişinləri  ticarət üçün Qafan şəhərinə gedən Azərbaycanlıları  incitdiklərinə görə vaqondan perrona düşməz,vaqon pəncərəsindən bizləri əcayib hərəkətləri ilə həqarət etmək istəsələr də,cavablarını qəsəbə cavanlarından alardılar.Bu ermənilər tamburda əli silahlı dayanan rus soldatlara arxayın olardılar.Elə ki,qatar tərpənərdi bu qorxaqlar hünərlənərək bizlərə “tork”deyərdilər.Bu hərəkətlər dəb halını alandan sonra Mincivan gəncləri onları elə cəzalandırardılar

ki,Mincivan adı gələndə bir daha başlarını vaqon pəncərəsindən bayıra belə çıxartmazdılar.Mincivanın ər oğullarının ermənilərə verdiyi tərbiyəvi qeyrət dərsləri məni ruhlandırardı ki,mən də bayatıda gücümü göstərərdim:

Əzizinəm Mincivan,
Köksündə var min cavan.
Hayklar səndən keçəndə,
Quyruq salar, Mincivan.

Əslən Sobulu olsaq da,Mincivanda yaşadığımızdan yerli camaat bizim ailəyə hörmətlə yanaşardılar.Atamın xəstəliyi ucundan biz üç övladı tənha böyüdən kişi qeyrətli aslan anama isə böyük hörmət aşılanardı.Maddi çətinliklərimiz olmasına baxmayaraq anam bu çətinlikləri biruzə etdirməz,bizi elmli olmağa,həyatda böyük yer tutmağa dəvət edərdi.Kişi qeyrətli anama olan məhəbbətim hədsiz idi:

Əzizim,canım anam,
Qeyrətindən yananam.
Üç oğul böyüdürsən,
Adına mən qurbanam.

Min doqquz yüz yetmiş üçün soyuq yanvar ayında,orta məktəbin son sinifində oxuyarkən,xəstəlik ucubatından illərlə üzünü görmədiyim atamın dünyasını dəyişməsi,mənim gənc qəlbimi yandırdı.Atamın bütün arzuları

tikməyə başlayacağı daxması kimi yarımçıq qaldığından göz yaşlarımı saxlaya bilməyib,yalqızlığı hiss etdim.Deyirlər atanın əli oğulun çiynində olanda,oğul özünü arxalı hiss edir.Mən hələ gənc yaşımda bu arxalılıqdan məhrum olmuşdum.

Əzizim ağır dərddi,
Atasız ağır dərddi,
Dərdim qaysaq eyləyir,
Sağalmaz ağır dərddi.

Orta məktəbdə valideyinlər iclasında atalıları görüb,daxilən atasızlıq dərdini çəksəm də,atasızlığın necə ağır dərd olduğunu bildiyimdən heç kimə atasız olmağı arzulamazdım.

Əzizinəm atasız,
Qəlbim yandı atasız,
Mənim dərdim böyükdür,
Olmayasız atasız.

Orta məktəbi başa vurub canım anamdan,sevimli qardaşlarımdan,Mincivan diyarımdan uzaq düşüb təhsilimi davam etdirmək Bakımıza gəlmiş oldum.İmtahanlardan üzü ağ çıxsam da,müsabiqədən keçə bilməyib işləməyə qərar verdim.Başqa bir çarəm yox idi.Qəsəbəmizdə yaxşı oxuyan şagird imicimə xələl gətirmək istəmədiyimi nəzərə alsaq,həm də anamın üzünə baxmağa belə əzab çəkdiyim-

dən geri qayıtmağı şəxsiyyətimə sığışdıra bilmədim.Birdə ki,qəsəbədə elə bir iş yox idi ki,işləməklə anama köməkçi olum.Bakıda iş tapsaydım evimizə köməyim çatardı.Odur ki, Bakı şəhərimizdə iş axtarmaq qərarına gəldim.İş axtarıb tapmaq, payız meşəliyində saralmış yarpaqlar əziniyində itirilmiş iynəni tapmaqdan betər idi.Yayın istisində ac-susuz, mazollaşmış ayağımın ağrıları,başıma vurulan gün istiliyindən burnumdan axan qan məni elə hala salırdı ki,axşamlar daxmama qayıdıb plitə üstündə,selluloza marqarin yağının gölündə parçalanan kartofu yeyib,sonra da onun qarın ağrılarını çəkərdim.Fiziki əziyyətim o yana qalsın,yeməyimiz də başımıza bəla olurdu:

Eləmi iş axtaran,
Evə kömək çatdıran.
Marqarin-kartof yeyib,
Qarına ağrı  artıran.

Bununla bərabər yaxşı deyiblər ki,ac canavarı gəzən ayağı yedirdər.Nəhayət iş tapıb,yataqxanaya düzələsi oldum.Sənə yataqxana deyirəm ki,bütün əyalətlərimizin valideyin tərbiyəsini görməmiş,valideyinə qarşı bivec olanlar, o dövrün geniş yayılmış geyim dəbləri ilə özlərini əcayib hala  salıb" az-çox uydurduqları Bakı ləhcəsi ilə,Bakılı olmaq istəyənlər məndə ikrah hissi doğururdu.Bu böyüklükdə fəhlə yataqxanasında beş-altı təhsil alanlar var idi ki,onlar da bir"çertyoj"üzündən on bir ilə AZİ-ni qurtara bilmirdilər.Bütün bu gördüklərim mənim bayatımın mövzusuna çevrilirdi:

Əzizim Bakılıyam,
Kabluk,trapes hallıyam,
Kətdə tövlə süpürməm,
Çuşka yox,Bakılıyam.

Fəhlə yataqxanası sakinlərinin rəzalətlərini gördükdən sonra məndə hüquqşünas olub,cəmiyyət yaramazlıqlarına qarşı mübarizə aparmaq fikri daha da möhkəmləndi.Ancaq, mənim bu arzum sovet dövrünün yaratdığı qeyri-obyektiv səbəblərə görə baş tutmadı.Filoloq olaraq təhsil almağa başlasam da,xalqımızın tarixini öyrənmək meyli məni rahat buraxmırdı.Orta məktəbdə tədris olunan SSRİ tarixi,yaxud Azərbaycan tarixi dərslikləri xalqımızın ikiyə bölünməsinin səbəblərini bizlərə aşılamırdı.Rus-İran müharibələri nəticəsində Araz çayının sərhəd olması göstərilirdi.Bu nəticə məni heç vaxt qane etmir və mən bir Azərbaycan övladı olaraq vətənimin ikiyə bölünməsinin,Araz çayının nədən sərhəd olmasının axtarışına sövq olunurdu.Azərbaycan dilində tarixə aid olan məlumatları oxusam da nəticələr məndə şübhələr yaradırdı.Bircə onu bilirdim ki,tariximizin axtarışındayam:

Eləmi,ay tələbə,
Axtarırsan hələ də.
Tarixi yaxşı bilsən,
Elmin olar qələbə.

Orta məktəbin yetginlik çağlarında,ali məktəbdə təhsil aldığım illərdə hər bir sevən gənc kimi,sevgi burulğanın-

da bataraq,ülvi məhəbbətimə qiymət verən insan olacaq bir xanım qismətimə düşmədi.Yazdığım sevgi şeirlərində bu bədbinliklər öz əksini tapmışdır.Sevgi uğursuzluqları məni insan olaraq özünə güvənməyi,möhkəm olmağı tələb edirdi:

Eləmi,sevən insan,
Sevgidən küsən insan.
Sevgi dəyəri yoxsa,
Özünə güvən, insan!

Ali məktəbi iyirmi yeddi yaşında başa vurub ixtisasım üzrə doğma vətənimdə iş tapa bilmədiyimdən durğunluq dövrünün didərgini tək üz tutdum Rusiyaya.Əlbəətə ki,Azərbaycan dili və ədəbiyyatı üzrə mütəxəssis olsam da,Rusiyada ali təhsilli olaraq müxtəlif texniki sahələrdə,müəyyən vəzifələrdə çalışdım.Rusiyada yaşadığım illərdə texniki sahələrdə olan məsuliyyətli işlərim məni bədii yaradıcılıqdan xeyli uzaqlaşdırdı.

Rusiya təbiəti Azərbaycan təbiətindən xeyli fərqli olduğundan məni maraq aparırdı ki,Rusiyada şaxta yüksək olsa da,niyə soyuq insanlara,o cümlədən mənə təsir etmir. Zənnim məni aldatmırsa 1977-78-ci illərdə Bakıda olan küləkli şaxta daha təsiredici idi,nəinki Rusiyanın yaşadığım şimal bölgəsində 25-30 dərəcənin şaxtası:

Əzizim qardı hər yan,
Şaxtası yoxdu inan.

Bakıımda külək əssə,
Soyuğu dəhşət, yaman.

Rusiyada yaşadığım bina Volqa çayı sahilində yerləşdiyindən tez-tez ailəmlə çay sahilinə dincəlməyə gedərdim.Nəhəng Volqa çayının sakit,aramla axması marağıma səbəb olardı.Mənim uşaqlığım Bəsit,Oxçu çay sahillərində keçdiyindən bu çayların şırıltısı,musiqi ahəngli zümzüməsi,bəzən divanə kimi sərt axıntısı ilə zəngulələr etməsi beynimdən çıxmamışdı.Düşünürdüm ki,bu yekəlikdə çay nədən belə səssiz-küysüz axır və bir bayatımla Volqa çayına xitab edirdim:

Əzizim Volqa çayı,
Lam axan Volqa çayı.
Bəsitin hay-harayı,
Yoxmu bəs,Volqa çayı?

Rusiyada yaşadığım illərdə sadə zəhmətkeş adamlardan xoş münasibətlər görsəm də,ziyalı olub müxtəlif vəzifələrdə çalışan şovinist xarakterli məmurlardan Azərbaycanlılara olan qeyri milli münasibətlərdən inciyərdim.Ruslar nədənsə bütün Qafqazlıları erməni kimi görürdülər.Ermənilərin fəallığından,xaçkar olub onlara olan dini yaxınlığından danışır və rəğbət bəsləyirdilər.Biz Azərbaycanlıları isə bazarçı gözündə tərəziləyirdilər.Sanki,Sovet hökuməti qəsdən erməni millətinin nümayəndələrini göz önünə qoyur,tanıtdırırdı.Ancaq, sovet kosmodromuna rəhbər-

lik edən Kərimov kimi və digər görkəmli Azərbaycanlılardan bizim xəbərimiz belə olmurdu.Bütün bunlar məni keçmişə,uşaqlıq illərimə qaytarırdı.Nədən Azərbaycanda ət əvəzinə bizə sümük (sup nabor),kərə yağı əvəzinə marqarin (slivoçnıy marqarin) satırdılar?!Biz Azərbaycanlılar nəyə görə ət-yağ üçün Ermənistanın Qafan şəhərinə getməli və istehza hədəfinə çevrilməliydik?!Bütün bu qeyri milli Sovet hökuməti münasibətinin əndazəsi 1988-ci ildə Ermənistandan soydaşlarımızın qovulmasında və sonradan Qarabağ münaqişəsinin milli zəmində alovlanmasında özünü göstərmiş oldu.1988-ci illərin axırlarına yaxın Ermənistandan zorla qovulan soydaşlarımızın Rusiyaya da axını başlamışdı.Onların sakit təbiəti,öz işləri ilə məşğul olması,hətta ermənilərlə isti münasibətləri məndə belə bir fikir formalaşdırırdı ki,nəhəng Sovet ölkəsində müsəlmançılığa qarşı sanki bir cəbhə yaradılıb.Öz dədə-baba yurdlarından qovulmuş bu insanlar yurd həsrəti çəkirdilər.Qovulanlardan biri ailəlikcə İrəvandan gəlmişdilər.Bir masa arxasında yurd həsrəti çəkənlər qeyd edirdilər ki,axı bizim məhəllə İrəvan qalası kimi möhkəm idi.Necə oldu ki,birdən-birə qovulduq.Onların söhbətlərini dinlədikcə anlayırdım ki,İrəvan qalası kimi möhkəm olan bu adamlar nə edə bilərdilər ki,məhəllə olaraq?Bu qovulma millətin bəlası idi:

Əzizim yurd övladı,
Köçdüyün yer qaladı.
Zorla yurddan qovulmaq,
Millətə bir bəladı.

Erməni şovinistlərinin Qarabağda yaratdıqları müharibə nəticəsində Dağlıq Qarabağa aidiyyəti olmayam yeddi rayonumuzun işğalı və 366-cı alayın Xocalı soyqırımında iştirakı məndə Sovet hökumətinə qarşı milli məsələ nöqteyi-nəzərindən şübhələr yaratdı.Mən artıq özümü Rusiyada qərib hiss etməyə başlamışdım.Doğulub boya başa çatdığım yurdumun  erməni qəsbkarları tərəfindən işğalı məndə bədbin əhval ruhiuyyə yaratmışdı.Xocalı soyqırımının bütün dəhşətlərini gözləri ilə görmüş dostumun vətənə olan məzuniyyəti qan-qada ilə sonlanmışdı.Xocalı soyqırımını törədən erməni qatilləri,-Köçəryan,Sərkisyan,Balasanyan cəlladlar haqqında eşitdiklərim məni dəhşətə gətirmişdi.Fikirləşirdim ki,insanlığa sığmayan hərəkətlərin,dəhşətlərin bu qatilləri, görəsən hansı vəhşi planetdən gəliblər?!Dostumun, -Xocalı mənim yurdum, bir də səni görmək mənə qismət olacaqmı?-sualları mənə də sirayət etmişdi:

Eləmi,ay Xocalı,
Oldun başı bəlalı.
Düşmən soyqırım etdi,
Viran oldun Xocalı.

Dostum Xocalı cəlladı V.Balasanyan haqqında danışaraq onu təkrarolunmaz qatil adlandırırdı.

Eləmi Balasanyan,
Ocagında sən yan.
Xocalı türk məskəni,
Qanarsan Balasanyan.

Yağıların tapdağına çevrilmiş doğulduğum kəndimiz,təbiətinə vurğun olub dəfələrlə gəzdiyim digər kəndlərimiz bayatılarımın mövzusuna çevrildi.Dünyaya göz açdığım Sobum.Sənin keşiş bulağın düşmənin zəhəri olmadımı?Dığa daşın Sobunu tar-mar etmək istəyən erməni cəlladlarına sədd olmadımı?Təbiətə gözəllik verən,buz kimi soyuq Vənni bulağın sənə möhtac olan düşmən bağrını çatlatmadımı?Xarabalıq sevən bayquş düşmən təbiətlə həmahəng olan evlərini viran etsə də,sən əyilməzsən!Qəmlərdən ağrıyan ürəyimin hər bir kapilyarı səninlə bahəm vurur,mənim Sobum!

Əzizinəm Sobudu,
Dərdə çarə su budu.
Ürəyimdə sızlayan,
Qanlı simim Sobudu.

Parkla, stansiya binası və poçt anbarı arasında olan məkanı biz qəsəbə uşaqları futbol meydançasına çevirmişdik.Futbol oynayıb yorular,sonra çimməyə gedərdik.Yaz-payız fəsillərində isə stansı önündəki yolkalar arasında sütül-sütül oynayardıq.Pulumuz olmayanda axşamlar çinar ağacına dırmaşıb yay kino-teatrında pulsuz olaraq tamaşaları izləyərdik.Biz Sovet dövrünün uşaqları Mincivan adının qəhrəmanlaşmasının şahidi olardıq.Sovet dövrünün at oynadan erməniləri Mincivanda quyruq salardılar.Mərdi-mərdanə Mincivanı işğal etmək erməni hünəri

deyildi.Ancaq,tülkü donunu geymiş alçaq ermənilər namərdcəsinə Mincivanı işğal etdilər:

Əzizinəm Mincivan,
Arazla sən yanbayan.
Dığalar tülkü çıxdı,
Əsir düşdün Mincivan.

Bütün yay tətilimizi keçirdiyimiz Bəsit çayı,Baharlı kəndi. Dağ ətəyində yerləşsən də,güvənin şaqraq təlatümü ilə hay-haraylıq edən Bəsit çayı idi.Bəsit çayının zümzüməli axarı Baharlıların şirin yuxusuydu.Şıxılcan şəlaləsi isə bəxtəvərlik təranəsi olmuşdu Baharlılara.İndi qatil düşmən Şıxılcandadır.Bəs siz haralardasınız,qəlbləri viran Baharlılar!?

Əzizim can Baharlı,
Bəsit çayın axarlı.
Xaylar Şıxılcandadır,
Qəlbi viran Baharlı.

Yuxarıda bəhs etdiyim kimi,biz qəsəbə uşaqları yay aylarını Bəzən Bəsit çayında,bəzən də Oxçu çayda keçirərdik.Oxçu çay lilli olsa da,qəsəbəmizə yaxın idi.Ya Turabad dağlarını aşıb çaya çimməyə gedərdik,ya da dəmiryol boyu relsin isti dəmirində ayağımızı bişirə-bişirə,qırlı şpallarda qıra bata-bata yol döyərdik.Doyunca çimər, aclığımızı Turabad ətəyindəki ağ-qara tutlarla,moruqla öldürərdik.İndi Turabad düşmən əlində əsir olmuşdu.Nədən-

sə,qəlbimdə belə bir hiss yaranmışdı ki,Turabadın abad günlərini nə vaxtsa görmək bizə nəsib olacaq:

Əzizinəm Turabad,
Xaya əsir,həm bərbad.
Vaxt gələr düşmən qaçar,
Turabad olar abad.

Qeyri-adi təbiəti olan Naxçıvanımıza səyahət edəndə Ağbənddən keçməli olardıq.Sanki təbiət öz səxavətini kəndə əsirgəməmiş və kəndin ətrafına elə bil ağ suxurlardan bənd vurmuşdu.Bu əsil təbiət möcüzəsi idi.Zəngin yataqlara malik olan Ağbəndi ermənilər işğal etsələr də,Ağbəndə gözəllik verən ağ suxurlar paxıl düşmən qəlbinə sıxılmış xəncər olmuşdu.

Əzizinəm Ağbənddi,
Aranlar dağa bənddi.
Sərvəti yada qalıb,
Cirov olan Ağbənddi.

İğal olunmuş torpaqlarımızın od olub namərd düşmən ayaqlarını yandıracağına inamım çox idi.Müqəddəs torpağımız onun qoynunda əsrlərlə yaşamış övladlarını heç vaxt unutmaz!Ona görə də,bir bayatımda torpağa üz tutub xitab edirdim:

Əzizim ana torpaq,
Boyandın qana torpaq.
Xaylar torpaq nəfsində,
Üzün hayana torpaq?

1990-cı illərin əvvəllərində nəhəng Sovet imperiyası çökəndən sonra müstəqilliyə qovuşmuş milli respublikalar tarixlərində milli azadlıq əldə etsələr də,bir-birinə bağlı olan iqtisadi tarazlıq pozulmağa düçar olmuş,müəssisələrdə iqtisadi əlaqələr dağılmaq ərəfəsini keçirməyə başlamışdılar.Bu səbəbdən müəssisələrdə dayanmalar və işsizlik özünü göstərməyə başlamışdı.Rusiyada çalışdığım müəssisədə təhcizat və satış şöbəsinə rəhbərlikdə olarkən,bütün bu iqtisadi pozuntuları hiss etdiyimdən bu sahənin praktik mütəxəssisi kimi Qorbaçovun dırnaqarası yenidənqurma strategiyasının verdiyi imkandan istifadə edib şəxsi koperativ yaratmalı oldum.Lakin bu dövrlərdə Rusiyada tüğyan edən reket quldur dəstələri dürüst və dəqiq işləməyimizə əngəl törətməyə başladılar.Ermənilərin milli ədavətə əsaslanan Dağlıq Qarabağ münaqişəsi sanki,bütün Rusiyanı milli ədavət meydanına çevirmişdi.Bütün bu kəmkəsirlər məni məcbur etdi ki,ailəmi vətənimə köçürdüm.Bakıya gəldikdən sonra dolanışığın çətinliyini və işsizliyin baş alıb getdiyini görüb yenidən Rusiyaya qayıtdım.Tez-tez ailəmin təminatını həyata keçirmək üçün Bakıya gəlməli olurdum.Belə vaxtlarda Bakıda peyda olmuş İran işbazlarının, əsasən kənd təsərrüfatı alveri ilə məşğul olması diqqətimdən qaçmadı.Köçkün olan qohum əqrabama köməklik etmək üçün İran alverçilərindən kartof alıb qohumlarıma köməklik etdim.İş elə gətirdi ki,Ərdəbildən olan işbazın xahişi ilə  müqavilə bağlayıb uğursuzluğa düçar oldum.Əlbəətə ki,mənim bu işə qol qoymağım milli yaxınlıqdan,eyni soydan olmağımızdan irəli gəlmişdi.Şah

İsmayıl adı ilə bağlı olan Ərdəbilə o qədər hörmət bəsləyirdim ki,onun sakinləri olan işbazların mənəvi naqisliyi məndə təəssüflər yaratmışdı.Özünü əsil islamçı adlandıran bu dörd işbaz ilk görüntüdə az qala bir xurma ilə dolandıqlarını və kafir sayılacaq digər nemətlərdən uzaq olacaqlarını mənə diktə edirdilər.Məni isə fikir götürmüşdü ki,əcəba Rusiyada bunlar necə dolanacaqlar?Heyhat,mən fikirimdə yanılmışdım.Üç-dörd gün keçməmiş Ərdəbilli qardaşlarım bir ucu donuz kolbasasından tutmuş gözlərinə nə dəyirdisə hamısını həzmi-rabedən keçirirdilər.Özümü saxlaya bilməyib işbazlara bildirdim ki,axı siz kafər nemətlər o yana dursun, heç namaz da qılmırsınız? İşbaz qardaşlarım öz aralarında xeyli gülərək bir-biriləri ilə xısınlaşıb mənə bildirdilər ki,Ərdəbilə qayıtdıqdan sonra qələt namazı qılıb allah tərəfindən bağışlanacaqlar.İşbazların məntiqsizliyi mənə gün kimi aydın idi.Odur ki,üzümü şah İsmayıl vətəni olan Ərdəbilə tutub bədahətən və sual dolu bayatı deməli oldum:

Əzizinəm Ərdəbil,
Agah olsan,deyim bil.
Namaz günahdadırsa,
Qələti ayıb deyil?!

Ərdəbilli işbazların mənə gətirdiyi uğursuzluq,Rusiyadakı reket hucumları və son anda reketlərin mənimlə hesablaşmaq cəhdi məni vətənimə qayıtmağa məcbur etdi.Vətənə qayıtdıqdan sonra bir müddət müxtəlif sahələrdə,o cümlədən qəzetçilik sahəsində fəaliyyət

göstərsəm də vətənimin tarixi,bir millət olaraq parçalanmağımız,Araz çayının sərhəd olub ətlə dırnağı ayrı salması məni rahat buraxmırdı.Bütün kitabxanalarda axtarış apardıqdan sonra nəhayət ki,Azərbaycan Milli Elmlər Akademiyası tarixçilərinin 2005-ci ildə nəşr etdirdikləri "Qarabağ:real tarix,faktlar,sənədlər" və Tarix İnstitunun 2010-cu ildə işıq üzünə çıxartdığı "İrəvan xanlığı"kitabları,digər tarixi yazılar,sənədlər vətənimizin nədən iki yerə bölündüyünü,Araz çayının nədən sərhəd rolu oynamasını mənə aydınlaşdırdı?Nadir şahın yaratdığı böyük bir Azərbaycan məmləkəti ( Əslində,Azərbaycan xalqının vətəni elə İran idi.) Rusiya- İran müharibələrinin bölüm məkanına çevrilmişdi.Müharibələri uduzan İran Rusiya İmperiyası tərəfindən tam məhvə məhkum olacağını anladığına görə,Araz çayını sərhəd olaraq çar Rusiyası ilə müqavilələşmişdi.Torpaq iştahasını işə salan çar Rusiyası sərhəd təhlükəsizliyini təmin etmək üçün,daha böyük torpaq acgözü olan vətənsiz, varvar erməniləri Azərbaycan torpaqlarında yerləşdirməyə qərar vermişdi.Bu da azmış kimi, çar Rusiyası Azərbaycanın Dərbənd şəhərini işğalçı olaraq öz tabeliyində saxlamış və "dədəsinin"torpağı olaraq Şəmsəddin mahalını Gürcüstana bəxşiş etmişdi. Faciəli vətən torpağının Rus və Fars tərəfindən parçalanmasını yəqin etdikdən sonra yeni bayatılarım yaranmağa başladı:

Əzizinəm dürüstdür,
Xay dayağı Urusdur.

Ölkəni viran edən,
Ya Farsdır,ya Urusdur.
xxx
Əzizinəm Borçalı,
Vətənsizdi Bürcalı.
Urus araya girdi,
Ayrı düşdü Borçalı.
xxx
Əzizinəm Dərbəndə,
Əlim çatmır Dərbəndə.
Urus sərhəd qoyubdur,
Gedəmmirəm Dərbəndə.

Yadımdadır hələ orta məktəbdə oxuyarkən yay tətil vaxtlarında dayım məni İrəvana aparmışdı.İrəvanın gəzməli-görməli yerlərini xeyli səyahət etdikdən sonra məndə xoş təəssürat buraxmış olan İrəvan qalası və Göy məscid öz arxitekturası və möhtəşəmliyi ilə beynimə hakim kəsilmişdi.Az qala hər daşına həsrətlə baxdığım Qala o qədər möhtəşəm idi ki,o vaxtkı təssəvvürümə görə "ermənilərin" bu qalanı inşa etməsi məndə böyük marağa səbəb olmuşdu. İrəvanın köklü Azərbaycan torpağı olması haqqında biliklər əxz etdikdən sonra erməni uydurmalarına nifrətlə yanaşmalı oldum.O vaxt həsrətlə hər daşını əllərimi sürtməklə əzizlədiyim möhtəşəm qalanın tikintisi xalqımıza məxsus olduğundan və rus çarlarının əmri ilə gülləboranla qaşılaşdığından yurdumun qalasına bayatı demiş oldum:

Əzizim İrəvanım,
Elim,yurdum,xəyalım.
Nikolayın əmrilə,
Gülləboran olanım.

Xalqımız tərəfindən ərsəyə gətirilmiş İrəvan qalasının gözlərimlə gördüyüm möhtəşəmliyi məndə belə bir fikir formalaşdırmışdı ki,Nikolay kimi çarlarin qəsbkarlığı Qalanı əyilməz etmişdir. İşğalçı çarlar və generallar bu dünyamızdan yox olub gediblər,Qala isə öz möhtəşəmliyi ilə indi də düşmən əhatəsində möhtəşəmliyini,xəlqiliyini qoruyub saxlayır:

Əzizim qalasıdır,
Qaladır,qalasıdır.
Yağıya sipər olan,
İrəvanQalasıdır.

Parçalanmış vətənimizin bir parçası olan Bakımızda,-Azərbaycanımızda güclü iqtisadi inkişaf özünü göstərirdi.Ulu Öndərimiz H.Əliyevin uzaqgörən siyasəti bəhrəsini verməyə başlamışdı.İşğalçı Ermənistanı nəzərə almasaq yeni dost ölkələrlə əsrin neft müqaviləsi bağlanmışdı. Bu müqavilənin bağlanması Azərbaycanın neft strategiyasının sürətli inkişafına səbəb olmuşdu.Düşmənlərimiz narahat olmağa başlamışdı.Bu inkişaf məni bir vətən oğlu kimi vəcdə gətirmişdi:

Eləmi,ay vətənim,
Dostlarla birləşənim.

Bolluca sərvətinlə,
Düşmən bağrı dələnim.

Ölkəmiz sürətlə inkişaf etdikcə birinci Qarabağ müharibəsindən sonra xalqımızın bədbin əhval-ruhiyəsi nikbinliklə əvəz olunmağa başlamışdı.Gündən –günə yeni inkişafa qədəm qoymiuş ordumuz güclənir,xalqımızın rifah halı yaxşılaşır,Bakımız isə dünyanın çil-çıraqlı,möhtəşəm şəhərinə çevrilirdi.Mən də bir Bakı sakini kimi "Qara qızıl"ımızın yaratdığı ağ günləri görürdüm:

Əzizinəm,ay Bakı,
Sənə yoxdu tay Bakı.
"Qara qızıl"xudadan,
Şöhrətinə pay Bakı.

Ölkəmizdə İ.Əliyevin rəhbərliyi bu inkişafı daha da sürətləndirməyə səbəb verdi.Yeni neft müqavilələri,yanacaq sərvətimiz olan qaz sahəsinin yeni dövrə qədəm qoyması,neft-qaz boru kəmərlərinin inşası,bu sahədə Türkiyə ilə birliyimizin genişlənməsi, bir çox Avropa ölkələrinə neft-qaz hasilatı ölkəmizin sürətli inkişafına təkan verirdi.Ölkəmizdə nəinki neft-qaz sahələri,qeyri sahələr də inkişaf dövrünə qədəm qoymuşdu.Vətənimizin sürətli irəliləyişi düşmənlərimizi,-erməniləri və onların havadarlarını ciddi narahat edirdi.Miflənmiş ordularına və birinci Qarabağdakı qələbə eyforiyasına uymuş Köçəryanlar,Sərkisyanlar vətənimizin inkişafına əngəl törətmək üçün müharibə mesajı verirdilər.Ölkənin və ordunun inkişafından

ruhlanan Azərbaycan xalqına gün kimi aydın idi ki,bu üzdəniraq siyasətbazlar müharibə mesajları ilə xalqlarını bataqlığa aparırlar.Bu ağıldan dayaz erməni rəhbərləri anlamırdılar ki,Türkün vurduğu zərbə daha acınacaqlı olacaq:

Eləmi, ay dığalar,
Daşnak sərli bağalar.
Türkə meydan oxursuz,
Türk zərbəsi dağ olar.

Köçəryan,Sərkisyan siyasətbazları az deyildi ki,biri də "xalqın" dəstəyi ilə üsyan qaldırıb Ermənistan hakimiyyətinə rəhbərliyi ələ aldı.Üsyanla ermənilərə hökmdar olan Paşinyan heç əvvəlki siyasətbazlardan geri qalmayıb,yan yörəsinə yığdığı gədə-güdələrlə Azərbaycanımıza meydan oxumağa başladı.İlk vaxtlardan siyasətdən xəbəri olmayan bu erməni hökmdarının elə də güclü ağıla malik olmadığını anlayıb ona bir bayatı demiş oldum:

Əzizinəm,ağlı dar,
Üsyanla olsa hökmdar.
Uzaqgörən deyilsə,
Olmaz ondan hökmdar.

Ölkəmizə qarşı pozuculuq təxribatı törədib,layiqincə cavabını alan Paşinyan komandası Şuşada yallı gedib xoşlandıqdan sonra tulası Araikə Şuşanı "Artsaxa"paytaxt etməyə mesaj verdi.Azərbaycan xalqının mədəniyyət beşiyi

olan Şuşamız heç vaxt erməni dığalarına paytaxt ola bilməzdi.Xalqımızın səbr kasası aşıb-daşırdı.Ölkə rəhbərimiz İ.Əliyev arxalandığı xalqın,onun orduda xidmət edən oğullarının Şuşanı düşmənlərdən azad etməyə hazır olduqlarını bilirdi.İkinci bir tərəfdən Şuşanın düşmən tapdağından azad olunması, Şuşanı mədəniyyət beşiyi sayan görkəmli xadimlərin,o cümlədən uzaqgörən dahi siyasətçi Ulu öndər H.Əliyevin ruhunun şad olması demək idi:

Əzizim ər rəhbərim,
Güvəndiyin nərlərin,
Düşmənə qalib olsa,
Ruhu şaddır Öndərin.

Erməni torpaq acgözlərinin Azərbaycanımıza qarşı apardığı təxribatlar azmış kimi,sanki bütün dünyanı qiyamət ağuşuna almış Kovid epidemiyasının Azərbaycanımıza sirayət etməsi çox böyük fəlakətə gətirib çıxardı.Xalqımızın dəyərli insanlarının bu xəstəlikdən vəfat etmələri,insanlar arasında təmasların miniumuma endirilməsi,yaşadığın ərazidən adicə hava almaq xatirinə bayıra çıxmagın yasaq olunması, epidemiyadan qorunmaq üçün bütün insanların maska taxmalarının vacibliyi isə sanki insanları yadlaşmağa sürükləyirdi.Kovid virusunun gətirdiyi bəlalar və yaratdığı fəsadlar mənim bir neçə bayatımın mövzusu oldu:

Əzizim virus gəldi,
Kovidləşib dirçəldi.
Neçə-neçə can aldı,
Sanki, qiyamət gəldi.

xxx

Əzizim ay maskalar,
Ağ-qaralı maskalar.
Yaşmaq yoxa çıxıbdı,
Moda düşüb maskalar.

xxx

Əzizim bacı-qardaş,
Bacıya arxa qardaş.
Kovid yadlıq salıbdı,
Görüşmür bacı-qardaş.

xxx

Əzizim Astaraya,
Xəzri saçın daraya.
Virus imkan verməyir,
Bir gedəm Astaraya.

Ölkəmiz, dünyanı lərzəyə gətirən kovid epidemiyasının qarşısını almaq üçün bütün dünya ölkələrindən daha hazırlıqlı çıxıb epidemiyanın təsir qüvvəsini aşağı salmağı bacardı. Paşinyan və gədələri,o cümlədən ordusunun hansı güc səviyyəsində olduğunu anlamayan hərbi nazir Tonoyanın yeni torpaqlar uğrunda Azərbaycana qarşı müharibəyə girişməsi torpaqlarımızın düşmən tapdağından

azad olunmasına şərait yaratdı.Düşmənə layiqincə zərbə vuran ordumuz hər gün yeni-yeni kənd və rayonlarımızı azad etməyə başladı.Xalqımızın göstərdiyi dəyanət,ordumuzun rəşadət salnamələri bu millətin hansı kökdən olduğunu bir daha göstərməyə başladı:

Əzizim,zordu bu xalq,
Kökü "Boz qurdu"bu xalq.
Torpağı qanla alan,
Məğrur bir yurddu bu xalq.

Müharibənin elə ilk günlərindən Suqovuşanın düşmənlərdən azad edilməsi sevincimə səbəb oldu.Birinci,Suqovuşan Muğan düzü idi desəm yanılmaram.Bu o torpaq idi ki,bir vaxtlar Azərbaycan tarixinə fatehlik salnaməsi yazmış qüdrətli Nadir şah,məhz burada bəyliyə son qoyub özünü şah elan etmişdi.İkincisi isə,Suqovuşanın azad edilməsi torpaqları cadar-cadar olan Muğanımız, otuz il həsrətini çəkdiyi Suqovuşanla qovuşacaqdı.Bu hisslər məni yeni bayatılar ərsəyə gətirməyə sövq etdi:

Əzizinəm Muğan düzü,
Ceyranlı Muğan düzü.
Nadir,şah olan yerdi,
Suqovuşan Muğan düzü.

xxx

Əzizim il çağ gəldi,
Qovuşandan su gəldi.

Muğan,Şirvan elində,
Susuz torpaq dirçəldi.

Ordumuzun parlaq qələbələri nəinki düşmən Ermənistanı,onun havadarlarını şoka salmışdı.Tarixən Azərbaycanımıza düşmən kəsilən bu havadarlar hər vəchlə qələbəmizə qarşı çıxırdılar.Ermənistanı saysız-hesabsız silahlarla təmin edir,informasiya müharibəsi yaradıb yanlış xəbərlər yayırdılar.Dünya ictimaiyyəti adlanan benəlxalq qurumlar Azərbaycan xalqının haqq səsinə biganə idi.Beynəlxalq qurum olan BMT kimi ali orqan qəbul etdiyi dörd qətnaməni həyata keçirmək fikrində olmadığı kimi,bu ali orqanın tərkibində yaradılmış ATƏT, otuz il ərzində yalançı vədlərlə seyrçi mövqe tutub sanki səyahətə gəlirdi.Nəinki ATƏT,o cümlədən AŞPA adlı Avropa beynəlxalq qurumu da yaxşı bilirdilər ki,ermənilər bu torpaqlara gəlmədilər və Çar Rusiyasının, Sovet hökumətinin qayğısı ilə dövlət olublar.Ona görədə ikibaşlı oyun edən bu beynəlxalq qurumlar bəzi hallarda ölkəmizə qarşı qərəzli mövqe tutmaqdan belə çəkinmirdilər. Bu benəlxalq qurumların fəaliyyəti bayatımda öz yerini tapırdı:

Əzizim AŞPA,ATƏT,
Minski qrupu bir alət.
Gəlirlər,göz yumurlar,
Seyrçilik olub bir adət.

Ordumuzun qazandığı qələbələr az qala bütün xalqı ayağa qaldırmışdı.Kişi qeyrətli,aslan qadınlarımız döyüş

meydanlarına atılaraq qardaşlarının köməyinə gedirdilər.Qələmə aldığım "Yeddi oğul istərəm"romanımda anaları vəfat etmiş altı qardaşın bir bacısı dözməyərək müharibəyə getmiş və qardaşlarına həyan olmaq istəmişdi.

Əzizinəm can bacı,
Qardaşa güman bacı.
Qardaş anasız qalsa,
Şam kimi yanan bacı.

Azərbaycan ordusunun zəfər gətirən hucumları qarşısında tab gətirməyən xain düşmən döyüş meydanlarını tərk edərək geri çəkilirdilər.Fərarilik edən,əsir düşməyi vuruşmaqdan üstün tutan erməni ordusunun dığaları çox gözəl bilirdilər ki,onlar doğma torpaq uğrunda vuruşmurlar,onlar üçün yad olan torpaqda isə ölmək istəmirdilər.Erməni ordusunun məğlubiyyətini həzm etməyən xain erməni "rəhbərləri" bütün tarix boyu olduğu kimi mərdimərdanə vuruşa bilmədiyini ört-basdır etmək üçün havadarlarının peşkəş verdiyi uzaqmənzilli raketləri yaşayış massivlərinə ataraq,qələbə qazanmaq istəyirdilər.Gəncəyə,Bərdəyə və digər yaşayış massivlərinə raketlər atan bu xainlər Azərbaycan xalqının fədakar,qeyrətli olduğunu görüb daha da azğınlaşsalar da,ordumuz döyüş meydanlarında düşmənə artıqlaması ilə cavab verirdi.Gəncəyə,Bərdəyə atılan raketlər günahsız ölümlərə səbəb olduğundan mənim sarsıntıma səbəb olurdu ki,bu da bayatılarda özünü göstərirdi:

Əzizinəm Gəncədi,
İlyas gəzən Gəncədi.
Gecə raket atıldı,
Zülmə dözən Gəncədi.

xxx

Eləmi,gözüm Bərdə,
Heyranam özüm Bərdə.
Qəfil raket atıldı,
Var səndə dözüm,Bərdə.

Erməni ordusunun döyüşlərə tab gətirməyib geri çəkilmələri demək olarki,İran soydaşlarımızın təntənəsinə çevrilmişdi.Soydaşlarımızın həmrəylik göstərməsi fars polisinin təpitmə göstərməsinə baxmayaraq alqışlarla sədalanırdı.Bir İranlı soydaşımızın, sərhəd boyu qovarağa götürdüyü dığa hərbçilərini məsxərəyə çevirən,-Paşinyan budumu sənin ordun,sərbazların,-deməsi və fars polisini görən kimi duruxması məni bu hərəkətə biganə qoymadı:

Əzizim baxan qardaş,
Özünü yaxan qardaş.
Paşik, sərbazın qaçır,
Deyib,duruxan qardaş.

Ordumuz rayonlarımızın əksərini düşmən tapdağından azad etmiş,indi isə Daşaltı və sonra Şuşamızın azad edilməsi uğrunda döyüşlərə rəvac vermişdi.Birinci Qarabağ müharibəsində Daşaltı əməliyyatı zamanı olan məğlubiyyətin qisasını almaq vaxtı yetişmişdi.Daşaltının azad edilməsi Şuşanın azad olunmasına yaxınlaşmaq demək

idi.Mənə elə gəlirdi ki,Daşaltı düşmən tapdağında olsa da,öz möhtəşəmliyini qoruyub saxlamış məğrur bir daş-qala idi.Onun daşları onu azad etmək istəyən oğullara yaşıl otlaq olacaqdı.Əyilməz Daşaltı torpağından mən bunu gözləyirdim:

Əzizinəm Daşaltı,
Otlaqların baş altı,
Otuz ildə düşmənə,
Əyilməz baş,Daşaltı.

Bəli,Daşaltının daşları otlaqlara çevrilib ordumuzun gəlişini azadlığı ilə qeyd etdi.İndi həmin daşlar yaşıl otlaqlar olaraq oğullarımızın Şuşaya daxil olmasına imkan yaradırdı.Ağır silahlar olmadan əlbəyaxa döyüşə girişən Azərbaycan oğulları düşmənin təpədən dırnağadək silahlanmış ordusunu darmadağın edib,mədəniyyət beşiyimiz olan Şuşamızı hiyləgər düşməndən azad etdi.Xan qızı X.Natəvanın,mədəniyyət korifeyləri Üzeyirimizin,Bülbülümüzün Bakıda düşməndən alınmış tunc heykəlləri sehrə dönüb sevincdən doğan göz yaşlarına hakim kəsilirdilər.Neçə-neçə vəfat etmiş musiqi xadimlərinin ruhu Şuşa azadlığından şad oldu:

Əzizim,canım Şuşa,
Saz-söz gümanım Şuşa.
Üzeyir,Seyid,Bülbül,
Muğamlı Xanım Şuşa.

Şuşa şəhərinin ordumuz tərəfindən azad edilməsi,şəhərin azad edilməsinə inanmayan erməni havadarlarını bərk qıcıqlandırdı.Alınmaz şəhər hesab edilən Şuşanın azad edilməsini görən Rusiya hökuməti bir neçə saat ərzində Xankəndinin də azad olunacağını dəqiqləşdirdiyindən,söz sahibi olan İ.Əliyevdən hucumu dayandıracağı halda,yerdə qalan Ağdam,Kəlbəcər,Laçın rayonlarının bir güllə atmadan Azərbaycana qaytarılacağını vəd etməsi gecəynən üçtərəfli,Azərbaycan-Rusiya-Ermənistan müqaviləsinin bağlanmasına və müqavilədə göstərildiyi kimi,Rusiya sülhməramlılarının Xankəndinə göndərilməsi ilə bitdi.Şuşamızın,digər yeddi rayonlarımızın azad olması məni çox sevindirsə də,Rus sülhməramlılarının Qarabağda yerləşdirilməsi məni təəssüfləndirmiş oldu.Axı,tarixən erməniləri Azərbaycan torpaqlarına yerləşdirən,onlara torpağımızda dövlət yaradan Rusiya olmuşdur.1813 və 1828-ci illərdə bağlanmış Rus-İran müqavilələri Araz çayı sərhəd olmaqla torpağımızı,xalqımızı iki yerə bölmədimi?Rus-Fars millətçilərinin xalqımızın başına gətirdiyi bu bəlaları "Parçalanan məmləkət və Böyük qayıdış."kitabımda açıqlığı ilə yazmış və bayatı da həsr etmişdim:

Əzizinəm ot bitməz,
Dağ-qayada ot bitməz.
Rus ayağın qoydu ha,
O torpaqda ot bitməz.

Torpaqlarımızın azad olması Nadir şahdan sonra bütöləşməyə gedən böyük qayıdışın əsasını qoydu.Ölkə rəhbərimizin xalqına,ordusuna arxalanaraq xilaskarlıq yolunda atdığı addım məni ruhlandırmaya bilməzdi.Bu münasibətlə mən yeni bayatılar ərsəyə gətirdim:

Əzizim ər əsgərlər,
Nər,müzəffər əsgərlər.
İlham irəli dedi,
Çaldı zəfər əsgərlər.

xxx

Əzizim ər Xilaskar,
Xalqa rəhbər Xilaskar.
Qarabağ bizimdir!Hoy,
Hayqıran,nər Xilaskar.

Müharibəni zəfərlə başa çatdıran Azərbaycan dövləti üçtərəfli müqaviləyə görə Ağdam,Kəlbəcər və bir neçə kəndi ordumuz tərəfindən azad edilmiş Laçın rayonunun da bir güllə atılmadan azad edilməsini həyata keçirən zaman,Ağdamın Sarıcalı kəndinin düşmən tapdağından qoparılması məni daxilən sevindirmişdi.Sarıcalı kəndi Qarabağ xanı Pənahalı xanın oymağı olduğundan bayatısız ötüşmədi:

Əzizinəm Sarıcalı,
Pənah köklü Sarıcalı.
Qovulanda bilindi,
Hayların acı halı.

Sarıcalının azad edilməsi ürəyimə fərəh gətirsədə,Ağdam şəhərinin xain düşmən tərəfindən qarış-qarış minalanması, gözü vətən həsrəti ilə intizarda qalan Ağdamlıların vətən torpağına mina əlindən gedə bilməmələri məndə bir o qədər məyusluq yaratdı:

Əzizinəm Ağdama,
Xay gözünə ağ dama.
Düşmən minalayıbdır,
Həsrətliyik Ağdama.

Xain düşmənin riyakarlığına baxmayaraq Ağdam,Kəlbəcər,Laçın rayonlarının bir güllə atmadan azad olunması dövlətimizin düşmən üzərində siyasi qələbəsi idi.Azərbaycan dövlətinin həm döyüş meydanında çaldığı zəfər,həm də siyasi meydandakı zəfəri ermənipərəst olan beynəlxalq qurumları ciddi narahat etməyə başlamışdı.Belə qurumlardan biri otuz il fəaliyyətsiz olan və bu fəaliyyətsizlikləri ilə özlərini məhvə aparan ATƏT-in Minsk qrupu idi.ABŞ,Rusiya və Fransadan ibarət olan bu üç həmsədr dövlətlər ikibaşlı oyunlarından utanmaq əvəzinə,yenidən fəallaşmaq istəyirdilər.Azərbaycan dövləti sülhdən uzaq olan bu qurumun vəzifələrini təkcə həyata keçirdiyindən otuz il seyrçilik etmiş qurumun lazımsızlığını sübut etmişdi.Mən də xalq oğlu olaraq bu mənasız quruma bir bayatı ilə məsləhət formalı müraciət etməli oldum:

Əzizim seyrçi ATƏT,
Sülhdən uzaqsız,əlbət.
İkili oyunlardan,
Uzaqlaşsaz,kifayət.

ATƏT-in həmsədrləri olan ermənipərəst Fransa,o cümlədən ABŞ hər vəhclə çalışırdılar ki,onların yaratdığı bu qurum tarixin səhnəsidən biabırcasına getməsinlər.ATƏT-in fəaliyyətsiz hala düşdüyünü görən həmsədr Rusiya özünün Qafqaz üzrə nümayəndəliyini yaratmaqla ATƏT-in məhvinə töhvə vermiş oldu.Rusiyanın nümayəndəliyinə oxşar ABŞ və Fransa nümayəndəlik yaratmaqla ATƏT-ə sonluq verdilər.Mən də öz növbəmdə bir bayatı ilə məhv olan qurumu “alqışladım”.

Eləmi seyrçi ATƏT,
Haqqa etmədiz rayət.
Xeyli etdiz səyahət
Məhv olduz nəhayət.

İstər qirx dörd günlük müharibə dövründə,istərsə də müharibədən sonrakı dövrlərdə erməni havadarları olan bütün dövlət və beynəlxalq qurumlara,onların ikibaşlı haqqsız oyunlarına qarşı çıxaraq,”sözümüz imzamızdır”-deyən,İ.Əliyev haqqa əsaslanan kimliyini,siyasətini ortaya qoymaqla dünya siyasətinə haqq,ədalət gətirmiş oldu.

Əzizim haqq-ədalət,
Deyənə,nər cəsarət.
O,bənzərsiz İlhamdır,
Xalq veribdir vəkalət.

Tarixin bütün dövrlərində qırx milyonluq İran Azərbaycanlılarını boyunduruq altında saxlayıb,onların milli,dil,mədəniyyət hüquqlarını boğan İran fars-molla hökuməti Şimali Azərbaycanlıların erməni düşmənlər üzərindəki qələbəsini həzm etməyib təxribatçılığa önəm verdilər.Şimali Azərbaycanın düşmən üzərindəki zəfərinə,Türk dünyası ilə birliyinə,gündən-günə güclənən iqtisadi inkişafına,beynəlxalq uğuruna sevinməyən İran fars-molla hökuməti hədələr göstərmək eşqinə düşdü.Qırx milyonluq Cənubi Azərbaycan xalqının nə vaxtsa dirçələcəyinə,haqqını tələb edəcəyinə qorxu ilə yanaşan İran farsı Ermənistana açıqca yardım göstərməyə,Azərbaycanın Zəngəzur dəhlizinə "qırmızı xətt"donu geydirməyə rəvac verdi.On milyonluq Şimali Azərbaycan qardaşlarının zəfərinə sevinən İran Azərbaycanlılarının haqqlarını tələb etmək vaxtı çatmışdı.Mən də üzümü "o tay"soydaşlarımıza tutub bir bayatı demiş oldum:

Əzizim "o tay"qardaş,
Bəsdir,qurdunuz bardaş.
Dil,mənlik,haqq uğrunda,
Vuruş lazım,arkadaş!

Azərbaycan torpağının üstündə bir kabus dolanmaqdadır.Bütöv Azərbaycan kabusu! O gün uzaqlarda deyil.İstər bütöv bir məmləkətin xalqını parçalayan Rus-Fars militaristləri olsun,istərsə də haqqa əsaslanmadan özgə torpağında yaradılmış ermənilərin havadarları olsun,xeyri yoxdur.Bir dəfə yüksələn bayrağı heç kim aşağılaya bilməz.Artıq parçalanmış xalqın hayqırtısına səs verən Xəzər də püskürərək dalğaları ilə bizləri bütövlüyə çağırır.Biz odlar yurduyuq.Odlar yurdunun ocağı gur işığı ilə bütövlüyə şölə saçmırmı?

Əzizinəm bu ocaq,
Bütöv xalq yaradacaq,
Şah İsmayıl,şah Nadir,
Kabusu yer alacaq.

Bu kabusun özəyində böyük qayıdışa səbəb olan Müzəffər Ali Baş Komandanımız İ.Əliyev durur.Bütün Azərbaycanlıların Prezidenti kimi rol alan İ.Əliyevin yandırdığı Böyük qayıdış şamı daha gur yanaraq Bütöv Azərbaycanımızı işıqlığa çıxaracaq:

Əzizim o,İlhamdır,
Şöləsi saçan şamdır.
Arzulanan bötövlük,
Böyük Azərbaycandır!

Mən bayatı yaradıcılığıma sonluq vermək niyyətində deyiləm.Hər dəfə ömrümüzün bir kərpiç daşı bioloji məntiq olaraq düşdüyü kimi,təfəkkürümüzə daxil olan müdriklik yaşı yaradıcılığımızın yeni bayatılarını xalqımıza ərməğan edəcəkdir

**Son**

# Hekayələr



## İKİ SEVƏNİN İZTİRABLI SONLUĞU

Kəndin boylu-buxunlu,yaraşıqlı cavanlarından biri də Əsədulla idi.On səkgiz yaşını təzəcə tamamlamış bu cavan evin dirəyi sayılırdı.Səhər sübhdən durub evin bütün ağır işlərini çiyinlərində daşıyan Əsədulla bağ-bostan işlərindən tutmuş odun təminatına qədər bütün işləri yola verər və yoruldum deməzdi.Kənd sakinləri Əsədullanı tərbiyəli,qeyrətli,əməksevər kimi dəyərləndirər,atası İbrahimə,anası Gülcahana bəxtəvərlik verərdilər.Elə bu məziyyətlərinə görə kənd gözəllərindən uzun saçlı,çatma qaşlı,bəyaz görünüşlü Nazpəri Əsədullanın məhəbbət bostanında lalə olaraq kök salmışdı.Bu lalənin şəfəqləri Əsədullanın məhəbbət bostanını işıqlandırmış və hər iki cavanın sevgili olmasına səbəb olmuşdu.İsti yay aylarında təbiət qoynunda sehirlənmiş sevgi macəraları,soyuq havada pəncərədən-pəncərəyə olan isti baxışlarınların sevgi tərənnümünə çevrilmişdi.Cavanlar əhdi-peyman bağlamışdılar.Bu əhdi-peyman son yaşam günlərinə qədər məhəbbət bağlantısına bir işarə idi.

Min doqquz yüz qırx birinci ilin yay aylarında kəndin aralığında qoyulmuş radio dalğaları exo verərək kəndə bəyan etdi ki,nemeslər vətənimizə xaincəsinə basğın edərək hucuma keçmişlər.Hamı qulaqlarını şəkləyərək vətən başçısı Stalinin dilindən xəbər gözləyirdi.Nəhayət bu xəbər Stalinin dilindən eşidildi.O vətənin qeyrətli oğullarını düşmənə qarşı vuruşa səsləyirdi.Bəli,vətən darda idi.Kənd

cavanları könüllüklə cəbhəyə yola düşürdülər.Həmin cavanlardan biri də Əsədulla idi.Sevgilisi Nazpəri ilə görüşən Əsədulla onun üçün göz yaşları tökən Nazpərisini əmin edirdi ki,o bu müharibədən qalib əsgər olaraq qayıdıb,məhəbbət əhdi-peymanına olan sadiqliyini göstərərək,Nazpərisi ilə qovuşacaq.Nazpəri Əsədullanın əhdi-peyman sadiqliyinə bütün varlığı ilə inanırdı,ancaq müharibə müddətində onsuz necə yaşayacağını təssəvvürünə belə gətirə bilmirdi.Artıq ayrılıq məqamı çatanda,Əsədullasının boynuna sarılmış Nazpərini gücünən ayıra bildilər.Nazpəri hıçqıraraq deyirdi:-Yolunu gözləyəcəm son anıma qədər,sənsiz mənə həyat yoxdur!

Rus dilində bir kəlmə bilməyən Əsədulla silahla davranmağı öyrənsə də,əsgər yoldaşları ilə ünsiyyət yarada bilmir,komandirin əmrlərini əsgər yoldaşlarının hərəkətlərinə uyğun yerinə yetirə bilirdi.Nəhayət döyüş meydanına atılan Əsədulla əsgər yoldaşlarının dilini anlamasa da, igidlikdə onlardan geri qalmayıb şücaət göstərərək igidliklərə imza atırdı.Bir müddətdən sonra döyüşə yenicə gəlmiş və rus dilində çox gözəl danışan Bakılı balası Yalçınla olan əsgər dostluğu,onu rus dilini öyrənməyə məcbur etmişdi.Döyüş dostu Yalçının dil öyrətməsi ona gətirib çıxarmışdı ki,Əsədulla komandirin bütün əmrlərini gözü yumulu yerinə yetirirdi.Döyüşlərin birində əsgər dostu Yalçının həlakı onun qəlbini yandırsada,artıq döyüş yoldaşları ilə tam ünsiyyət qurub döyüşdə fərqlənirdi.Min doqquz yüz qırx dördüncü ilin qış döyüşlərinin birində ağır yaralanan Əsədullanı qospitala yerləşdirdilər.Bir

müddət müalicə aldıqdan sonra,onu cərrahiyə əməliyyatı üçün Moskvadakı qospitala təxliyyə etdilər.Güllə yarası almış çənəsində cərrahiyə əməliyyatı edib,sağ qolunun pəncə barmaqlarını amputasiya etməkdə həkimlər qərarlı oldular.Vəziyyətinin kəskin vaxtında ona qulluq edən tibb bacısı Mariya,Əsədullanın ürək-dirək yeriydi.Mariya gündəlik isti yeməklər gətirir,onu yedirdir və qayğısına qalırdı.Artıq çənəsi sağalmış,sarğısı açılmış bu qara buğlu,çatmaqaş Əsədulla Mariyanın sevən qəlbinin sehrinə çevrilmişdi.Əsədulla tam sağaldıqdan sonra,onun cəbhəyə yararlı olmadığı hərbi biletində qeyd olunmuşdu.Əsədulla çamadanını yığışdırıb xəstəxanadan birbaşa vağzala getdi.Qatarlar fit verərək bir-birini əvəzləsə də,Əsədulla donmuşlar kimi tutqun olaraq fikir ümmanına qərq olmuşdu.Tez-tez əlinə baxıb qalib,sağlam döyüşçü olmadığını fikrinə gətirib  kəndinə getməkdən vaz keçdi.Bəs,Nazpərim necə olacaq?-deyə düşündü.Duyğulanmış Əsədullanın gözləri dolmuşdu.Bu an arxadan onu qucaqlayan Mariya Əsədullanın göz yaşlarını görüb,isti öpüşlərlə bədbinçiliyinə sonluq verdi.Mariya onun əlindən çamadanını alıb,qoluna girərək yaşadığı evə doğru səmtləndi.Biixtiyar olaraq Mariyaya tabeçilik göstərmiş Əsədulla beşmərtəbəli binanın qabağında Mariyanın ona dikəlmiş sevincək baxışlarına təəccüblə baxdı.Mariya sevincli halda,- bu da mənim yaşadığım ev,-deyib,Əsədullanı dartaraq üçüncü mərtəbədəki evinin qapısını açmış oldu.Əlacsız olaraq nimdaş evə daxil olan Əsədullanı Mariya yaşlanmış anası ilə tanış etmək üçün bildirdi ki,onun adı çox uzun oldu-

ğunda bizlər ona qospitalda Saşa deyə müraciət edərdik.Bu da bizim Saşamız.Mariya Saşanı digər otağa aparıb,ona can dəsmalı verərək duşda yuyunmağı təklif edib,əlavə etdi ki,sən yuyunana qədər mən görüşümüzü qeyd etmək üçün şərab alıb qayldacam.Gec gəlsəm darıxma.Mariya bir göz qırpımında otağı tərk etdi.Əsədulla Mariyanın ona göstərdiyi qulluqdan şaşırmışdı.O talehin hökmünə tabe olub,yuyunmağa məcbur oldu.Camadanındakı ülgüclə üzünü təraş edib özünü səhmana saldı.Bir azdan əlində iki şərab şüşəsi olan Mariya otağa daxil olub,Saşasının təraş olunmuş üzündən bir öpücük götürməyi də unutmadı.Mariya masaya yemək düzüb,şərab şüşələri ilə süfrəyə bəzək verəndən sonra Saşasını məcburən masaya dəvət etdi.Kolbasa qızartması Saşanı doydurduğu kimi,şərab da onun beynini dumanladırdı.Qafqazlı balasını Saşa edib,şərabla beynini dumanlandıran Mariya ehtiraslı baxışları ilə onu məst edib,dumanlanan beynini şirin oxumaqları ilə sehirli bir həyata sürükləyirdi.Dumanlanmış beynində Nazpərisini canlandırmaq istəyən Əsədulla Mariyanın ağuşunda məstliyin qurbanına çevrilirdi.

Səhəri kütləşmiş baş ağrısından açan Əsədulla lütlənmiş halda özünü görüb,sol sağlam əlini başına çırpmış oldu.Yaşarmış gözlərindən axan şəffaf yaş damçılarında Nazpərisinin əksini görüb heyrətindən dondu.O,bağışla məni sevgilim,əhdimə düz çıxmadım,-demək istəsə də,şəffaf göz damçısı sürüşüb çirkli döşəmədə yoxluğa çevrildi.Əsədulla cəld əsgər paltarını əyninə taxıb çamadanını götürərək evi tərk etmək istəsə də,Moskvanı tanımadığın-

dan və pulsuzluqdan fikrindən vaz keçdi.Axşama yaxın evə qayıdan Mariya Saşasını qucaqlayıb ona aldığı kostyumu geyinməyi təklif etdi.Talehin hökmündən baş çıxarmayan Əsədulla susqunluq keçirsə də,Mariya ona məcburən kostyumu geyindirmiş oldu.Əsədulla xəyalında Nazpərisini yaşatsa da,real yaşam Mariyanın ixtiyarında qalırdı.Bu minvalla bir neçə ay keçdi.Mariya hamilə olaraq doğum ərəfəsində idi.Əsədullanın ürəyi iki yerə bölünmüşdü.Ürəyin bir hissəsi Nazpəri sevgisi ilə döyünürdü,digər hissəsi isə Mariyanın hamilə olmasıydı.Bəli, vaxt tamamına çatanda,Mariya iki əkiz oğlan uşaqlarını Saşasına bəxş etmiş oldu.Saşa olaraq yarı özünə,yarı Mariyasına oxşayan Matvey və Vadim oğlan əkizləri ilə,onun yeni həyatı başladı.Müharibənin başa çatmasından illər keçmişdi.Əkizlər məktəbə gedir,Saşa Mariyasının tanışının işlədiyi zavodda keyfiyyət yoxlayıcısı olaraq çalışırdı.Mariya isə xəstəxananın hörmətli tibb bacısı olaraq fəaliyyət göstərirdi.

Nazpəri sevgisində əhdi-peyman bağladığı Əsədullanı göz yaşları içərisində cəbhəyə yola saldıqdan sonra gözləri yolda,qulaqları səksəkədə idi.Kəndin bir çox qızlarının qardaşları,sevgililəri cəbhəyə getdikdən sonra onlardan cəbhə yeniliklərini öyrənmək üçün vaxtaşırı qızlarla görüşər və yeniliklərdən xəbərdar olardı.İlk əvvəllər elə bir yenilik olmadığından Nazpərinin həyacanları sakitləşərdi.Bir qız uşağı əmanət qoyub getmiş Tükəzbanın əri İldırımın ölüm xəbəri gəldikdən sonra Nazpərinin yuxuları ərşə çəkilmişdi.Sonralar qonşu Mədət kişinin oğlu Niyaz

iki ayağını itirərək çəliklə geri qayıdandan sonra Nazpəri vahiməli günlər keçirməyə başlamışdı.Yuxularında Əsədulla peyda olaraq sevgilisinə əyan edirdi ki,sağ-salamat müharibəni başa vurub qalib əsgər olaraq kəndinə gələcək.Yuxular Nazpəridə nikbinlik yaratsada,müharibədən yaralanıb gələnlərin,o cümlədən həlak olanların sayı az deyildi.Nazpəri Əsədullanın başına bir iş gələ biləcəyini ağlına belə gətirib,dilinə almaq istəmirdi.Müharibə başa çatsa da,qalib əsgər kimi qayıdanlar olsa da,Əsədulladan bir xəbər-ətər yoxuydu.İllər-illəri yola saldıqca Nazpərinin qara saçları ağarmağa,özü isə dərd çəkməkdən əriməyə başlamışdı.Bir ucu valideyinlərindən tutmuş,kəndin dəyərli sakinlərinə qədər hamı ona ərə getməyi tövsiyyə etsə də,Əsədullaya olan sevgi əhdi-peymanına sadiqliyini qoruyub saxlayırdı.Əsədullanın dərdinə dözməyən ata-ana haqq dünyasına qovuşandan sonra,Əsədullanın nə vaxtsa qayıdaraq birinci ata evinə dönəcəyini dərk edən Nazpəri valideyinlərinin razılığını alıb Əsədullanın ata evində səliqə-səhman yaratmaqla sevgilisinin yolunu gözləməyə qərarlı oldu.İllər keçdi.Əsədullanın gələcəyi yollara baxmaqdan gözləri saralan Nazpərinin daha tor görən gözləri yollara baxa bilmirdi.Nazpəri ancaq yuxularında onu axtarırdı.Ancaq, yuxular da ərşə çəkildiyindən bir gün onun döyünən ürəyi həmişəlik onu şirin röyalardan məhrum etdi.Kənd əhli böyük hörmət və ehtiramla onu qəbirsanlığı iki ayıran yol kənarında dəfn etdilər.

Əsədullanın iki əkiz uşaqları hərbi xidməti başa vuraraq evlərinə dönmüşdülər.Bu illər ərzində birgə yaşadığı

və baş-başa qaldığı Mariyanı ürək açıqlığı ilə sevə bilməmiş,bütün xəyalında,röyasında ancaq Nazpəri ilə sayaqlamışdı.O qalib əsgər olaraq kəndə,əhdi-peyman bağladığı Nazpərisinə qovuşa bilmədiyinə görə,gah özünü,gah da ki,talehini məzəmmət edirdi.Mariya gecələr Nazpəri deyərək sayıqlamalar keçirən Əsədullanın onu yuxulu olaraq qucaqlamasını böyük qısqanclıqla qarşılayırdı.Nəhayət Mariyanın sorğularından sonra Əsədulla keçmiş sevgilisinin Nazpəri adını daşıdığını və sevgidə əhdi-peymanlı olduqlarını açıqlasa da,bu heç də Mariyanın əsəblərini sakitləşdirmirdi.Mariya hiddətli olaraq fikirləşirdi ki,yeri-yurdu olmayanın birini sevərək,ona ərə gedib adamlar sırasına çıxardığı halda,bu haqqdan uzaq olan ona biganəlik edib Nazpərisindən,üstəlik əhdi-peymanından danışır.İllər keçirdi.Əsədulla yaşlaşdığını görüb,heç olmasa dədə yurduna baş çəkməyi,Nazpərisini görməyi arzulayırdı.Nəhayət bir gün cəsarətə gəlib,Mariyasından və uşaqlarından xahiş etdi ki,imkan olsaydı heç olmasa ata yurdu olan kəndlərinə baş çəkərdi.Mariya və yetgin övladlar atalarının ata yurdu sayıqlamalarından bezmişdilər.Onlar atalarının bu vətən yalvarışlarına biganə olduqları kimi,həm də aqressiv olaraq onu qınayır,hətta təhqir belə edirdilər.Əsədullanın növbəti cəsarəti ona olduqca baha başa gəldi.Analarının təhriki ilə oğulları tərəfindən qolları sındırılan Əsədulla evdən bayıra atılmışdı.Bir müddət xəstəxanalıq olub müalicə alan Əsədulla,sonralar hökumət orqanlarına müraciət etsə də,illərlə yaşadığı evdən uzaqlaşdırılmışdı.Vağzallarda gününü keçirən Əsədulla Mosk-

vada yaşayan bir Azərbaycanlının köməyi ilə,vətənə qayıtmış və kəndinə yola düşmüşdü.Kəndə səmt götürən avtobusda xeyli sərnişiun olsa da,Əsədulla onları tanımırdı.Avtobusda olan cavanlar ona hörmətlə yanaşmış,əvvəlcədən tutduqları oturacağqda ona yer verərək qulluğunda durmuşdular.Kəndin belə qonaqpərvər cavanları onu riqqətə gətirmişdi.Xəyalən Rusiya gercəkliyini beynində dolandıran Əsədulla belə qonaqpərvərliyi ilk dəfə gördüyündən fərəhlənmişdi.Yolda avtobusu əyləyən yaşlı bir qadını cavanlar qucaqlarında avtobusa qaldırmış və Əsədullanın böyründəki boş oturacağa təhkim etmişdilər.Yaşlı qadının,- nənəniz sizə qurban olsun,mənim balalarım, deməsi Əsədullanı xəyaldan ayırmışdı.Bu səs ona tanış idi.Özünü saxlaya bilməyib,-ay bacı siz kimlərdənsiniz?-deyə soruşması qadını həyacanlandırmış və təəccübləndirmişdi.Yaşlı qadın bir baxışla Əsədullanı tanımışdı.Odur ki,qeyzlə Əsədullaya cevrilib:-Sənin nəyinə lazımdır,kimlərdən olmağım,ay vəfasız!Nazpəri sənin dərdindən çürüdü.Hələ bir utanmadan mənim kimliyimi soruşursan?!Avtobus qəbirsanlıq arası şütüyərkən,yaşlı qadın sürücüyə yaxınlaşıb avtobusu əylətdi.İki metr qabaqda biçarə Nazpərinin qəbri görsənirdi.Yaşlı qadın Əsədullanı səsləyib dedi:-Bəlkə,ölümünə bais olduğun Nazpərinin qəbrinə bir baş çəkib,vicdanını təmizləyəsən!Əsədulla özünü itirmişdi.Necə yəni,Nazpərinin qəbri?!Ayaqları birbirinə dolaşan Əsədulla cavanların köməyi ilə avtobusdan düşüb,Nazpərinin baş daşındakı cansız şəkilinə yaxınlaşdı.Əsədullanın dili-dodağı qurumuşdu.Ürəyi az qala sinə-

sindən qopub Nazpərisindən əhdi-peymanı pozduğuna görə üzr istəyəcəkdi.Əsədullanın göz yaşları sellənərək gün istisindən qurumuş qəbir torpağı suvarırdı.Dili topuq vura-vura hıçqırıqlar içərisində,-məni bağışla Nazpərim,-deyib üzuqoylu torpağa düşdü.Yaşlı qadın da ağlayırdı,cavanların da gözləri dolmuşdu.

Bir göz qırpımında kəndə hay düşdü ki,biçarə Nazpərinin bir vaxtlar əhdi-peyman bağladığı Əsədulla Nazpərinin qəbri üstündə dünyasını dəyişərək,haqqa qovuşub.Kənd əhli,Əsədullanı elə Nazpərinin yanında dəfn etmiş oldular.Haqqsız dünyanın əhdi-peymanı, haqq dünyasında qovuşmuş oldu.

**SON**

***Avqust 1979-cu il.***

## KÖÇKÜNÇÜLÜK VƏ ARSIZ "AĞSAQQAL"

Təmiz dağ havası,buz kimi dərdə çarə olan çeşmələr,zümzüməli,şırıltılı dağ çayları qoynunda böyüyərək səmimi bir insan kimi yetişmiş Həsən,elə özünün dediyi kimi dilbilməzlər içərisində əsgəri borcunu başa vurub doğma diyarına qayıtmışdı.Bir müddət ata-anasına ev və bag işlərində əl tutduqdan sonra,elə böyüklərinin razılığı ilə qəsəbəyə gələrək özünə bir xudmani iş də tapmışdı. Ancaq Həsəni ən çox maraqlandıran qıl dəmir relslər üzərində hərəkət edən nəhəng teplovozlar idi.Yaxşı deyiblər arzun hara,mənzilin də ora.Həsən Bakıya gəlib teplovoz maşinisti məktəbini başa vuraraq qəsəbənin hörmətli dəmiryolçusu kimi ad qazanmışdı. Əslən kəndçiləri olan Nisə adlı xanımla ailə qurub nə az,nədə çox- beş qız uşağının atası olmuşdu.Vaxtilə Bakıdan gələn ermənilərdən ibarət tikinti idarəsinin ərsəyə gətirdiyi üçmərtəbəli binada iki otaqla təmin olunsa da,həyət evinə maraqlı olduğundan torpaq götürüb kəllay-dolayı ev tikərək ailəsinin mənzil şəraitini yaxşılsaşdırıb rahatlanmışdı.Həyətdə əkdiyi meyvə ağacları ona doğulub böyüdüyü kəndini xatırladırdı.Qız övladları da böyüyərək ata-analarına ev-bag işlərində köməkçi olurdular.Həsən qızlarından məktəbdə yaxşı oxumağı tələb etməklə bərabər,onları Həcər qeyrətli böyümələrinə çalışırdı.Bu belə bir vaxta təsadüf edirdi ki,erməni millətçiləri bütün Sovetlər boyu səs-küy qaldıraraq Azərbaycanlılara qarşı milli ədavət toxumu səpirdi-

lər.Teplovozla sərnişin vaqonlarından tutmuş,yük vaqonlarına qədər Culfa istiqamətində işləyən Həsən Ermənistan ərazisindən keçərkən təhdidlərlə qarşılaşırdı.Bir müddətdən sonra Ermənistandan,öz dədə-baba torpaqlarından qovulan Azərbaycanlılar yük vaqonlarında qəsəbəyə pənah gətirdilər.Qəsəbə sakinləri torpağından qovulmuş biçarə insanları himayəyə götürürdülər.Həsənin də evində qonaq otağı,bütün bər-bəzəyi ilə boş qaldığından külfətli bir ailəyə sığınacaq oldu.Həsən torpaqlarından zorla qovulmuş insanlara nə qədər can yandırsa da,evin böyüyü İrəvanda qalmış evinin sənədlərini götürüb Bakıya gedərək bir erməni ailəsi ilə evləri dəyişməyə müvəffəq olmuşdu.Külfətin böyüyü İsfəndiyar kişi Həsənə himayədarlıq edib sığınacaq verdiyinə görə minnətdarlıq edib ailəsi ilə birgə Bakıya dönmüşdü.

Millətçi ermənilər Qarabağda milli ədavəti qızışdırıb müharibə alovu törətdilər ki, bu alovun qığılcımları getdikcə qəsəbəyə də sirayət edirdi.Qonşu rayonlar işğal olunduqca qəsəbədə də atılan qıradların səsləri eşidilirdi.Bu qrad səsləri Həsənin dalağını sancmışdı.Hərdən, min bir əziyyətlə ərsəyə gətirdiyii ev-həyətinə həsrətlə baxmağa başlamışdı.Tez-tez yuxusuna sığınacaq verdiyi köçkün ailə girər və onu bihal edərdi.Hər qrad atəş səsləri göydə peyda olanda qız balaları qaçıb zirzəmidə gizlənərdilər.Qəsəbədə müəyyən sakitlik hökm sürsədə bəzi vəzifəlilər,yaxud onların yaxınları qəsəbəni tərk edirdilər.Həsənin əlbəətə elə bir gedəsi yeri yox idi və bu barədə də düşünmək istəmirdi. Ancaq, qrad atəşlərindən sonra qorx-

muş halda ona dikəlmiş qız balalarının gözlərinə baxa bilmirdi.Xocalı müsibətlərindən sonra ailəsi üçün narahat olmağa başlamışdı.Qızları qorxmasın deyə atadan ona yadigar qalmış təklüləli tüfəngini götürüb sazlayardı.Elə bil rəhmətlik əvvəlcədən başa düşübmüş ki,nə vaxtsa tüfəng oğluna lazım ola bilər.Kəmərin bütün patronları donuz gülləsi ilə doldurulmuşdu.Həsən tüfəngi gizlin saxlayardı.Çünki,qəsəbədə paqonluların silahları müsadirə etməsi haqqında söz-sov danışılırdı.Axır vaxtlar qrad səslərinin yaxından eşidilməsi Həsəndə nigarançılıq yaratdığından gecələr tüfəngi baş altına qoyub yatardı.Çox çəkmədi ki,paqonlular Həsənin tüfəngindən xəbərdar olub,güc-bəla ilə tüfəngi ondan müsadirə etdilər.Paqonluların tüfəng müsadirəsinə qarşı çıxan Həsən,-bəs bu qız uşaqlarını necə qoruyacam!-desədə onu sakitləşdirib bildirdilər ki,bəs bizim vəzifəmiz sizləri qorumaq deyilmi? Həsən bu sözdən sonra paqonluların böyüyü Mürvətə tüfəngini verib,susqunluqla evinə dönmüş oldu.

Aradan bir neçə ay keçməmiş rayon mərkəzindən gələn xəbərlərə görə,qəsəbədə səs yayıldı ki,bəs ermənilər hər tərəfdən rayonu mühasirəyə alıb qəsəbə qarışıq əhalini Xocalı soyqırımı gününə salacaqlar.Əhali təşvişdə idi.Qrad raketləri demək olar ki,qəsəbənin üstündən nərildəyərək digər yaşayış məskənlərinə düşürdü.Yuxarıdan verilən məlumata görə mühasirəyə düşməli olacaq əhalinin sağ qalması üçün yeganə çıxış yolu Araz çayını keçib İrana adlamaq olacaqdı.Həftə keçməmiş qəsəbədə Araz çayı sahillərinə köç başladı.Deyilənə görə İran hökuməti

ilə danışıqlar aparan əhalinin yeganə ümidi olan H.Əliyev Araz çayının sərt axınının qarşısının alınmasına və əhalinin itgilər vermədən İran sahilinə çıxmasına razılıq əldə etmişdi.Əhali illərlə əldə etdiyi varidatını evə yığaraq açarlayıb,qayıtmaq ümidi ilə Araz sahilinə yollanırdılar.Kimisi maşın-traktorla,kimisi atla-inəklə,kimisi də Həsən kimi geyim əşyaları belə götürmədən ailəsi ilə bərabər çaya toxumuşdular. Həsən ailəsini,uşaqlarını kəndirlə öz bədəninə bağlayıb özündə güvənlik yaradaraq İran sahilinə doğru Araz çayı boyu irəliləyirdi.Birdən Həsənin gözünə UAZ maşınının önündə əyləşmiş,paqonluların böyüyü Mürvət sataşdı.Tüfəngini əlindən alıb,-bəs bizim vəzifəmiz sizləri qorumaq deyilmi?-deyən Mürvətə əlini uzadıb dedi:-ay mürvətsiz köpək oğlu,sən bizləri belə qoruyursanmı?!Maşında bəy kimi oturmaq sənin paqonuna yaraşarmı?Xalqa kömək etmək əvəzinə tülkü kimi bizlərdən qabaq qaçırsan! Sizin kimi köpəklər yüzlərlə qəsəbə,kəndləri ermənilərə peşkəş vermirlərmi?! Paqon sahibi Mürvət isə,yapalaq əli ilə üzünü gizlədib özünü elə aparırdı ki,sanki Həsəni görmürdü,eşitmirdi.Qəflətən,qızlardan Nazilənin sürüşərək yıxılıb suda çabalaması Həsənin məsuliyyətini artırdı.Tez əlini uzadıb qızını ayağa qaldırdı.Qızını az-çox xilas etdiyinə görə allahına şükürlər etdi.Bu dəm cavan hamilə qadının qucağındakı körpəylə çaya batıb qışqırması,uşağının çay selinin qarşısında sellənməsi Həsənin cavanları haraylaması ilə bitdi.Sağ olmuş cavanların özlərini çaya atıb uşağı və qadını xilas etmələri Həsəndə rahatçılıq yaratdı.Araz çayı boyu əhalinin ölüm-

qalım mübarizəsini görən Həsən vaxtilə düşmənlərimiz tərəfindən ayrılıq rəmzinə çevrilmiş Araz çayına üzünü tutaraq coşub-daşan Arazı dilə gətirəcək şeir demiş oldu:

Axma Araz,dayan Araz,
Millətinə qıyma Araz.
Qəlbimiz köç yarasıdır,
Yaramızı oyma Araz.
Biz səninik,sən də bizim,
Bizi özgə sayma Araz.
İki əsrin yaddaşını,
Silinməyə qoyma Araz.
Bir vaxt gəlsin,o tay,bu tay,
Birləşsin daima Araz.

Xəyali beynində,pıçıltılı dodaqlarında Araza xitab edib bədahətli şeirini tamamlayan Həsən sahilə yaxılaşdıqlarını görüb çox sevindi.Sağ-salamat Araz sahilinə ailəsi ilə bahəm qədəm qoyan Həsən şükr etdi ki,düşmənin girovuna çevrilmədilər.Sahildə onları qarşılayan İranlıların "qonaqpərvərliyinə"isə məətəl qaldılar. Əhalini mal-qarasını,ev və zinət əşyalarını dəyər-dəyməzinə alan İranlıların sanki,qazanırmış kimi sevinmələri Həsəndə təəssüflük hissi yaratmışdı.Düzdür içərilərində qol açanlar da özünü göstərirdi. Ancaq, qazanc fikiri ilə gələnlər daha çoxluq təşkil etdiyindən insanda ikrah hissi yaradırdı.Belə yerdə deyiblər ki,keçi can hayında,qəssab piy axtarır.Bütün bu mənzərəni seyr edən Həsənin yadına vaxtilə İrəvandan zorla qo-

vulmuş soydaşları düşdü.Qəsəbə əhalisi onlara sığınacaq verməklə bərabər,ən xırda ehtiyaclarını belə ödəməyi özlərinə insanlıq borcu bilirdilər.Həsənin bu xatırlamadan gözləri sellənmişdi.

Araz sahili boyu vətənlərindən qovulmuş köçü İran sərhədini keçməklə İmişli şəhərinə gətirdilər.Köçkünlərin çadır və vaqonlarda çoxluğunu görən Həsənin yadına vaxtilə əsgər dostu olmuş Bəhram düşdüyündən qərara gəldi ki,Əlibayramlı (indiki Şirvan) şəhərinə gedib dost köməyi ilə özlərinə bir yurd qursunlar.Əlibayramlı şəhərində çox soraqlasa da,dostu Bəhramı tapa bilməyib yarımçıq və yiyəsiz bir binanı səhmana salıb yerli camaatın verdikləri ev ləvazimatları ilə yaşamağa məcbur oldular.Lakin,işsizlikdən pul-para əldə edə bilmədiyindən onun əlinə baxan qız balalarının hər gün gözlərinə zillənmiş baxışlarına dözməyərək Bakıya üz tutmuş oldu.Çox yerləri gəzdikdən sonra Bakı kənarında itlərin yuva qurduğu anbarın iki balaca otaqdan ibarət gözətçi otaqlarını isbata gətirib məskunlaşdılar.Anbarın yekə dəmir darvazasında iri bir qıfıl asılmışdı.Qapısı aralı darvazadan anbara az-çox işıq düşdüyündən boş yeşiklər və dağınıq şüşə butulkaları gözə dəyirdi.

Həsən bazara gedib yüklü maşınları boşaltmaqla gündəlik ərzaq azuqəsini qazanaraq ailəsini dolandırırdı.Günlərin birində evinə yorğun qayıdan Həsəni ailəsi agah etdi ki,anbarın sahibi kimi özünü təqdim edən bir ağsaqqal onlara vaxt verib ki,bir həftəyə gözətçi otaqlarını tərk etsinlər.Səhəri günü iş dalınca getməyən Həsən ağsaqqalı göz-

ləyərək,nəhayət ki,günorta radələrində onunla görüşə bildi.Ağsaqqalın onları qovmaqda israrlı olduğunu görən Həsən bildirdi ki,heç bir yerə getməyəcəklər və lazım gəlsə hökumət orqanlarına müraciət edəcəklər.Ağsaqqalın susqunluğunu görən Həsən qətiyyətlə bildirdi ki,o gündəlik çörək pulu qazanmağa gedir və onun ailəsini natahat etməsin.Anbarın küncündəki ağsaqqalın kabinetini tərk edən Həsən ailəsini narahat olmamağa əmin edib işinin dalınca getdi.Həyətə çıxıb var-gəl edən ağsaqqal Almurad Həsənin şikayət edəcəyi tərzdə haqlı olacağını bildiyindən düşüncələrə dalmışdı ki,əllərinə təmizlik üçün süpürgə alan qızlar içərisində iri gövdəli qızı görüb gözünü ona marıldatdı.Ürəyindən bir maşallah keçdi.Yaxınlaşıb qızın ismini soruşub Əminə olduğunu öyrəndi.Qalanmış od üstündə çaynikin buğlandığını görən Almurad ona da bir stəkan çay gətirməsini xahiş etdi.Kabinetinə keçən Almuradın gözləri qarşısında dalğalanan Əminənin silueti onu yeni fikirlərə salmış oldu.Əşi kişiyə gözətçiliyi təklif edib,beş-on manat qızcığazın xatirinə maaş verərəm.Sonrasına da,görək nə olacaq.Bu dəm darvaza bərk döyüldüyündən tez kabinetindən çıxan Almurad əlində çay və qənd tutmuş Əminəni görüb,əriyi saralmışlar kimi,qıza irişdi ki,nə durmusan o yekəlikdə qol-qıçan ola-ola kabinetimə gələ bilməzdinmi?! Əminə utancaq halda başını aşağı salıb ağsaqqalın ondan çay və qəndi almasını gözlədi.Almurad isə,kabinetini göstərib qızı qabağa salaraq arxasınca ölgün gözlərinə ehtiras parıltısı verib sulanmış dili ilə dodaqlarını yaladı.Əminənin tezcə çay və qəndi masa-

ya qoyub cəld qayıtması axmaq fikirlərlə yaşayan "cavan" Almuradın qocalığını təsdiq etdi.Bir qurtum çayı içən Almurad,tənbəki iyi verən çayı əli ilə kənara itələyib,ağzına şirinlik gətirmək üçün qəndi götürüb ağzına atdı.Qənd şirinlik gətirməklə bərabər, Almuradın üz qırışlarında açacaq bir təbəssüm yaratmış oldu.Əşi məndən qoca olarmı?Gör çayın tənbəki iyi verməsini necə tez duydum.Mənə bərəkallah,görünür hələ çox cavanam,-deyə kürsüsündə şellənib Əminə sevdası ilə donuz xorultusu yaratdı.Gözünü açanda hava qaranlığını görüb,masadakı çay və qəndin yoxluğundan anladı ki,onu oyatmadan qənd-çayı aparıblar.Tez sakitcə darvazanı bağlayıb,işıqlı gözətçi otağından və qapı önünə düzülmüş ayaqqabı və sürütmələrdən başa düşdü ki,köçkün ailə üzvləri evlərindədirlər.Almurad kişi evinə qayıdıb Həsənlə necə danışmağı götür-qoy etsə də, Əminədən ehtiyatlandığından fəaliyyətsiz anbara bir həftə getməməyi qərarlaşdırmışdı.Həsənin də bəxti gətirmişdi.Kartof satışı ilə məşğul olan İranlı tacirə köməklik göstərməklə qazancı artmış,ailəsinin köhnəlmiş pal-paltarlarını təzələməyə də müvəffəq olmuşdu.Həftə tamamında Həsəni səhərlər işə getməmiş onu yaxalayan ağsaqqal Almurad isə ona və ailəsinə yaşamaq üçün razılıq vermişdi.Həsənin minnətdarlığını qəbul edən Almurad onun ailəsindən xoşlandığını,hətta ona qonaqpərvərlik göstərərək çay belə vermələrini minnətdarlıq hissi ilə bildirib,gözətçiliyi də ona həvalə etmişdi.Həsən isə ağsaqqala bu humanistliyə görə təşəkkürünü bildirmişdi.Həsənin işə getdiyini bilib onu gülərüzlə yola salan Almurad,daxili bir

sevinc hissi keçirmiş oldu.Maşallah,Əminə ağzıbütöv-dür.Bəlkə də çətinlik görmək istəmir,mənimlə xoş olacağını anlayır.Bu fikirlərlə darvazasını açıb,gözətçi otaqlarına baxış keçirən Almurad kabinetinə getsə də,qıza olan sevdası onu həyətdə var-gəl etməyə məcbur etdi.Gözətçi qapısının açıldlğını duyan Almurad həyətdə ocaq qalayıb çayniki dolduraraq qaynamağa qoyan Əminəni yaraşıqlı yeni paltarda görüb uçundu.Xəyalı alovlandı.Mənim alacağım paltarda o daha gözəl görsənəcək,-deyə dodaqaltı pıçıldandı.Əminəni başdan ayağa süzərək ona da çay gətirməyi xahiş etdi.Ailəni şübhələndirməmək üçün,bicliyini işə salıb kabinetinə gedərək Əminənin çay gətirişini gözlədi.Aradan saat keçməmiş,ətli-canlı,sürahi boylu Əminə bir əlində çay,digər əlində qənd kabinetə daxil olub masaya yaxınlaşanda,Almurad guya kömək məqsədi ilə onun əlindən tutub, titrəmiş əlləri ilə çayı yerə tökdü.Qız qəndi aşırmamaq üçün müvazinətini düzəltsə də,Almuradın əllərinin onun ombasına sığal çəkməsini hiss edib,qocaya elə bir təpik ilişdirdi ki,qoca yapalaq kimi yerə sərildi.Əminə stəkan-nəlbəki,qənd qabı ilə birlikdə kabineti tərk edib,evlərinə qaçdı.Bütün bədəni qorxusundan tir-tir əsirdi.Birdən qoca kaftar ölüb eliyər,-deyə düşündü.Onda nə olacaq,allahım,-deyə zarıdı.Əminənin təpiyindən qıçası xeyli ağrı verən qoca Almurad ağrıdan üz-gözünü qırışdırıb qızın təpiyinə təəccüblənsə də,ətli-canlı Əminənin təpik hərəkətini ağrıkəsici dərman kimi qəbul etdi.Hava qaranlaşana qədər kabinetində kürsüyə qırışmış olaraq sığışan Almurad səs-küy yaranmadığını görüb,darvazanı səs-

siz bağlayıb,aradan sürüşdü.Yenə bicliyini işlədib,bir neçə vaxt anbara getməyi təxirə saldı.Həsən isə,Almurad kişinin olmadığı müddətdə anbarı göz bəbəyi kimi qoruyur və uşaqlarına da,təlimat verirdi ki,həyət-bacadan göz-qulaq olsunlar.Almurad isə Əminə sevdasından əl üzməmişdi.Qızla hər hansı danışığın mənasız olacağını təpiklə anladığından,onun atası Həsənlə dilbir olmaq qərarına gəlmişdi.Həsən kasıb,qaçqın adamdır,-deyə Almurad düşündü.Bir bölük qızları ərə vermək elə də asan olmayacaqdı.Bu yazıq qaçqın Həsən bir həsirdir,bir də Məmmədnəsir.Yəqin ki,köməyə ehtiyac duyacaqdır. Mənim var-dövlətim var.Şirnikləşdirsəm yəqin ki,Əminə sevdam baş tutacaq.Allah qoysa tezliklə işimə buyurub,gözətçi Həsənimlə Əminə sevdasını dağ edəcəm.

Bütün gecəsini vurnuxma içərisində keçirib, tərdən gecə köynəyi su içində olan Almurad pəncərədən boylanan günəş şüasının istiliyini hiss edib sümüklərini şaqqıldada-şaqqıldada yerindən qalxdı.Dünənki küləkdən əsər-əlamət qalmamışdı.Pəncərəsinin pərdəsini çəkib günəşin bol işıq şüasını otağa doldurmaqla qırışığını açmış oldu.Bir günlük dəyişən Bakı havasının qəribəliyinə uyuşduğundan təəccüb də etmədi.Havanın bu gün necə olacağını dəqiqləşdirmək üçün pəncərəni açıb əlini havada yelləməklə müəyyən etdi ki,deyəsən külək olmayacaq.Dünən geydiyi plaşı kənara atıb cavan oğlanlar kimi ağ köynəyini əyninə taxdı.Güzgü qabağında çiyinləri çıxmış sümüklərini köynəkdə görüb, köynəkdən vaz keçdi.Yenə pencək geysəm yaxşı olar,adamın ayıbını örtür.Xəyalında yetmiş altı yaşı-

nı canlandırıb özünə toxtaqlıq verdi ki,bu yaşda hələ pis deyiləm.Üstəlik də Əminə sevdam bir an olsun belə yadımdan çıxmayıb.Yaxşıca bir "zavtrak"eliyərək özümü gümrahlaşdırıb,anbara gedərək Həsən gözətçimlə Əminə sevdasını həll edim.Qəfil beyninə girən dağıdıcı fikir onun keyfini pozdu. Birdən Həsən qızın vermədi,onda nə olacaq? Sonra özünə güvənənlər kimi əlini yellədib var-dövləti ilə onu ələ alacağına özündə bir inam yaratdı. Anbara gələn Almurad kişi gözətçi otağının qapısı qarşısında özünü günə verən Həsəni görcək ruhun təzələdi.Həyətdə Həsəndən başqa kimsə görsənmirdi.Anbarın darvazasın açıb Həsəni kabinetinə dəvət etdi.Xəyalında, yəqin maaş verəcək,- deyə düşünən Həsən dəvəti qəbul edib kabinetdə yerini rahatladı.Xeyli sükutluq hökm sürəndən sonra,sanki Həsənin halını dəqiqləşdirən Almurad kişi arvadının xərçəngdən rəhmətə getdiyini,iki oğlunun ayrıca təsərrüfat sahibləri olaraq şəhərdə yaşadıqlarını,hazırda tənha olaraq yaşadığını Həsənə ərz etdikdən sonra gileyləndi ki, var-dövlət tənha adama bir o qədər də əl tutmur.Mənim kimi tənha adama bir qadın köməyi olsaydı,yüz dəfə var-dövlətdən yaxşı olardı.İndi ay Həsən kişi,mən bu həyat nağılımı sənə danışmaqla istərdim ki,mənim dərdimi başa düşəsən. Ağsaqqal Almuradın həyat nağılı Həsəni karıxdırmışdı. Onun həyat nağılının arxasında gizlənən fikir nə olacaqdı, Həsən anlamadı.Həsənin xəyal içində olduğunu görən Almurad bu susqunluğu bir növ razılıq kimi qəbul edib,əsil mətləbə keçməyi yəqin etdi.Bilirsən Həsən kişi, çox tərbiyəli qızlar böyütmüsən.Sənin Əminə qızının tərbiyəsinə isə söz ola bilməz.İki dəfə çay xahiş etmişəm,pər-

vanə kimi başıma dolanıb.Uzağa getmək istəmirəm,gəl səninlə sövdələşək.Əminəni mənə ailə olaraq qulluğa ver,var dövlətim də sənin olsun.Həsəni od götürdü.Bu ağılsız ağsaqqal başını itriribdir,nədir?!Nəvəsi yaşında olan qıza göz dikib bu qoca vaxtında.Həsənin əng sümüyünün gərginləşdiyini hiss edən Almurad,-hə nə oldu,Həsən kişi bir cavab ver görüm nə qərar verirsən?Əsəblərinin gərginliyindən əlləri yumruqlanmış Həsən,yumruğunu masaya çırpıb dik ayağa qalxdı.Nə deyəcəm sənə! Ay atam yaşında olan qoca ağılsız.Heç verdiyin sualdan utanıb yerə girmirsən!Sənin kimi axmaq sevdaya düşənləri kəndimizdə gülləliyib öldürərdilər.Sən bizim köçkünlüyümüzdən istifadə edib,var-dövlətinlə nəvən yaşında olan qızımı hərraca qoymaq istəyirsən?!Səndə heç olmasa bir damcı da olsun namus-qeyrət varmı?! Mən, tərbiyəli dediyin qızlarımı üfürə-üfürə böyüdüb,alçaq ermənilərin güdazına onları verməyərək,Araz çayına toxuyaraq pənah gətirdim bu gözətçi daxmasına.Demə şərəfsiz ermənilərdən də şərəfsizin böyüyü elə sənmişsənki! İnsan yaşlaşdıqca müdrikləşər,abır-həya gözləyər.Başa düşdüyüm qədər sən bu yaşında arı belinə bağlayıb,namusu peysərinə ötürmüsən.Əgər lazım gəlsə hökumətə müraciət edib səni rüsvay edərəm.Bir də ki,məni heç kim məskunlaşdığım bu yerdən tərpədə bilməz.İndi dur,rədd ol bu fəaliyyətsiz anbardan.Bir də gözümə görsənmə,arsız "ağsaqqal!" Abırhəyasını itirmiş Almurad kişi,anbarı tərk edib,bir daha gözə dəymədi.

SON.

***11.12.1996.***

## SƏNDƏN ŞAIR OLMAZ

Həyatın keçmişi və bu günü  çox qəribədir,deyilmi? Gözünü bu dünyaya açaraq təşrif buyuran insan üçün onu əhatə edən nə varsa qəribə dərk edilir və o bu qəribəlik içərisində möcüzələr yaratmağa çalışır. O vaxtkı dünyagörüşümə görə mən dörd-beş yaşlı kəndli balası əyriplan sürmək eşqi ilə yaşadığımdan kövrək palıd ağaclarını əyriplana oxşadaraq yellan-küflan edib qəhrəmanlaşardım.Yaxud, babamın tüfənginə oxşar ağac budağından silah düzəldib düşmən,yırtıcı vəhşi heyvan obrazını yaradaraq atəşlər açaraq qəhrəmanlaşardım.Baba-nənələrin danışdığı nağılların qəhrəmanlarına oxşamaq üçün dəridən-qabıqdan çıxardım.Süpürgə ucluğundan özümə uzun buğ düzəldər,qocamın uzun corablarının ayaq hissəsini topalayıb şiş edərək başıma qoyar və Koroğlu kimi taxta qılıncı havada yellədib dağlarda yəhərsiz-palansız at çaparaq düşmən üstünə şığıyıb qəhrəmanlaşardım.Məktəbə getdiyim ilk gün heç vaxt yaddan çıxarılası deyil.Çanta,kitab-dəftər,yeni geyim ilk dəfə qarşılaşdığım uşaqlar və biz uşaqlarla ünsiyyət qurmağa çalışan müəlliməmiz.İlk vaxtlarda çantamıza qoyulan "dürmək",müəllimədən gizlin, oğrun-oğrun aclığımızı dəf etdiyimiz tənəffüslər.Biz uşaqlar aclığımızı gizlincə dəf etsək də,müəlliməmizin "dürməksiz"olması bizə çox qəribə gələrdi.Bizdə belə təəssürat yaranardı ki,müəlliməmizin ağzı bağlıdır.Çox çalışardıq ki,müəllimızin "dürmək"yeyə bilməsini gözümüzlə gö-

rək.Heyhat müəlliməmizin "dürməksizliyi" bizlərdə qəribəlik yaradırdı.O vaxtlar bizlərə Ana dili dərsliyi tədris edilərdi.Elə ki,müəllimənmiz şeirlər oxuyardı mənim yadıma kəndimizin sinədəftər layla-oxşamalar deyən nənəsi,-Mələk nənə düşərdi.Beynimdə müəllimənmizin,yaxud Mələk nənənin dediyi şeir və bayatılara uyğun nə isə düzüb qoşardım. O vaxt sevincim birə-beş artardı.Böyüdükcə və özümü dərk etdikcə fikirləşərdim ki,fiziki qüsurumu ləğv edib,başqa uşaqlar kimi sağlamlığa qovuşmalıyam.Yeddinci sinifdə oxuyarkən bizim gələcəkdə hansı ixtisasa meyilli olmağımızı dəqiqləşdirmək üçün ədəbiyyat müəllimimiz sorğular edərdi.Mən biixtiyar olaraq həkim olacağımı bildirərdim.Bununla bərabər şeirə,bayatılara,nağıllara həvəsim o qədər çox idi ki,gizlinlərdə şeir qoşardım.Şeir qoşmaq həvəsini gizlin saxlayardım.Elə bilərdim ki,şeir mənim üçün bir incidir,əgər onu yaysam bir daha mənim olmayacaq.Qəribədir,deyilmi?Beləcə qayğısız orta məktəb illərini başa vurduqdan və bir müddət keçdikdən ali məktəbə daxil olduqdan sonra yazdığım şeirləri dəftərçəyə qeyd etmək üçün iyirmi iki qəpiyə iki dəftərçə alıb şeirlərimin qeydiyyatını aparmağa başladım.Tələbəlik illərində təhsilimi davam etdirməklə bərabər,həm də işləyir və anama müəyyən köməkliklər də edirdim.Belə bir qayğılı və məsuliyyətli günlərdə şeir yazmağa da vaxt olmurdu.Bütün bu çətinliklərimə baxmayaraq şeirlə bərabər hekayələr də yazmağa başlamışdım.Tələbə dostlarımdan biri mənim bədii yaradıcılığa olan meylimi görüb,tanınmaq üçün o dövrün qəzet və jurnallarında çap olunmağımı xahiş edə-

rək məni həvəsə gətirdi.Bədii yaradlcılığa geniş yer verən qəzetlərdən "Azərbaycan gəncləri" marağıma səbəb olmuşdu.Qəzetin dördüncü səhifəsində gənc yazarların şeir və hekayələri yer alardı. Yazdığım şeirlərdən birini götürüb özümü toparlayaraq "Azərbaycan gəncləri"qəzeti redaksiyasına üz tutdum.Redaksiyanın önündə elə mən yaşlarında olanın birisi mənə yaxınlaşıb sorğu suala tutdu:-sizi birinci dəfədir görürəm,nə üçün gəldiyinizi bilmək olarmı?Mənə sual verənin redaksiya işçisi olduğunu təqribi düşündüyümdən,bildirdim ki,şeirlər yazıram və birini də gətirmişəm ki,məğbul olsa çapa verim. Yazdığım şeiri oxuyub məni diqqətlə süzən qardaşım, harda təhsil aldığımı bilmək istədi.Universitetin filologiya fakultəsində təhsil aldığımı bildirib,onun səliqə ilə daranmış kürən saçlarını,qıyılmış gözlərini seyr edib, nə fikirdə olduğunu baxışlarından oxumaq istədim.Kürən saçlı qardaşım elə bil hiss etmişdi ki, mən onun fikirini öyrənmək qərarındayam.Odur ki,mənim ağız açmağıma imkan verməyib şeirin çap oluna biləcəyini razılıq hissi ilə bildirdi.Sonra xəyallı olaraq məni xeyli süzüb dedi:-mən sənin bədii yaradıcılıqda tutacağın mövqeni,poeziyaya olan bağlılığını müəyyən etmək üçün belə bir sualla müraciət etmək istərdim.Dedim buyurun,nə sualınız varsa çavablandırmağa hazıram.Sualı belə oldu ki,guya sən şəxsi maşınınla harasa tələsik gedirsən.Birdən təbin gəldi və şeir yazmaq həvəsi səni rahat buraxmadı.Deyin görüm,belə bir anda hansı qərara gələrsiniz.Maşını əyləyib,kənara çəkilib şeirinizi yazarsınız,yoxsa düşünərsiniz ki,tələsirəm şeiri sonra da ya-

zaram.Kürən saçlı qardaşım məni yaman haqlamışdı,-deyən gülümsədim.Bildirdim ki,mən oxumaqla bərabər həm də işləyirəm.Metaləritmə sahəsində çalışıram.Bir neçə ildir ki,körpülü kran sürücüsüyəm.Ərinmiş metalın qəliblərə tökülməsi kimi həyati məsuliyyətli bir işdəyəm.Çox olub ki,şeir təbim gəlib.Ancaq mən ərinmiş metalı qəlibə tökmək əvəzinə,kranı saxlayıb şeir yazsam,ərinmiş metal soyuyar və qəliblik olmaz.Bu isə,məsuliyyətsizlik və son anda cinayətdir.İndi siz təsəvvür edin, kranı saxlamaq o yana dursun,ərinmiş metala deməliyəm ki,sən soyuma mənim təbim gəlib şeir yazmalıyam?!Kürən saçlı qardaşımdan bir ironiyalı gülmək qopdu ki,gəl görəsən.Onun ucadan gülüşünə redaksiyadan bir-iki saçı dağınıq cavan da çıxıb,nədən güldüyünü soruşdu.O isə,mənim baxışlarımın kəskinliyini hiss etdiyindən məsələni böyütmədi.Dağınıq saçlı redaksiya nümayəndələri getdikdən sonra,kürən saçlı qardaşım buyurdu:-şeirini çap etmək problem deyil,ancaq sənə bir həqiqəti demək istəyirəm ki,şairlər var ki,öz həyatlarını belə poeziyaya fəda edirlər.Sən işində çox məsuliyyətli adamsan,kaş sənin şəraitin imkan verəydi ki,sən poeziyaya məsuliyyətinlə bağlı olasan.Onda səndən yaxşı şair olardı.Ancaq, indiki durumda,səndən şair olmaz!Düzü çox pörtmüşdüm.Həm də işimin vaxtına az qalmışdı.Əlində tutduğu şeir vərəqəmi alıb,xudahafizləşərək nəinki,redaksiyadan,ümumiyyətlə nəşriyyatdan uzaqlaşdım.

Ali məktəbi başa vurana qədər az-çox bədii yaradıcılıqla məşğul olsam da,qəzet və jurnallarda çap olunmaq fikirində deyildim.Kürən saçlı qardaşımın,-səndən şair ol-

maz!-deyimi ilə daxilən razılaşıb bədii yaradıcılığı ruhu boşluğumu doldurmaq məşğuliyyətinə çevirmişdim.İxtisas üzrə işləmək çətinliyi yarandığından şeirlərimin qeydiyyatını apardığım yüz səhifəlik dəftərçəmin birini evimizdə saxlayıb(çox hayıf ki,ermənilərin qəsəbəmizi işğal etməsi şeir dəftərçəmin itkisinə səbəb oldu),nəhəng Sovetlər ölkəsinin paytaxtına üz tutdum.Paytaxta yaxın Rusiya şəhərlərinin birində məskunlaşaraq işlə təmin olunub yeni təhsil və həyatda özünü təsdiq qərarına gəldim.Müsəlman adət-ənənəsinin hökmranlıq etdiyi adi bir Azərbaycan kəndində həyata göz açan,kəndə nisbətən müasir bir qəsəbədə böyümüş,sonradan Bakı kimi böyük bir şəhərdə təhsil almış Azərbaycanlı balası üçün Rusiya cəmiyyəti,onun adət-ənənəsi,təbiəti həddindən ziyadə qəribə idi.Buz bağlamış Volqa çayında iyirmi beş-otuz dərəcəyədək şaxtada soyunub çimmək,bir vedrə suyu şaxtalı havada günün istənilən vaxtında lütlənərək başına tökmək,beryoza ağacında deşik açaraq bankaya şirəsini doldurmaq mənim üçün qəribə olduğundan,bu qəribəliklərə olan düşüncələrimi şeirlə ifadə edərdim.Yaxud,bir aylıq yay istisində Volqa çayında ailəmlə istirahət edəndə eni bir kilometrə yaxın olan Volqa çayının sakit axını məndə qəribəlik yaradırdı.Uşaqlığımda istirahət etdiyim Bəsit,Oxçu çaylarının şaqraq zəngulə şırıltısını xəyalımda canlandırıb,Volqa çayının lam axınına bayatımla sual dolu xitab edərdim.Bütün bu şeir və bayatılar bədii yaradıcılıqda bir damcı idi.İşimdə məsuliyyətli olmağım,ailə qayğılarımdan doğan vaxt darlığı məni bədii yaradıcılıqdan məhrum etmiş-

di.Sonralar Sovetlər ölkəsinin dağılması,yaranmış iqtisadi pozuntular,milli ruhların dəyişilməsi vətənimizə dönməyimizə təkan verdi.Vətənə qayıtdıqdan sonra,iqtisadi əlaqələr olmadığından yaranmış işsizlik xaosu,birinci Qarabağ müharibəsinin gətirdiyi bəlalar,ailənin dolanışığını təmin etmək yolunda çəkdiyim əmək sərfi məni tamamilə bədii yaradıcılıqdan uzaqlaşdırmışdı.Övladların orta məktəbi başa vurmaları,ali təhsil almaları,işlə təmin olmaları və nəhayət ailə qurmaları məni elə hala salmışdı ki,bədii yaradıcılıq heç yadıma düşməmişdi.Nəvələr qapını döyüb baba deyəndə bir də baxdım ki,caç,buğ,qaş ağappaq ağarıb.Nəvələrinən başımı qatsam da,içimdəki yaranmış ruhu boşluq məni rahat buraxmırdı.Hər şey var idi,ancaq yaranmış ruhu boşluq məni daxilən üzürdü.Cavan vaxtlarımda çox əziyyətlər çəkdiyim osteoxondroz xəstəliyinin təzahürləri özünü göstərməyə başlamışdı.Həkimlərə müraciət etdiyimdə,xeyli dərmanlar məsləhət görsələr də,yerimə vəziyyətimin çətinliyini hiss edirdim.Yaş da,az deyildi.Altmış yaşın içindəydim.Ağrılarım getdikcə çoxalırdı.Televizorda çıxış edən bir nevropotoloq həkimin osteoxondroz xəstəliyi barədə optimist çıxışları məni ona müraciət etməyə sövq etdi.Məni müayinədən keçirən həkim bildirdi ki,sənin sağalmaq durumun xeyli müddət aparacaq.Ən azından cərrahiyyə əməliyatından keçməlisən.Həkim müalicə üçün ilkin dərmanlar yazsa da,yazılmış dərmanların qəbuluna əməl etmədim.Yadıma cavanlıq vaxtımda kəskin osteoxondrozdan aldığım müalicənin qənaətbaxış olması düşmüşdü.O vaxtlar ayaqlarım tamam tu-

tulmuşdu və demək olar ki,bir ay qoltuqlu çəliklə gəzməli olmuşdum.Həkimin dəqiq diaqnozu və ciddi müalicəsi ilə iyirmi beş ildən çox bir müddətdə osteoxondrozdan əziyyət çəkmədim.Altmış yaşımın haqlandığı bir vaxtda osteoxondroz özünü göstərməyə başlamışdı.Tez bir zamanda Rusiyadakı yaşadığım şəhərə yola düşüb dostların köməkliyi ilə,həkimlə görüşdüm.Həkim də xeyli yaşlaşmışdı.Tanışlıqdan sonra,həkimin məsləhəti ilə uzunmüddətli müalicəyə başladım.Onu da deyim ki,hələ cavanlığımda bir ucu A.Kaşpiroviskidən,A.Çumakdan tutmuş müxtəlif ekstraseans müalicələrə qatılsam da,sağlamlığım üçün hər hansı irəliləyişlər əldə edə bilməmişdim.Məni osteoxondrozdan sağaldan həkimim belə mənasız oyunlara uymamağı məsləhət görmüşdü.İndi həkimim məni Bubnovski onurğa mərkəzinə məsləhət görmüşdü. Mən osteoxondroz müalicəsinə kömək edəcək müalicəvi idmanla da məşğul olmağa başladım.İki ilə yaxın bir müddət ərzində həkimin məsləhət gördüyü bir neçə müalicəvi prinsipə riayət etdim:

1.müalicəvi idmanla məşğul olmaq;

2.Qidalanmaya diqqət etmək-(ağ undan hazırlanmış çörəkdən,yağlı xörəklərdən-transyağlardan söhbət gedir,duzlu,qızardılmış ət,kartof və s.yeməklərdən uzaq olmaq.Qənd,pesok,kolbasa-sosis məmulatlarını qəbul etməmək);

3.Çəkiyə diqqət etmək;

4.Açıq havada gəzintiyə yer vermək;

5.Normal yuxu almaq-(7-8 saat);

6.Əsəbləri qorumaqla,depressiyadan uzaq olmaq. İki ilə yaxın bir müddətdə aldığım müalicə zamanı sağlam həyat tərzinə kömək edəcək altı prinsipdən sonuncuya riayət edə bilmirdim.Qarşılaşdığım qəribəliklər gündəlik həyatda məni gərginliyə salıb normal yuxumu da puça aparırdı.Ən çox, soyuq qış aylarında içimdə yaranmış boşluğu doldurmaq üçün həyətə çıxar,yaşlanmış keçmiş dost-tanışlarla gəzər,sonra isə tənha yaşadığım evimə dönərdim.Pəncərədən boylanıb oturacaqlarda qalın paltarlara bürünmüş yaşlı qadınların əl-qolla olan söhbətlərini izləyərdim.Bu yaşlı qadınlar da tənha yaşayanlar idi.Uşaqları böyümüş,yaxşı dolanmaq üçün Moskvaya,Leninqrada və digər böyük şəhərlərə üz tutmuşdular.Həmin söhbətcil yaşlı qadınlardan biri,həftə olardı ki,oturacaqda yer tutmurdu.Bir gecə səs-küyə oyandım.Həyətdə təcili yardım maşınına yumaq kimi atılmış cənazəni görüb heyrətləndim.Sabahı məlum oldu ki,ölən yaşlı qadının qonşusu digər mənzildən leş iyi gəldiyini güc strukturlarına bildirmişdir.Sonradan qapı sındırılmış və ölmüş qadının qurdlanmağa başlamış nəşini sahibsiz olaraq dəfn etmişdilər.O da məlum oldu ki,ölən qadının oğlu Moskvada bizneslə məşğuldur.Ancaq,oğul biznesmen heç anasının dəfninə belə gəlməmişdi.Bir dəfə baş vermiş bir hadisə isə məni lap özümdən çıxarmışdı.Həyətə düşüb gəzintiyə başlamışdım ki,bir dombaburun kişinin yaşlı qadınlarla əl-qol ataraq danışdığını görüb yaxınlaşmalı oldum.Danışanın ləhcəsindən erməni olduğunu müəyyən etdim.Az-çox anladım ki,kişi pasport qeydiyyatına düşmək üçün

onlara şirin vədlər verir.Qadınlarla salamlaşmağımı görən kişi,mənə tərəf çönüb dedi: ara,zemlyak sən ağıllı adamsan bunları  başa sal ki,onlar tənha qadındırlar.Sabah öləndə evləri hökumətə qalacaq.Əgər məni ailəmlə pasport qeydiyyatına salsalar,sağlıqlarında onlara baxaram,öləndə də təmtaraqlı dəfn edərəm.Düz demirəm zemlyak?!Bu dombaburuna ilk sualım bu oldu ki,sən nə haqla mənə zemlyak deyirsən?!Vicdansız çöndü ki,ara sən də ermənisən da?!Dedim ki,allah eləməsin ki,mən erməni olum.Mən Azərbaycanlıyam.Üzümü qadınlara tutub bildirdim ki,bu erməniyə yaxınlıq etməyin.Bu ermənini pasport qeydiyyatına alsanız,heç bir köməklik etmədən haray-həşir çıxaracaq ki,ev mənə babalarımdan qalıb.Erməni dombaburunun nə vaxt yoxa çıxdığını belə görə bilmədim.Yaşlı qadınlardan biri də mənim dediklərimə qüvvət olaraq bildirdi ki,oğlum Stavropolda həkim işləyir.Deyir ermənilər şəhəri özününküləşdirərək yiyələniblər.Digər bir tanışımla olan söhbətimiz isə mənə təəssüflər keçirməyə səbəb olmuşdu.Əvvəllər tanıdığım rəhbər partiya işçisi ilə söhbətləşən zaman buyururdu ki,bir oğlum var o da hərbiçidir.İllərdir ki,üzünü görə bilmirəm.Heç telefonla da əlaqə saxlamaq olmur.İşi elədir ki,danışmağa icazəsi belə yoxdur.Aldığım təqaüdlə heç evin kommunal xərclərini ödəyə bilmirəm.Qış aylarında isə,südlə-çörəkdən başqa nə isə almağa pulum çatmır.Qış ayları uzun çəkdiyindən İstilik sistemi,qaz ödənişi məni lütləyir.Sovet dövründə yüksək vəzifə daşıdığımdan dörd otaqlı mənzil almışam.İndi bu mənzil mənim başıma bəla olub.Arvad sağ olanda bir tə-

hər ötüşdürərdik.İndi tək-tənha bimirəm ki,axırım necə olacaq.Bəli,müalicə aldığım rus şəhərinin real qəribəlikləri də məni düşüncələr aləminə aparırdı.

Ad günlərimdə oğlum və yoldaşım mənə dəyər,bir müddət də qalardılar.Elə ki,əzizlərim gedərdi tənhalıq,ruhu boşluq içimi dağıdardı.Yaxşı ki,uşaqlarımla,nəvələrimlə görüntülü telefon danışıqları olurdu.Tənhalığa keçən kimi,ələlxüs gecələr yuxum ərşə çəkilərdi.Bir gün qızlarımdan biri mənə şeir göndərmişdi:

Nə müddətdir uzağam,
Gülüşündən,səsindən,
Qayğılı baxışından,
Narahat nəfəsindən,
Salam,ay ata,salam...

Şeirin sonrakı bəndlərini oxuya bilmədim.Sağ olmuş şair şeiri elə gözəl yazmışdı ki,ürək titrəyişi olmadan oxumaq mümkün deyildi.Özümdən asılı olmayaraq gözlərim dolmuş,yanaqlarım yaşla sellənmişdi.Yerimdə quruyub qalmışdım.Boğazım qəhərdən elə kilidlənmişdi ki,özümü ələ almaq üçün bir stəkan suyu belə içə bilməmişdim.Bir təhər özümü ələ alıb,uşaqlarımın şəkillərini qarşıma qoyaraq onlarla xeyli danışıb toxtaqlıq tapdım.Şeir o qədər təsirli idi ki, mənim ruhu boşluğumda bir toxtaqlıq yaratdı və şeir yazmaq həvəsimi coşdurdu.Nəvəm Mikayılın ad gününə həsr olunmuş şeirimi yazdım.Belə baxanda gümrah idim.Ciddi olaraq sağlamlığımın qeydinə qaldığımdan

həkimlə məsləhətləşib vətənimə,doğmalarımın yanına qayıtmaq istədim. Həkimimlə vidalaşıb vətənimə qayıtdım.Bir neçə vaxt ailəmlə yaxşı günlər keçirtdikdən sonra hiss etdim ki,içimdə yaranan ruhu boşluğu boğa bilmirəm.Belə vaxtlarımda çalışdım ki,şeir yaradıcılığımı davam etdirim.Ancaq, bir–iki şeir yazsam da,hiss edirdim ki,söz lüğətim rus kəlmələri ilə zəngin olduğundan öz ana dilimdə şeir yazmaq üçün,bədii söz qıtlığım özünü göstərir.Hövsələdən çıxırdım.İstər-istəməz xatirimə "Azərbaycan gəncləri"qəzeti redaksiyasında qarşılaşdığım kürən saçlı adamın:-səndən şair olmaz,-ifadəsi düşüb hövsələmi sakitləşdirirdi.Elə ki,ruhu boşluq qiyamətinə yuvarlanırdım,beynimdə sual yaranırdı:-altmış üç ildə kefi düşəndə şeir yazandan şair olarmı?

Günlərin birində jurnalist işləyən keçmiş tanışımla söhbətləşən zaman məndə yaranmış boşluqlardan qurtulmaq üçün köməyə ehtiyacım olduğunu danışdım.O da,məni yaxşı tanıyırmış kimi hövsələsizliyimi, oturub yazmaq bacarığımın olmadığını üzümə şax deyəndə onun nə qədər doğru danışdığını anladım.Mənim sükutumu görən yurnalist tanışım ürək-dirək verərək əlavə etdi ki,bildiyim qədər sən güclü iradəyə maliksən.Əgər özünü oturmağa məcbur etsən yaradıcılıq həvəsin yerinə düşmüş olacaq.Jurnalist tanışımdan ayrılıb,evə qayıtdım.Otağın birini qaralayıb,qəti olaraq bədii yaradıçılıqla məşğul olacağıma söz verdim.Nədən başlamağı bilmirdim.Xəyallarım məni həyatımı varaqlamağa məcbur etdi.Keçdiyim həyat yolu acınacaqlı və ibrətamiz olduğundan avtobioqrafiq ro-

man yazmağı qərarlaşdırdım.İki min on yeddinci ilin oktyabrında “Nadanlar dünyası” adlı romanıma başlayıb, iki min on səkgizin fevralında çapa verərək ilk kitabımın işıq üzünü gördüm.Daxili bir rahatlıq tapdım. Bu daxili rahatlıq mənə yeni ruh verib bədii yaradıcılığımı davam etdirməyə sövq etdi.İndi artıq ruhu boşluğun nə olduğunu unutmuşam.

SON.

**09.12.2018.**

## ÇƏRXİ-FƏLƏYIN OYUNU

Məhəllədə dülgər Muradın oğlu Aydınla,bənna Şükürün qızı Aylinin toyunda çalınan qara zurnanın səsi aləmi başına götürmüşdü.İstirahət parkında "Besedka" deyilən məkanda nərd-domino oynayan bir neçə ağsaqqalların,o cümlədən Murad kişinin qonşusu olan Mərdan kişinin sümüklərinə də qara zurnanın ahəngi düşmüşdü.Stəkana qoyduğu zərləri qara zurna səsi altında atıb-tutub nərdtaxtaya ataraq gözlərini qıydı.Zərlər də musiqi ahənginə uyğun rəqslər edirlərmiş kimi Mərdana şeş qoşa verib,qıyılmış gözlərinin daha geniş böyüməsinə səbəb olaraq üzünü güldürdü və oynaq sümüklərə həvəs yaratdı.Ağsaqqallardan  Mirəli kişi Mərdana bir əhsən deyərək,əlini Mərdanın cibindəki yığcam pullara şappıldadıb dedi:-ə Mərdan, yenə ciblərinə bir manatlıq əksinasları doldurmusan ki,toyda şabaş verəsən?! Mərdan kişi təkkəbbürlü olaraq,-ə nə bilmişdin,qonşumun balasının toyunda şabaş verməyim bəs?!Yox  ey deyirəm ki,sənin şabaş verməyin çox gözəldir,qəbahət deyil.Sadəcə bizim təzə çıxmış milli pullarımızı ayaq altına səpmiyəsən ha?! Ə yox nə danışırsan ay Mirəli kişi,bizim pulları mən gözümün üstünə qoyuram.Bu cibimdəki əksinaslar ömrünü başa vuracaq bir manatlıqlardır,yəni rubllardır.Yenə zərləri musiqi ahənginə uyğun oynadıb nərdtaxtaya atmağı ilə yenidən şeş qoşaya sevinən Mərdan:-bax ay Mirəli kişi bu şeş qoşa da,cibimdəki bir rubulların məhvə gedən yolları-

nin təsdiqidir.Besedkada oturanları bir gülüşmə tutdu ki,gəl görəsən.Artıq,hava qaralmağa doğru getdiyindən,besedka məkanının ağsaqqalları toydakı yerlərini rahatlamaq qərarına gəldilər.Qara zurna zənguləsi altında rəqs edən cavanları nizama dəvət edən toybaşı Rüstəm,toya təşrif buyuranları qəbul edib,yemək paylayanlara bir işarə etdi ki,gələn qonaqlarımıza isti samovar çayı və pendir-lavaş tədarük etsinlər.Toybaşının məqsədi,bayırdan gələnlərin qarnını isidib,rəqsə dəvət etməklə şabaşla əlini isitmək idi. İsti pürrəngi çayı dodaqlarına tutub,qoxusundan pəh-pəh edən Mərdan kişi xeyli ət doğramasının teştə yığılaraq ocaq üstünə daşınmasını görüb ətrafındakılara göz-qaş işarəsi verməklə bildirdi ki,qayışınızın altını pendir lavaşla az doldurun.Bir azdan qabırğa kababları süfrəyə gələndə ağzınızın ləmsi dodaqlarınızdan axacaq.Mirəli kişi Mərdanın şeş qoşa kimi haqq danışığını görüb,nəfsini saxlamış oldu.Bir azdan toy süfrələrinin bəzəyi,ağızların dadı olan kabablar düzüləndə ağızların marçıltısı tut arağının ahəngi ilə,zurna səsinə uyğun dombalmış avurtların rəqsinə çevrildi.Toy sahiblərinə gözaydınlığı verənlərin sağlıqlardan beyinləri elə şişdi ki,qudaların rəqsinə atılan şabaşlar içərisində Mərdanın bir rubulları havada yellənərək yerə tökülüb tapdaq altına düşürdü.Toybaşı Rüstəm qapdığı pulları toyçuların masasına qoyub geri dönəndə,məhəllə uşaqlarının ac toyuqlar kimi pulu dənnədiklərini görüb,əllərindən şabaş pullarını qoparmağa çalışması uşaqlarda məhzəkə yaradırdı.Beləcə toy-büsat üç gün-üç gecə davam etməklə Aydınla-Aylinin son bəy-gəlin rəqsi

ilə başa çatmış oldu.Toyu başa vuran toybaşı Rüstəm qudalara gözaydınlığı verməklə bərabər cavan ailə quranlara xoş ailə səadəti arzulayıb,toy iştirakçılarına sağlam can və bolluca pul arzuladı ki,gələcək toylarda ürəkləri böyüklükdə şabaşlar verməyi bacarsınlar.

Muradın oğlu Aydın əsgərliyini çəkib,Bakıda bir müddət tikintilərdə gah suvaqçı,gah bənna və digər peşələrdə çalışaraq tikinti sahəsinin peşəkarı olmuşdu.Atasının təhriki ilə Bakıdan qayıdan Aydın elə tikintidə müxtəlif peşələrin bilicisi kimi özünü tanıtdırdıqdan sonra,sinəsinə döyərək atasına əyan etdi ki,o Bakıda gününü boş-boşuna keçirməyib,iki illik prorablıq oxuyub.Atası Murad kişi həqiqətən də,oğlunun savadlı prorab olduğunu görüb daxilən məmnunluq duyurdu.Onun prorablığı Murad kişi ilə bahəm çalışan dülgər Şükür kişini də əfsunlamışdı. Elə bu əfsunluğun nəticəsi idi ki,Bakıda tibb texnikumunu bitirərək dədə evinə qayıdıb, hələlik işsiz olsa da naharda atasına isti yeməklər gətirən qızı Aylinə Aydının prorablığını tərifləməsi idi. Şükür kişi oturub-durub deyərdi ki,Murad kişi xoşbəxt atalardandır ki,elə oxumuş oğlu var.Atasının bu tərifləri Aylinin cavan qəlbinə sirayət etmiş və Aydına qarşı münasibətdə istiliklər yaratmışdı.Günlərin birində Aylin-Aydın qarşılaşması dostluğa və sonradan sevgi münasibətlərinin yaranmasına səbəb olmuşdu ki,toylarını üç gün-üç gecə qara zurna səsi  ilə başa vurub ailə qurmuşdular.

Şükürün qızı Aylin isə orta məktəbi başa vurub,həkim olmaq arzusu ilə Bakıya getsə də,müsabiqədən keçə

bilməyib tibb bacısı olmaqla kifayətlənmişdi.Oxuduğu iki il müddətdə xeyli cavan oğlanlardan sevgi dolu təkliflər alsa da,elçi düşənlərin heç biri ürəyincə olmamışdı.Məktəbini başa vurub ata evinə qədəm qoyan Aylin dövlət xəstəxanalarında iş tapmadığından,qonşulara,tanışlara iynə vurur,hətta sistem də qoyurdı.Aylinin bu qoçaqlığı anası Nisəni sevindirmişdi.Aylinin tibbi bacarığı "hədiyyə"şəkilində qiymətləndirilirdi ki,anası Nisə də ona "hədiiyəli balam" deyərək öyünürdü.Elə ki,Aydın məsələsi ortaya çıxdı,Nisə arvad səmimi olan qızını sadəlövh kimi başa düşdüyündən ona ər-arvad dərsini verməyə başladı.Nisə arvad Aydının ata-anasına "hədiyyəli qızını" qurban verməmək xatirinə başladı ki,qızım elə ki ailə qurdun elə ilk gündən kişinin pişiyinin başını kəsə bilsən ömrün xoş keçəcək. Anasının kişi pişiyini kəsmək dərsindən dodaqları uçuqlanan Aylin,anasının dediklərini anlamadığını söyləyərkən,anası bir az da dərinə keçdi.Qızım de görüm sənin atan Şükür mənim bir sözümü iki edə bilirmi?Ay ana burda nə var ki? Atam sənin xətrini çox istədiyindən xidmətini əsirgəmir.Yox,qızım elə deyil.Mən atanın pişiyini elə ilk gündən məhv etmişəm.Ər evinə gələn dəqiqədən özümü ahu-zara vurub mənə xidmət etməyinə səbəb olmuşam.Çarpayıdan ilk ayağa qalxdığımda şəplərimi ayağıma geydirib,qolumdan tutub süfrəyə aparıb.Səhər yeməyini necə hazırladığını belə görməmişəm.Bunları deməkdə məqsədim odur ki,o bənnanın oğluna ərə getdiyin ilk gündən onu sənə qulluq etməyə ram etsən,elə bil ki,Aydın ərinin kişi pişiyinin başını kəsmiş olacaqsan.Ondan son-

ra,Aydın ömrü boyu sənin qulluğunda duracaq,sən də xanım-xatun olacaqsan.Hə,ay ana indi səni başa düşdüm.Sən ərə gedən gündən bunu etmisən,mən isə nişanlı olanda büdrəyən zaman Aydın kabluku əyilmiş ayyaqabımı düzəldib,ayağıma da ayyaqabını sevə-sevə geyindirib.Qızının bu sözündən sonra,fərəhlənən Nisə,-halal olsun sənə süd verən anaya,-deyib onun gələcək xanım-xatunluğuna xeyir-dua verdi.

Mərdanın oğlu və gəlini üçün ayırdığı iki otaqda mehribancasına yaşayan Aydın və Aylin xoş günlərə rəvac verdilər.Aydın prorablığı ilə,Aylin isə dövlət xəstəxanasında yenicə işə başlamağı ilə şad-xürrəm idilər.Bununla bahəm Aylin kənar zamanlarda məhəllə camaatına iynə və sitem xidmətləri ilə əlavə qazanc əldə edirdi ki,anası Nisə arvad deməli "hədiyyəli bala" olurdu.Aradan il tamam olmamış cavan ailənin bir oğlan uşağı dünyaya göz açmış oldu.Oğlan uşağına babası Mərdanın adını qoyub,xeyir-dua verdilər.

Zəmanə dəyişilməyə başlamışdı.Elə bir zəmanə peyda olmuşdu ki,var-dövlət,normal yaşayış,yaşayışın uğurlu-uğursuz olması çərxi fələk oyununa çevrilmişdi.Bütün sahələrdə olduğu kimi,tikinti işlərində də durğunluq yarandığından,işsizlik qapıları döymüşdü.İşsizliyə düçar olan qudalar nə işlə təmin olunurdular,nə də prorab Aydın bir iş tapa bilirdi.Prorab Aydın hansı dövlət müəssisələrinə müraciət edirdisə,prorab təhsilinin sənədini tələb edirdilər.Aydın isə çox yaxşı bilirdi ki,tikinti işçilərinə uydurduğu prorablığın,nə goru vardı,nə də kəfəni.Odur ki,gününü

uşağına dayəlik etməklə keçirirdi.Düzdür hərdən bir fərdi tikintisi olanlar ona mürciət edirdilər,o da ki tək-tək hallarda olurdu.Aylin isə həmişəki kimi iş başındaydı.Bu minvalla ikinci ilin tamamında ikinci bir oğlan uşağı dünyaya təşrif buyurub,nənə Nisəni öz adını qoymaq həvəsindən məhrum etdi.Çox mübahisədən sonra Mərdan babanın adı qoyulmuşdu deyən,Şükürün də adı yeni nəvədə təmsil olundu.Analıq məzuniyyətindən sonra,xəstəxanada gedən "sokraşeniyanın"təsiri Aylinə də təsirsiz ötüşmədi.Şikayət etdiyi yuxarı mötəbər təşkilatlar ona heç bir müsbət cavab vermədilər.Uşaqlar böyüyüb məktəb yaşına çatanda,Aydın və Aylin belə qərara gəldilər ki,bu balaca qəsəbədə işsiz qalana qədər,əhalisi və iş yerləri çox olan Bakıya köç etsələr yaxşı dolanarlar.Bir müddət kirayə qalıb,işləyərək pul yığıb ev də ala bilərlər.Aydın və Aylinin dolanışıq naminə Bakıya köçmək fikirlərini eşidən valideyinlər,çərxi fələyin oyunlarından baş açmadıqlarından,çarəsiz olaraq onların köç məqsədlərinə qarşı çıxmadılar.İşsiz qalan valideyinlərinin razılığını alan Aydın və Aylin məktəblərin tətil vaxtlarında Bakıya köç edib,kirayə ev də tuta bildilər. Kirayə qaldıqları evin yanında,həm poliklinika,həm də orta məktəb binaları yerləşirdi.Tez bir zamanda qul bazarına qədəm qoyub tikinti fəhləliyinə başlayan Aydın,bir müddətdən sonra müxtəlif tikiniti peşələri daşıyan uşaqları ətrafına toplayıb prorablığa başladı.Aylin isə,bir çox axtarışdan sonra elə düşündüyü yaxınlıqdakı poliklinikada tibb bacısı olaraq işə başlayıb,ailə güzəranını yaxşılaşdırmağa köməkçi oldu.Beləcə ailə xoş güzəran keçir-

məkdə davamlı oldular.Yeni-yeni tikinti şirkətlərinin,tikinti-təmir işləri ilə məşğul olan firmaların meydana gəlməsi,fərdi iş bazarının da çökməsinə təsirsiz ötüşmürdü.Fərdi peşə sahibləri az da olsa dolanışıqlarını təmin edə bilirdilər.Kimin maddi imkanı olurdusa özünə avadanlıq alıb kustar sənət sahibi kimi iş əldə edə bilirdilər.Aydın hiss edirdi ki,daha onun prorablığı öz əhəmiyyətini itirir.İndividual sənət sahibləri ondan ayrılıb öz işlərini ayrıca həll edirdilər.Qul bazarında bir işsizlik boşluğu yaranmışdı.İşsizlik,bekar düşüncələr ona gətirib çıxarırdı ki,bəzi iradəsizlər narkotikə meyilli olub bütün işsiz günlərini narkotikin yaratdığı xam,ancaq romantik xəyallar aləminə düçar olurdular.Aydın da,işsiz həmkarlarının narkotik dəvətindən məmnun olub,onlardan geri qalmırdı.Aydının iş dalınca gündəlik getməsi və qazanc gətirməməsi Aylini narahat etməyə başlamışdı.Hər dəfə yorğun və yuxudan kəm ayılmışlar kimi evə qazancsız qədəm qoyan Aydın arvadının sorğularına cavab verməkdə çətinlik çəkir və bircə onu deyirdi ki,düşmüşəm çərxi fələyin oyununa.İş olmur ki,olmur.Aylin işsizliyin baş alıb getdiyini bilirdi.Məhz elə buna görə ərinə məsləhət gördü ki,boş-boşuna qul bazarında havayı papaq yandırmaqdansa,heç olmasa evdə oturub uşaqlarına vaxt ayırsa pis olmaz.Aydın onsuzda uşaqlarına körpə vaxtı az dayəlik etməmişdi deyən,arvadının məsləhəti ilə razılaşdı.Ancaq,xahiş etdi ki,hərdən bir iş tapmaq xatirinə ona yol pulu,nahar pulu versə bəlkə qazancı yarana bilər.Ərinin keçmiş qazanclı vaxtlarını xatırlayan Aylin,məcbur olub razılaşdı.Aydın

demək olar ki,müxtəlif bəhanələrlə həftədə üç-dörd kərəm qul bazarına baş vurub,zəhrimardan dadaraq xəyallar aləmində axşama qədər üzüb,sonra evinə qayıdırdı.Bu minvalla narkotik asılılığı onu elə hala gətirdi ki,artıq qul bazarında yox,kirayə qaldığı evin qapısında zəhrimarı dadmaqla gününü çarpayıda keçirməyə başladı.Aylin bütün gününü işdə,kənar qazanclarda keçirdiyindən və yorğun olaraq evə qayıtdığından ərinin daha qul bazarında deyil,günlərini evdə keçirməsindən xəbəri olmurdu.Narkotik asılılığından əziyyət çəkən və narkotik satıcısına xeyli borcu yaranan Aydın tamamən özünə nəzarəti itirmişdi. Günlərin birində qonşu qapısının açıqlığından istifadə edərək,oğurluğa əl atması və nə az,nə də çox düz iki min manat pul əldə etməsi Aydın mənəviyyatında ciddi pozğunçuluğun ağır nəticəsi idi. Aydının bu “qoçaqlığından” nə bir səs çıxdı,nə də səmir. Üç yüz manat narkotik borcunu ödəyən Aydın iki yüz manat kənara qoymaqla,arvadı Aylinlə bilərəkdən gizlin bir oyuna keçdi.Bir müddətdən sonra,arvadı Aylinə min beş yüz manatı göstərən Aydın,yeni bir iş dostunun peyda olduğunu və bir həftəlik işinə bu qədər məvacib verdiyini bildirməsi Aylini mat qoydu.Aylinin matı-mutunun quruduğunu anlayan Aydın hiyləgərliyə əl atıb,arvadına əyan etdi ki,əgər onun xeyli pulu olsaydı dostu ilə bərabər ev alqı-satqısına girişər və qazancından özünə də ev ala bilərdi.Həmin dost ev alır,təmir edib sonra satır.Necə bilirsən əzizim?! Bəlkə bir az pul tapaq.Vallahi bir az pul tapsaydıq güzəranımızı xeyli yaxşılaşdırar,özümüzü evlə də təmin edərdik.Ərinə

inanan Aylin illərlə ev almaq eşqi ilə yığdığı on min manatı ərinə verib,üzünü göyə tutaraq,-ya Rəbbim,sən özün köməyimiz ol,bəlkə bu kirayələrdən canımızı qurtaraq.Aylinin qəlbinə ibliscəsinə girən Aydın, xeyli pulu görüb sevincə düşdü.Bu sevinc narkotik asılılığından doğan bir sevinc idi. Aydın çürümüş beynində planlar quraraq bir belə pulla bir neçə ay narkotik asılılığını təmin edəcəyindən ruhlandı.Əllərini uzadıb arvadını bağrına basan Aydın tezliklə evləri olacağına çalışacağını bildirməklə ümidli,ancaq yorğun arvadına axşam istirahəti arzuladı.Bir ani məqamda pulları qamarlayaraq prorab diplomatında yerbəyer etdi.Aylin isə,kirayələrə əlvida edəcəyi gün və yeni ev həvəsi ilə,ilk dəfə olaraq şirin yuxuya getdi.

Artıq bir neçə ay keçmişdi.Aylin həmişəki kimi işinin dalınca,Aydın isə işə getmək uydurması ilə qul bazarında,yaxud yarımçıq tikililərdə gününü narkotik eyforiyası ilə keçirirdi.Aylar keçdi,bütün pullar tükəndi. Zəhrimarı borca verən də yox idi.Beləcə axşamların birində Aydının arvadından pul tələbi onu səbirsizləşdirdi.Nə pul,Aydın?! Hanı sənə verdiyim on min pulun qazancı,haradadı pullar.Axı sən mənə bildirmişdin ki,dostunla ev alqı-satqısına girişib son məqamda ev alacaqsan?! Üz-gözündə qəmlilik yaradıb ağlamsınmış vəziyyət yaradan Aydın and-aman etdi ki,dostu bir ay olar ki,əppəy olub yoxa çıxıbdır.Axtarmadığım yer qalmayıb,gördüm deyən belə yoxdur,-deyən Aydın zarıldayırdı.Aylinin illərlə əziyyət çəkib ev almaq eşqi ilə yığdığı on min manat hədərə getmişdi.Az qala ürəyi yerindən oynayacaqdı.İki əlini dizinə vuran Aylin

talehindən şikayətçi oldu.Arvadı ilə bir təhər ötüşən Aydın,məsələnin genişlənməyəcəyini görüb,talehi ilə barışan arvadına dedi:-vallah mən də məətəl qalmışam.Bu andıra qalmış çərxi fələk bizdən nə istəyir, bilmirəm.Bütün başımıza gələnlər çərxi fələyin oyunundandır.Atalarının düşdüyü bəlanı duyan yekəlmiş uşaqlar analarına bir məqam bildirdilər ki,ataları narkotikə meyillidir.Ömründə papiroz belə çəkməyən ərinin narkotikə uyması xəbəri,Aylini şoka saldı.O indi başa düşdü ki,ərinin uydurduğu ev alqı-satqı dostu əslində narkotik asılılığını təmin etmək üçün imiş.Hətta, qonşuda oğurlanmış iki min manatın elə ev sahibləri tərəfindən ört-basdır etmələri də,Aylində şübhələr yaratmışdı.Artıq olub-qalan iradəsini itirərək rəzilləşmiş,pul əldə edib zəhrimar əldə etmədiyi təqdirdə aqressivləşən ərinin gündəlik pul tələbini ödəməkdən başqa çarə tapmayan Aylin,səs-küy yaradıb biabır olmaqdansa onun pul tələbinin qulu oldu. Ailəni dolandırmaq,kirayə pulunu vermək,kommunal borcları ödəmək,üstəlik ərinin pul tələbi kaprizlərinə dözmək Aylini çətinliyə salmışdı.İlk dəfə idi ki,ev sahibi narazıçılıq edib evi tərk etmələri üçün bir ay vaxt vermişdi.Rəfiqələrinin köməyi ilə yaxınlıqda,uşaqlarının məktəbinə bitişik olan binada ev kirayələyən Aylin heç olmasa uşaqlarının böyüməsi xatirinə gecəli-gündüzlü çalışmağa məcbur olmuşdu.Aydını narkotik pulundan başqa heç nə maraqlandırmırdı.Uşaqlar nə işlə məşğuldular,Aylin gecəli-gündüzlü haralarda çalışır.Hərdən,qadın olaraq işləyib ona pul verməyindən şikayətlənən Aylinin haqlı sorumuna,Aydın gülərək deyirdi

ki,sənə kim deyir işlə.Otur evində.Başımıza gələnlərin hamısı çərxi fələyin oyunudur.Aylin isə,bir vaxtlar prorab kimi ad çıxaran Aydının rəzilləşməsini,onun cavan həyatını puç etməsini talehin hökmü kimi qiymətləndirirdi.Başqa bir əlacı yox idi Aylinin.Kirayə pullarının ödənilməməsi müqabilində hər dəfə qovularaq yeni kirayələrə üz tutan Aylinin daha taqəti qalmamışdı.Bircə onu qəti bilirdi ki,ərinin narkotik asılılığı onu diri-diri çürüdür.Yeganə təsəllisi uşaqlarını böyüdüb cəmiyyət üçün yararlı övladlar etməsi olurdu.

Həyat olduğu kimi davam etsədə,narkotik asılılığı yaşayan Aydın,hələ də düşdüyü bəlanı çərxi fələyin oyunu hesab edərək müqəvvaya çevrilmiş mənasız həyatını yaşayırdı.

**SON.**

***09.08.2022.***

## MƏNİM TÜRKİYƏM

Onun adı Mətanət idi.Anası Gülzar sadəcə Mətiş,-deyə müraciət edərdi.Ana və ata baba-nənələri 1988-ci ildə Ermənistanın Vedi rayonundan ermənilərin milli düşmənçilik zəminində doğma yurdlarından qovulanlardan idilər.Münbit torpaqlardan,mülayim dağ havasından məhrum olanlar ilan mələyən Şirvan elinə pənah gətirərək,balaca bir daxmada məskunlaşmışdılar.Elə Mətanət də bu köçün beş illiyində bu kiçicik daxmada dünyaya göz açmışdı.Hələ Mətanətin iki yaşı tamam olmamış atası Kamil Qarabağ uğrunda gedən qanlı döyüşlərdə itgin düşmüşdü.Baba-nənələr Kamilin yoxluğu ilə barışmayıb həsrətlə bu fani dünyanın itgin saldığı övladlarını gözləsələr də,nakam olaraq dünyalarını dəyişmişdilər.Gülzarın isə gözü yollarda qalmışdı.Qızı Mətanətə anlam verirdi ki,Kamil bizi tək qoymaz,nə vaxtsa gəlib bizə sahib duracaq.Ata həsrəti o vaxta gəlib çatdı ki,Mətanət orta məktəbi başa vurub ali tibb təhsili almaq üçün Bakıya yollandı.Fəqət müsabiqədən keçməyib,tibb texnikumuna daxil olaraq təhsilini davam etdirməyə məcbur oldu.İki il yarım təhsil alan Mətanət Şirvana qayıtsa da,ixtisası üzrə iş tapmayıb bir müddət anasına yardımçı ev işlərinə əl uzatdı.Bir az imkan əldə edib,tökülüb dağılan daxmaya əl gəzdirdilər.Bu minvalla bir müddət birtəhər yaşasalar da,yaşamlarında heç bir irəliləyiş olmadı.Mətanət anasından xahiş edirdi ki,daxmlarını satıb Bakıda yerləşsələr,işləyib dola-

nışıqlarını qaydaya sala bilərlər.Xeyli götür-qoydan sonra ana-bala belə qərara gəldilər ki, çox da böyük dəyəri olmayan daxmanı satıb,Bakıda ucuz bir kirayə evində qalsınlar.Gerisi-irəlisi isə allaha pənah olacaqdı.Satdıqları daxmanın pulu ilə,bir neçə ay kirayəda yaşamaqla dolanmaq olardı.Ana-bala daxmalarını anladıqları kimi ucuz dəyərə verib,ya allah deməklə Bakıya yollandılar.Bakıda bir neçə günlük kirayə axtarışından sonra elə Ermənistandan vaxtı ilə köç etmiş bir ailənin quşqondusunda xudmani bir otaq kirayələdilər.Bir müddət iş axtarışı nəhayət bəhrəsini göstərdi.Bir vaxtlar Tibb İnstutuna imtahan verən zaman rəfiqəlik etdiyi Xuraman adlı Bakılı qızın rəhbərlik etdiyi poliklinikaya tibb bacısı olaraq işə düzəldi.Xoşxasiyyət,gülərüz və səmimiyyəti ilə seçilən Mətanət tibb kollektivinin sevimlisi olmaqla bərabər,ağ xalatlı su pərisi kimi heyranlıq doğururdu.Poliklinikada ona heyran olan qızlar zarafatla soruşardılar:-ay qız Mətanət, gün döyən Şirvan elinin kişmişi gözəlləri olduğu halda,sən niyə pambıq kimi ağappaqsan?Mətanət qızların bu zarafatı qarşısında hallanar,ağ yumru sifəti lalə kimi qızarardı.Bu dəm o utancaqlığına son qoyaraq ərz edərdi ki,o Şirvanda dünyaya göz açsa da,geni Vedi rayonundan gəlir.Elə anası da,Ermənistandan milli zəmində köç etmiş qonşuları da,ağsifətlidirlər.Poliklinikada bir müddət işləyib hörmət qazanan Mətanət,anasını da xadimə işinə düzəltmiş oldu.Rəfiqəsi Bakılı qızı Xuraman köməkliyini əsirgəmədi.Axşamlar təmizlik işlərinə baxan anasına qolunu çimrələyib kömək edən Mətanət xoş əhvalla quşqondularına gələrdilər.Gül-

zar ananın işləməsi, mehribanlaşdığı ilə seçilməsi qonşularda bir həsrətlilik yaratmışdı.Hər axşam işindən qayıdan Gülzar ananı qonşular dərdləşməyə çağırar və gecə keçənə qədər söhbətləri uzanardı.

Mətanətin iyirmi beş yaşı tamam olmuşdu.Anası Gülzar, həm qızının qazancından,həm də özünün yadigar ana yastığında yığdığı pullardan bəhrələnərək yaşadıqları otağı rəsmi olaraq almaları qızının iyirmi beş yaşına bir ərməğan oldu.Anasının yığımçıl olması və yaşadıqları otağı alması Mətanəti çox sevindirmiş və onu atasız böyüdüb,ata yoxluğunu bildirməyən anasına ana-balalıq duyğusunu möhkəmləndirmişdi.

Tibb bacısı olaraq gündəlik işində xəstə pasiyentlərə şirindilliyi ilə xidmət edən Mətanəti,iş adamı olaraq Bakıda fəaliyyət göstərən Hataylı türk Mehmet də çox bəyənmişdi.Gündəlik bir neçə iynə vurduran Mehmet Mətanəti gözaltı izləyir və hiss edirdi ki,bu dilli-dilavər qız onun tənha ürəyinə hakim kəsilmişdir.Beləcə yarım aylıq iynələr qəbul edən Mehmet,günlərin birində cəsarətə gəlib,ona heyran olduğunu bildirdi.Mehmetin ədəb-ərkanlı olduğunu elə ilk anlardan hiss edən Mətanət bu heyranlıq üçün təşəkkürünü izhar etsə də,Mehmetin qəti fikir sahibi olmasından az qala dodaqları uçuqlanmışdı.Bir anlığa hələ uşaq olarkən babasının türk igidliyindən,türklər ilə olan milli yaxınlıqdan xeyli nağıllar danışması onda türk sevgisi yaratmışdı deyən,daxilindəki istiliyin səbəbini anlamaqda idi.Mehmet türk olmaqla bahəm alicənablığı ilə seçilirdi.Mehmetin qəti fikirli olduğunu görən Mətanət təsəvvür

edə bilmirdi ki,babasının onda yaratdığı türk sevgisindən illər keçəndən sonra xəyalına gətirə bilmədiyi bir türklə məhəbbət yaşamına giriftar ola bilər.Mətanətin ürək sirdaşı anası idi.Odur ki,anası ilə məsləhətləşməyi lazım bilib,Mehmetdən bir müddət vaxt istədi.Anası illik məzuniyyətdə olduğundan,işini başa vuran Mətanət müvazinətini itirmişlər kimi,beyin və ürəyinə yaxınlıq yaradan Mehmetin qətiliyini götür-qoy edə-edə nə vaxt evlərinə yaxınlaşdığını belə hiss edə bilmədi.Qapının ağzında qızını qarşılayan Gülzar ana qızının pərişanlığını görüb nə baş verdiyini bilmək istədi.Susqun halda anasını süzən Mətanət,birdən onun boynuna saralıb qulağına pıçıldadı:-ana,bir neçə vaxtdır mənim xəstəm olan türk Mehmet mənə sevgisini bildirib,fikrində qətiliyini izhar etdi.Sonra utancaq nəzərlərlə anasını süzən Mətanət, Mehmetin türk olduğunu və evlənərsə Türkiyədə yaşayacağını bildirməsi məndə bir çaşqınlıq yaradıb.Mehmet çox ədəbli,yerini bilən insandır.Sən isə məni böyüdüb ağ xalatlı edən anamsan.Mən sənsiz heç nə çözə bilmərəm.Qızını bağrına basan ana,sevincdən axan göz yaşlarını silərək,bir anlıq keçmişlərin xəyalını beynində canlandırdı.Əziz qızının qoluna girən ana ərz etdi ki;-hələ məktəbdə oxuyarkən ermənilər bizə "tork"-deyib,ikrah hissi ilə bizə istehza edərdilər.Mən "tork"nə deməkdir bilməzdim.Günlərin birində atamdan soruşanda əyan etdi ki,ermənilərin ta binəva qədimdən türklərdən acığı gəlmiş,türklərə nifrətlə yanaşmışlar.Bizə də, ona görə "tork" deyirlər ki,biz əslində türk Azərbaycanlısıyıq.Qanımız türk qanıdır.Ermənilər bunu yaxşı bil-

diklərindən bizi,o cümlədən siz uşaqları “tork”adlandırırlar.Atamın bu anlaşmasından sonra erməni uşaqların bizə “tork” deməlɘrinə fikir verməzdik.İndi qızım,Mehmetin türk olması,elə sənin də türklüyünə dəlalətdir.Qaldı ki,Türkiyədə yaşamaq barədə çaşqınlığına,bu barədə fikirləşmə.Dilimiz,dinimiz,adət-ənənəmiz birdirsə nə fərqi var harda yaşamaq lazım gələcək.Əgər Mehmet səni qəti olaraq sevirsə və sənin ona hisslərin yaranıbsa bunu alqışlamaq lazımdır.Qaldı ki,mən ananın dərdini çəkməyə dəyməz. Quşqondu olsa da yatmağa daxmamız var,lazım gələrsə sizinlə bahəm bir müddət Türkiyədə də yaşaya bilərik.Əsas odur ki,sizin bu izdivacınız möhkəm bağlarla sizləri birləşdirsin.Anasının xeyir-duasını alan Mətanət, Mehmeti anası ilə tanış edib,ailəvi tanışlıq yoluna qədəm qoydular.Ailəvi tanışlıqdan sonra,Bakıda restoranların birində,sonra isə Hatayda toy-büsat qurub ailə izdivacına yetişdilər.Mehmetin dünyaya göz açdığı ata-ana həyət evində ailə xoş-xürrəm yaşamağa başladılar.Bir müddət Hatay qudaları ilə yaşayan Gülzar ana quşqondu qonşuları üçün darıxdığından Bakıya qayıtmağa qərar verdi. Mətanət həm xoşxasiyyəti,həm də tibb peşəsi ilə Mehmet ailəsinin sevimlisi olmuşdu.Güzəranı xoş keçən Mətanət nəinki,Hatayın özünəməxsus təbiətini sevmişdi,o həməşə Türkiyə sevgisini,mənim Türkiyəm deməklə ifadə edirdi.Bir il tamam olmamış Mehmet və Mətanət ailıəsində sevinc yaşanmış,ailənin biri qız,biri oğlan olmaqla ekiz uşaqları dünyaya göz açmışdılar.İncəliyi ilə seçilən qız uşağına Nailə,totuq uşaq olan oğlana isə Adil adını qoy-

dular.Hər iki uşaq  ata-analarının oxşar cizgilərini özlərində daşıyırdılar.Beləcə ailə xoş günlər keçirir,yaşlılar müdrikləşir,uşaqlar isə böyüdükcə yeni dünyagörüşü əxz edirdilər.Gülzar ana demək olar ki,yay aylarını Hatayda,nəvələrinin yanında keçirirdi.Mehmet iş adamı olduğundan gecə-gündüz dayanmadan çalışır,uşaqlarının gələcək xoşbəxtliyi üçün planlar qururdu.Mətanət də,uşaqlar da Mehmetin gecəli-gündüzlü çalışmalarına öyrəşmişdilər.Bu minvalla uşaqlar böyüyüb beş yaşlarına qədəm qoyanda Mehmet ata-ana evinin yaxınlığında tikilmiş yeni binada ev alıb,böyründəki bağçaya uşaqları qoymaqla ata-ana əziyyətinə də son qoymaq qərarına gəlmişdi.Beləliklə,yeni evdə məskunlaşan Mehmet-Mətanət ailəsi uşaqları bağçaya qoymaqla asudə yaşamağa rəvac verdilər.Gülzar ana nəvələrinin yeni təzə binada yaşadıqlarına sevincli olub,onlara xoş günlər arzulamışdı.Yanvar-fevral aylarında Hatayda soyuqlar baş alıb getdiyindən Gülzar ana uşaqların ad günündə iştirak edə bilmirdi.Gülzar ananınkı belə gətirmişdi ki,yayda nəvələrinin görüşünə gələr,soyuq vaxtlarda isə quşqondusunda yaşayaraq köçkün həmvətənliləri ilə,dərdləşərdi.Söz vermişdi ki,inşallah təzə evdə uşaqların ad günündə imkan tapan kimi iştirak edəcək.Mehmet və Mətanət uşaqların ad gününü bağça müdirəsi ilə olan sövdələşməyə görə,bağçada keçirmək qərarına gəlmişdilər.Uşaqların ad günü fevralın altısında olacaqdı deyən,ailədə və bağçada tamtəraq yaradılırdı.Mehmetin işində gərginlik yaşadığından,fevralın beşində Mətanətə tort hazırlıqlarını təqdim edib,işinə getmiş oldu.Ge-

dəndə Mətanətə tapşırdı ki,səhər tezdən gəlib,birbaşa bağçaya getməli olacaqlar deyən,hər şey hazırlıqlı olsun.Bağça müdirəsinə də,xahişimi etmişəm,tamtəraqlı ad günü keçirməliyik.Ailəsi ilə xudahafizləşib işinə gedən Mehmet ofisdə iclas iştirakçıları ilə,xeyli çalışıb işdə yaranmış gərginliyə son qoymaq istəyirdilər.Səhərə yaxın yorğunluq keçirən iclas iştirakçıları,iclasa ara verib dincliklərini almaq istəyirdilər ki,qəflətən çilçıraq şüşələrinin bir-birinə dəyərək səslənməsinidən duruxub,masaların tərpənişindən sonra bir anlığa zəlzələ olmasını duyaraq masa altında qorunmağa çalışdılar.Ani olaraq Mehmetin yadına əvvəllər baş vermiş zəlzələ düşdü.İndiki silkələnmə daha güclü görsənirdi.Onların məskunlaşdığı ofis iki mərtəbəli olsa da,divarda əmələ gələn yarıqların böyüklüyü dəhşət saçırdı.Ani sakitliyin hökm sürməsindən istifadə edən iclas iştirakçıları ofisi tərk edib bayıra qaçdılar.İlahi,bu nə dəhşət saçan mənzərə idi.Ofisin ətrafındakı beş-altı mərtəbəli binalar dağılaraq toz dumanı yaratmış,gözlə kənar binaları,hətta yolları belə görmək mümkün deyildi.Mehmeti dəhşət bürümüşdü.Ömründə görmədiyi fəlakət qarşısında idi.Birdən yadına ailəsi düşdü.Görəsən bizim bina salamatdırmı?Taki salamat olaydı,inanmıram ki,təzəlikdə köçdüyümüz bina vəfasızlıq etsin.Kaş bina uçmayaydı.Yarəbbim,axı uşaqların ad gününü keçirməliyik.Mən tələsməliyəm,ailəmi görməliyəm. Ofisin qarşısındakı maşınına oturub,bir anlığa evlərinə çatmağa çalışdı.Heyhat dağıntılardan yollar bağlanmışdı.Tez maşını kənara atıb,evlərinə doğru qaçmağa başladı.Hər tərəfdə olan qışqırıqlar,ağlaş-

malar onun nəfəsini kəsirdi.Sanki qışqıranlar arasında uşaqlarının,sevimli Mətanətinin səslərini eşidirdi.Yox bu ola bilməz,ilahi bu nə dəhşətdir?!O dağıntılar üstündən aşaraq imdad deyib qışqıranlardan dəhşətə gəlirdi.Bu dəhşətlər içərisində o ailəsinin yaşadığı binaya doğru qaçırdı.

Şirin yuxuda olan Mətanəti, xrustal şüşələrin cingiltisi,sonradan döşəməyə aşan şüşəli mebelin səs-küy yaradan qırıntıları oyatdı.Hələ yuxulu olaraq nə baş verdiyini anlamayan Mətanət pəncərənin divar uçuğundan anladı ki,evdə bərk silkələnmə var və deyəsən zəlzələyə oxşayır.Tez ayağa durub uşaqların yataq otağına səmtləndi.Qapını açıb otağa daxil olmaq istəyirdi ki,bədəninə düşən ağır kütlə təsirindən yerə yıxıldı.Çabalayaraq onu əzən ağır kütlə parçasından qurtulmaq istəsə də,bacarmadı.Ağır kütlə getdikcə onun nəfəsini kəsirdi.Özündə güc toplayıb var gücü ilə Adil və Nailəsini çağırdı.Uşaqların səsini çıxartmalarından anladı ki,körpələri şükr sağdır.İki qolunu irəli uzadıb,əlləri ilə uşaqlarına toxunmaq istədi.Otaqda yaranmış toz dumanı uşaqları görməyə imkan vermədiyindən əli uzanılı qaldı.Mətanət yenidən özünə qüvvət verib,-Adil,Nailə haradasınız?- ananıza cavab verin.Nəhayət,Adilin ana biz ablamla bir yerdəyik,ancaq səni görə bilmirik.Mətanət yenə şükr etdi ki,uşaqlar sağ-salamartdırlar. Ağır kütlə onu sanki yoğurmuşdu,bədəninin ağrıları onun nəfəsini kəsirdi.Güc verib kütlə ağırlığından qurtulmaq istəyirdi ki,ağzından gələn ılıq bəlğəm boğazını tutub,səsini çıxartmağa imkan vermədi.Bəlğəmdən gə-

lən qoxudan hiss olunurdu ki,bəlğəm qan qarışığıdır.Gözləri getdikcə qaralırdı,düşüncəsində isə Mehmetin onları xilas etməsi yer almışdı.Mətanət bihuş olaraq özündən getmişdi.Biçarə Mətanət bu an uşaqların bağçaya getmək,ad günlərini qeyd etmək yalvarışlarını anlaya bilməmək dünyasında çarpıntılar keçirirdi.

Xeyli vaxt keçmişdi.Ətrafda gələn səs-küylər,imdad qışqırtıları,Mətanəti ağır bir yuxudan oyatmış oldu.Göz qapaqlarını açıb,onun əllərindən yapışan uşaqlarını görüb ürəkləndi.Uşaqlarını özünə tərəf çəkib bağrına basmaq həvəsi ilə qollarını uzatsa da,yoğrulmuş bədəninin küt ağrıları buna imkan yaratmadı.Otaqdakı toz dumanı çəkildiyindən uşaqların zədə almadığını görüb ruhlandı.Böyük bir divar parçasının bədənini öz ağuşuna almağından hiss etdi ki,o özünü bu kütlədən xilas edə bilməz.Yenə Mehmet olsaydı,nə isə etmək olardı.Ətrafda baş verən qışqırıqlardan anladı ki,zəlzələ fəlakəti onları bürüyüb.Beyninə qəflətən hakim kəsilən,-görəsən Mehmetə bir şey olmayıb ki?Yox,dilim-ağzım qurusun bu nə fikirdi girdi beynimə.Mehmetə,heç nə olmaz! O bizim xilaskarımızdır,mütləq gəlib bizi bu bəladan qurtaracaq.Mətanəti fikir-xəyal qarışıq çırpıntılar ağuşuna almışdı ki,-Nailənin yalvarışını eşidib göz yaşları ilə ağzındakı qurumuş qanı islatdı.Nailə yalvarırdı,-ana nə olar çox yatma da,indi atam da gələr bağçaya gedərik,ad günümüzü qeyd edərik.Nailənin yalvarışı göz yaşlarını sellədi,ağız və boğazındakı qurumuş qanı yenidən isladıb,səsini çıxartmağa şərait yaraytdı.Boğazını arıtlayan Mətanət uşaqlarına bildirdi ki,o yatma-

yıb,ataları Mehmeti gözləyir ki,gəlsin mətbəxdəki hazır tortları da götürüb bağçaya getsinlər.Yenə nə isə demək istəyirdi ki,ağzından gələn qan danışmağa imkan vermədi.Mətanət özlüyündə düşündü.Necə yəni,mən can verməliyəm.Qətiyyən yox!Mənim sevimli Türkiyəm,mən səni o qədər sevdim ki,can verməyə belə meylim yoxdu.Axı,mən doymadım səndən.Mən sənin qoynunda çox yaşamaq,uşaqlarımı əsil türk kimi böyütmək istəyirəm!

Ətrafda gələn səslər getdikcə yaxın məsafədən eşidilirdi.Birdən divar parçasının qopması nəticəsində,otağa düşən işıq dağıntıları tam aydınlığı ilə göstərmiş oldu.Kimsə divarları dağıdaraq,dağıntılar arasında qalanlara səslənirdi.Mətanətin dağılan divardan gələn işığa olan ümidli gözləri getdikcə qaralırdı.İşıq kütləsinin genişlənməsindən sevinən Nailə anasına yalvarmağa başladı:-ana,axı sən söz vermişdin səhər işıqlanan kimi durub bizi geyindirəcək,atamız gələn kimi bağçaya gedəcəyik.İndi atam gələcək,sən isə hələ də yatırsan?Daxili əzaları yoğrulan Mətanət özündə güc toplayıb parçalanan divar qırıqlarından gələn işıq kütləsinə səmtləndi.Bayırdakı səs-küydən anladı ki,onun sevdiyi Hatayında,Türkiyəsində nəhəng zəlzələ olub və xeyli dağıntılar yaradıb.İşıq gələn səmtdə isə xilasedicilər çalışırlar.Xırıltılı səslə uşaqlarına yalvardı ki,işığa tərəf gedib imdad,-deyə qışqırsınlar.Atanız Mehmet səsinizi eşidib bizə köməyə gəlsin.Uşaqlar var gücləri ilə, imdad- deyib səsləndilər.Bayırdan gələn səs:-kimlər var orada,-deyə dilləndi.Əfəndim,banam,ablamdı və Annəmdir.Bizə kömək edin.Axı bizim ad günümüz-

dür.Bağçaya getməliyik.İndi babam Mehmet də gələcəkdir.Kömək edin,nə olar?Xilasedici Ərdəmi göz yaşları boğmuşdu.Özünü ələ alıb,toxdaq səslə bildirdi ki,az qalıb divarı genişləndirib sizə kömək edəcəyik ki,bağçaya ad gününə gecikməyəsiniz.Divardan yaranan genişlik imkan verdi ki,Ərdəm əlini uşaqlara uzatsın.Ərdəm əlini uzadıb dedi ki,əlimdən biriniz tutun.Adil tez qabağa keçib Ərdəmin əlini tutsa da,totuq uşaq olduğundan divardan keçə bilmədi.Ərdəm uşağın köklüyünü duyub bildirdi ki,sən gözlə bir az.Ablana de əlimi tutsun.İncə bədənə malik Nailə divar deşiyindən keçib,mənim balam deyərək üstünə atılan atası Mehmetə verildi.Adil deşiyə yaxınlaşıb qurtulmaq istəyirdi ki,Ərdəm ona dəmir məftillər kəsilsin sonra çıxarsan deyə məsləhət verdi.Xilasedici Ərdəmi yanlış başa düşən Adil,ağlamsındı ki,-mənim qolumu kəsəcəksiniz?Yox,oğlum bu dəmir məftilləri kəsib səni də xilas edəcəyik.Sən qorxma,bir az kənara çəkil.Xüsusi alətlə divar arasındakı dəmir məftillər kəsildikdən sonra Adil də xilas olundu.Ablasını və babasını görən Adil,oğlum deyən atasının boynuna sarıldı.Məftillər kəsildikdən sonra otağa daxil olan xiasedici Ərdəm divar uçqunu altında qalan anəni qan içində görüb,anladı ki,kranla divar parçasını kənar etmədən,qadının xilası mümkün deyil.Uşaqlarını tanışına verib,xilasedici Ərdəmə yaxınlaşan Mehmet sevimli həyat yoldaşının xilası üçün irəli atılsa da,ona imkan verilmədi.Ərdəm Mehmetə həyat yoldaşının durumunu anladıb gözləməsini xahiş etdi.Nəhayət kran vasitəsi ilə,divar kütləsi götürüldükdən sonra dağıntələrdan azad olunan

Mətanəti al-qan işərisində görən Mehmet bayılmış oldu.Yaxınlıqdakı xilasedicilərin sayəsində gözünü açan Mehmet:-Mətanət,mənim həyatım sənsiz necə yaşaya bilərəm?!Aç gözlərini,məni ,uşaqlarımızı yalnız buraxma!Aç gözlərini əzizim,axı uşaqlarımızın ad günüdür.Biz birlikdə olmalıyıq.Uşaqlar səni gözləyir.Gözünü aç,yalvarıram.**Bu an elə bil Mətanətə güc gəldi.Mehmet idi onu səsləyən.Uşaqlar Mehmetin əllərindən tutub göz yaşlarını axıdırdılar.Mətanət uşaqlarına və sevimli ömür-gün yoldaşı Mehmetə əlini uzadıb,qanla qurumuş dodaqqlarını dili ilə isladıb uşaqlardan muğayat olmasını xahiş etmək istəsə də,bacarmadı.Dodaqlarının tərpənişi ilə,-Mənim Türkiyəm! -anlamını verə bildi.Əlləri yanına düşüb,gözləri** yumuldu.Əbədiyyət onu ağuşuna aldı.

**SON**

*10 fevral 2023-cü il*

# Özünəməxsus şeirlər

## ANAMA MƏKTUB
(poema)

Ay ana,qəlbimi açım söyləyim,
Olsun mənim böyük arzum,diləyim.
Əvvəcə kədərli günləri deyim,
Sonra da arzumu bəyan eyləyim.
Anacan qədimdən bir məsəl vardır:
“ Dünyada hər şeydən əziz anadır”.
Mən bunu əvvəllər heç hiss etmədim,
Bəlkə də incidib qəlbinə dəydim.
Bağışla ay ana,bu məndə nöqsan,
Anamız olaraq,böyük və haqsan.
İndisə sözümə başlayaraq mən,
Deyirəm həyatda gün görməmisən.
Qəmli və kədərli olmusan hər an,
Həyat yoldaşında gedibdir cavan.
Bədbəxt cavanlığa hey ağlamısan,
Övladlara baxıb hey sızlamısan.
Bilirəm çox zaman əziyyət çəkib,
Bəzən boğazından çörəyi kəsib,
Ac qalsam da mənə heç bir şey olmaz,
Balalar ac qalsa, tez solar qalmaz.
Çox zaman da şirin xəyala dalıb,
Uşaqları bu dəm yadına salıb,
Demisən onları tezcə böyüdüm,
Saflıq üçün gərək batsın öyüdüm.

Bəli illər gəlib tezcə keçibdir,
Uşaqlar böyüyüb ərsə çatıbdır.
İndi biri oxuyur,həm işləyir,
Biri əsgərlikdə xidmət eyləyir.
Bilirəm ay ana yenə qəmlisən,
İki övladından sən ayrılmısan.
Deyirsən əlbət biçarə balalar,
Birdən döyülər ha,ya da ac qalar.
Ay ana heç zaman düşünmə bunu,
Xeyirdir öyüdün inan ki,sonu.
Bir zaman təhsilin qurtarar Surxay,
İnstituta girər qardaşım Oqtay,
Cənnət də bir zaman məktəbə girər,
Ana balalara baxıb fəxr edər.
O zaman Surxay da,deyəcək anam,
Olacaqdır mənim böyük pərvanam.
Oqtay da,haylanıb deyəcək qardaş,
Anam evimizdə olacaqdır baş.
Cənnət də gələcək birdən irəli,
Deyəcək qardaşlar tikək evləri.
Üç qardaş bir evdə daim yaşayaq,
Xoşbəxtliklə ömrü biz başa vuraq.
Elə ki,məktubum burda qurtarır,
Xəyali arzumu kitab ayırır.
Kitabı götürüb hey oxuyuram,
Oxuduqca qəlbən mən ucalıram.

Arzuma gülməsin axmaq insanlar,
Axmağa çox gülüb keçən zamanlar.
Zaman haqq işini tezcə görəcək,
Surxay da,zamanla bir səsləşəcək!

***06.04.1977-ci il.***

## İNAN

Anacan ayrılıq yaman olurmuş,
Səndən uzaqlarda anladım inan.
Hər dəm qayğınızı yada saldıqca,
Göz yaşı tökərək,ağladım inan.

xxx

Bildim ki,ananın qiyməti nədir,
Ana əziyyəti,zəhməti nədir.
Əzabçün bağışla günah məndədir,
Başa düşdükcə hey, sızladım inan.

xxx

Çox əziyyət verib düşünmədik biz,
Dünyada hər şeydən anadır əziz.
İndi anladıqca gecəli-gündüz,
Ana nəvazişin haqladım inan.

***13.03.1975.***

## NƏ QALDI?
## (Görkəmli ozan aşıq Alıya nəzirə)

Bu aləmi çox dövr edib dolandım,
Iyirmi yaş getdi,qırxa nə qaldı?
Çox üzüldüm,həm də saçım ağardı,
Zillət iyirmisə,qırxa nə qaldı?

xxx

Mərdlə dostluq etdim,sevincim artdı,
Namərdlə yaxınlıq qəmi çoxaltdı,
Qəmlər dərd oluban ömrü qısaltdı,
İyirmi yaş getdi,qırxa nə qaldı?

xxx

Yarəbb cavanlığım boşuna uçdu,
Mənalı uşaqlıq yadıma düşdü,
Bir gün elim deyər,Surxay da köçdü,
Qəmkeş insan getdi, qırxa nə qaldı?

***06.04.1975***.

## BU GÜN

İnsanlar şadlanır,sevinir yenə,
Görəsən nə üçün dərdliyəm bu gün?
Xoşbəxtlik libası geyib cavanlar,
Bəs nədəndir kədər əhliyəm bu gün?

xxx

Bilirəm ömrümdə heç gülmədim mən,
Daim pislik gördüm azğın fələkdən.
Surxaya zülm etdi o ki, əzəldən,
Qisasçı fələyə kinliyəm bu gün!

xxx

Üsyanam qəlbimlə bu cəmiyyətə,
Çünki,binəsibəm mən səadətə.
Mübtəla olsam da min bir zillətə,
Fələyə nifrətlə bəlliyəm bu gün!

***25.04.1976.***

## “DOSTUMDAN” DOSTUMA

Bir insanı tanıyıram üç ildi,
Çox namərddi,yalançıdı a dostum.
Sözdə özün dost göstərir adama,
Mən deyərəm bir əclafdı, a dostum.
xxx
Hər görəndə gülüb mənə dost dedi,
Düşündüm ki,əsil dostluq indidi,
Sonra duydum “dostum”sözdən xəstədi,
Murdar sözlü desəm azdı,a dostum.
xxx
Hər görəndə canım qurbandır deyir,
Üzdə gülür,dalda laflar söyləyir,
Ara vurur,qeybətdən az deməyir,
Tülkü kimi hiyləgərdi,a dostum.
xxx
Surxay deyər,namərd çox da yaşamaz,
Yaşasa da,el ad qoyar,yaramaz!
Həşarat,miyançı,bir də ki,qanmaz!
Belə “dostun” ömrü dardı,a dostum.

***15.03.1977.***

## FƏHLƏ

Hərdən ki,halını yadıma salıb,
Dərdinə göz yaşı qatıram fəhlə.
Adın qüdrətlidir,özünsə kasıb,
Əzəldən bəxtinə yanıram fəhlə.

xxx

İstəsən haqqını açıq deyəsən,
Başına yumruğu vuraralar fəhlə.
Pulun azlığını sən söyləyəsən,
Tez işdən çıxarıb,qovarlar fəhlə.

xxx

Sən lal kimi dinmə səssizcə işlə,
Yoxsa tənbəl deyib,gülərlər fəhlə.
Haqqsızlıq haqqında bir kəlmə kəsmə,
Adına "demaqoq"deyərlər fəhlə.

xxx

Səhər erkən gəlib,axşam gedərsən,
Sənə zindan olub zavodlar fəhlə.
Dünyadan o zaman köç ki,edərsən,
Əziyyətdən başqa,nə qalar fəhlə?

***19.05.1977.***

## KOMMUNİSTLƏR

İclas gedir,diqqətlə izləyirəm,
Çıxış edir,qaşınan kommunistlər.
Nadanların çıxışın dinləyirəm,
Vəzifədən yapışan kommunistlər.

xxx

Elə ki,katibimə söz verilir,
Hesabat vermək üçün sözün deyir.
Çoxları daldalıqda gözün döyür,
Partbiletlə "alışan"kommunistlər.

xxx

Bir düşün partiyada nələr vardır,
Əliəyri,rüşvətxor desəm azdır,
Dövranı dağıdan inan bunlardır,
Özləriçün çalışan kommunistlər.

xxx

Partiya tarixinə nəzər salıb,
Görürəm kommunistin adı qalıb,
Meşşanlar partiyada yuva salıb,
Mənsəb üçün "atışan" kommunistlər.

28.10.1977.

## AY ANA

Bir nazənin görmüşəm Mincivanda,
İsmi gözəl,özü canan, ay ana.
Qara gözün süzdürüb yan baxanda,
Dərdə salır məni hər an, ay ana.

xxx

Şüşəbənddə qəmgin durub baxanda,
Uzun saçlı gəlib keçir, ay ana.
Anasıynan sən bacılıq olanda,
Könlüm gülür yalnız bu an, ay ana.

xxx

Çox baxmışam onun xumar gözünə,
Gülüb keçib,gözləri yan, ay ana.
Diqqət verdim onun şirin sözünə,
Ağıllıdır,dili rəvan, ay ana.

xxx

Belə qıza elçi düşməsin Surxay,
Bəs kim düşsün,başqa oğlan, ay ana.
Elə qız tap gəlməsinlər hayına,
Hörmət etsin sənə hər an, ay ana.

***20.03.1978.***

## UĞURSUZ SEVGİ

Kaş o günü görüşə gəlməyəydim,
Nə bilim ürəyim yaralanarmış.
Sevgimi duymayan gözəl əlindən,
Qəlbim ağ kağızsa,qaralanarmış.

xxx

Necə dilin gəldi sən dedin mənə,
"Nişanlım vardır",əlini üzsənə!
Ah,bu söz qəlbimi yaralar yenə,
Sevgimin yarası qoralanarmış.

xxx

Məhəbbət duymayan vəfasız!Nədən?
Könlümü şüşə tək sındırdın birdən.
Qeys Məcnuna çöndü,eşq kədərindən,
Bilsəydin ha, qəlbin qubarlanarmış.

***09.05.1978.***

## DEYIŞMƏ

Dedim:-Canan dinləsənə sevən qəlbi,
Dedi:-Oğlan axı səni sevməyirəm.
Dedim:-Sənİn tək gözəlin aşiqiyəm,
Dedi:-Gözəllik sevəni sevməyirəm.
Dedim:-Yar, gözümdən qanlı yaş tökərəm,
Dedi:-Əbəs,yaş tökəni sevməyirəm.
Dedim:şeirimlə səni bəsləyərəm,
Dedi:-Eh,şeir deyəni sevməyirəm.
Dedim:-Ay qız,sənsiz necə yaşayaram?
Dedi:-Qırsaqqız dilini sevməyirəm.
Dedim:-Axı,qəlbimdəsən uzun illər,
Dedi:-Qocalan qəlbini sevməyirəm.
Dedim:-Surxay,gör kimə meyl eyləmisən?
Dedi:-Nahaq, divanəni sevməyirəm.

***25.09.1978.***

## MİNCİVANIM

Hər oğlun bir igid olub,
Dildə gəzər Mincivanım.
Şairlər də misra- misra,
Səni bəzər Mincivanım.

xxx

Aya bənzəyən gözəllər,
Qoynunda var Mincivanım.
Onlarda gözü qalanın,
Qəlbi yanar Mincivanım.

xxx

Hər gün yeni sevinc olar,
Şadlıq edər Mincivanım.
Xainlər də dərdə düşər,
Xiffətlənər Mincivanım.

xxx

Qoynunda mən boy ataraq,
Aldım hünər Mincivanım.
Sənə kəm baxan insanın,
Ömrü sönər Mincivanım.

***12.09.1982.***

## VƏSİYYƏT

***( Rusiya,xəstəxana)***

Cavanikən getsəm dünyadan əgər,
Qədir bilən dostlar tamam ağlasın.
Nəşimi böyük bir dağda basdırın,
Dağ duman içində matəm saxlasın.

xxx

Əvvəlcə tabutdan yapışsın Oqtay,
Camaat ah çəkib,salsın ay-haray,
Anam qara geyib desin balam vay,
Göz yaşın selləyib,müdam ağlasın.

xxx

Qabaqda əksimi Cənnət aparsın,
Nəşimi məzara Oqtay sallasın,
Gözümə torpağı anam tullasın,
İmanı olacaq imam ağlasın.

Qəbrimin başında kaman çalınsın,
Kaman naləsindən cismim sızlasın,
Cənazəm üstünə torpaq atılsın,
Atamın əksi də,nakam ağlasın.

***25.09.1988***

## QOCA DÜNYA

Tarixini bilmədiyim qoca dünya,
Qəhərini sıxanlara baca dünya,
Tamahkara,hiyləgərə uca dünya,
Haqqa qarşı əndazəsiz,bica dünya!
Özü boyda ədalətsiz,qoca dünya!

xxx

Həm nadanı,həm qananı bir apardın,
Sadə daşı yalan yerə dürr apardın,
Faş etmədin,nədən belə sirr apardın?
Çox riyakar,möcüzəsiz,bica dünya!
Özü boyda ədalətsiz,qoca dünya!

xxx

Yer üzünü yalanlarla viran etdin,
Beş adamı qolu zorlu,vuran etdin,
Minlərimin vicdanını taran etdin,
Həm vüqarsız,dəyanətsiz,bica dünya!
Özü boyda ədalətsiz,qoca dünya!

xxx

Ulu Füzulimin salamın almadın,
Eşqli Vahidin "sər"halını duymadın,
Sabirimin haqlı səsin heç saymadın,
Tarixinə xəcalətli,bica dünya!
Özü boyda ədalətsiz,qoca dünya.

*06.04.1996.*

## AY ATA

Nə yatmısan? Oyanginən ay ata,
Baxginən bir yaratdığım büsata.
Bilirəm ki,cism qayıtmaz həyata,
Bəlkə,xitablarım ruhuna çata.

xxx

Uşaqkən,fəxrlə boyuna baxardım,
Şaqraq çay tək,böyük gölə axardım.
Tezcə köçdün,talehimə çaxardım,
Haqsızlığa yumruğumu sıxardım.

xxx

İndi ata,mən səndən də yaşlıyam,
Sənin kimi mən də üççə başlıyam.
Bənzərin nəvənlə həm də şanslıyam,
Soyumla,kökümlə adlı-sanlıyam.

***5.05.1996.***

## NƏVƏMƏ
## (Ad günü münasibəti ilə,Rusiya)

Neçə yaşın tamamdır,
Ay Mikayıl nəvəcik?
Soran qərib babandır,
Ay Mikayıl nəvəcik?

xxx

Sevsən ata-ananı,
Həm kiçicik Nərmanı,
İşin gedər xudmani,
Ay Mikayıl nəvəcik?

xxx

Böyü sən ağıllı ol,
Şəkərli-noğullu ol,
Elminlə aqilli ol,
Ay Mikayıl nəvəcik?

xxx

Ər-nər oğlan olasan,
Atya dayaq durasan,
Anaya mehr salasan,
Ay Mikayıl nəvəcik?

xxx

Babanın nur gözüsən,
Ağıl-dərya sözüsən,
Ad gününü bəzə sən,
Ay Mikayıl nəvəcik?

***15.10.2016.***

## SƏNIN ÜRƏYIN
(Gəlin sıxıntısı)

Uşaqlıqda şux gəzər,özünü heç əyməzdin,
Məktəbdə oxuyarkən,xəyallarla gəzməzdin.
Deyərdin qürurluyam,mən susaraq dinməzdim,
Ürək böyüklüyünü vallahi hiss etməzdim.
Namərdlərə dost kimi baxdı sənin ürəyin,
Bütün təlatümləri yaxdı sənin ürəyin.

xxx

İncitdilər,yaxdılar balam sən əyilmədin,
İçində sızlayaraq,çöhrənlə gülümsədin.
Ürək böyüklüyünlə dərdini bildirmədin,
Gizlin əzablar çəkdik,ağrımızı sezmədin,
Namərdlərə dost kimi baxdı sənin ürəyin,
Bütün təlatümləri yaxdı sənin ürəyin.

xxx

Ürək böyük,sevgi bol,daşqəlblər anlamadı,
Böyük-kiçik bilməyən,ədəbini qanmadı.
Ağlın hədəfə vurdu,"huşsuzlar" heç duymadı.
Fələk oyun oynadı,nadanlar heç uymadı.
Namərdlərə dost kimi baxdı sənin ürəyin,
Bütün təlatümləri yaxdı sənin ürəyin.

***25.03.2023.***

## MƏQSƏDLI GƏLIN

(Bir atanın gəlin hekayəsindən təsirlənərək

Kirayələrdən bezib keçmişini pislədin,
"Cibli ər"həvəsiylə zəngin olmaq istədin.
Adaxlı seçimində güvənli oğlan tapdın,
"Özünə güvən"oğlanın,qəlbinə yol açdın.
Gözəlliyin yoxsa da,gülüşü hiylə etdin,
Oğlanın ürək sirrin faşlayaraq dirçəltdin.
Hiylən işə başladı,oğlan cibinə girdin,
Əldə etdiklərinə əngəlliklər görmədin.
Məsləhətli atanla sirrli yolları seçdin,
Yad ormanda qayınataya "hə"-yi dedirtdin.
Uşaq doğan ilk gündən,mülk oyunu başladın,
Fironlaşıb,gəlin!Qayınananı saçladın.
Qarmaqarışıq salıb,əri əlinə aldın,
Oğul böyüdənləri,hiylənlə pərən saldın.
Ər sənə nələr?Mülklər,hətta maşın da aldı,
Nədən?Abır etdi o!Özü günahda qaldı.
Dədəm Qorqud:-"Mən gəlinə ayıran demədim",
Fironluq hiyləsini,insanlıqda görmədim.
Gəlin gəldiyi evdə,de fironluq edərmi?
Belə gəlindən rəbbim,insan üzü gülərmi!?

***15.05. 2023.***

## DÖNMƏYIN QUŞLAR

Payız ki,gəldi uçdu getdi quşlar,
Yaz gəldi,nədənsə dönmədi quşlar!?
Bu bir sirr olaraq qəlbimdə qaldı,
İllərlə bu sirrim soldu-saraldı.

xxx

Görəsən,nə üçün dönmədi quşlar?
Axı,hər yaz ağzı sürməydi quşlar!
Deyəsən dəyişib sirrli fəsillər,
Bürüyüb dünyanı ikili dillər

xxx

“İkilik”görməyib köç edən quşlar,
Dönməyir,ruhlara edir uçuşlar.
İndi sirr əyandır,dönməyən quşlar,
Amandır,bir daha dönməyin quşlar!

***10.08.2023.***

## GÜNƏŞ SƏXAVƏTI,DUMAN XƏBISLIYI

Duman çəkil gün önündən,
Qoy insanlar şüa alsın.
Dəriləri qaraldıqca,
Vitamin D-e sıralansın.

xxx

Bu xəbislik hardan səndə,
Bozluğunu qara etdin.
Günəşi bütöv örtərək,
Sağlamlığı "yara"etdin,

xxx

Hər çəkilib qeyb olduqca,
Günəşdən həyat alırıq.
Gecəmizi rahat yatıb,
Dünyaya heyran qalırıq.

***20.08.2023.***

# *Pyes*



## QARABAGDA ƏSIR ANA ÖLÜMÜ, MOSKVADA YARIMÇIQ TOY.

Iki pərdəli,beş şəkilli pyes.

İştirak edirlər:

Gülsüm ana - 69-70 yaşlarında
Qeyrət-(Gülsüm ananın oğlu),28 yaşında(illər sonra yaşlanmış)
Əşrəf –(Əsir Azərbaycanlı),25 yaşında
İsrafıl –(Moskva bazarında ət satıcısı,Azərbaycanlı),35 yaşında
Güldəstə -(Moskva bazarında meyvə-tərəvəz satıcısı,Azərbaycanlı),25 yaşında
Sonya –(Moskva bazarında meyvə-tərəvəz satıcısı,Bakı ermənisi),28 yaşında(İllər sonra yaşlanmış)
Mkrtıç –(Terrorçu silahlı dəstənin komandiri,erməni),45-47 yaşlarında
Levon –(Silahlı dəstənin üzvü,erməni),25 yaşında
Gevorq –(silahlı dəstənin üzvü,erməni),23 yaşında
Artur –(silahlı dəstənin üzvü,Bakı ermənisi),26 yaşında(İllər sonra yaşlanmış.
Ayrik –(ət alıcısı,Moskva ermənisi),40 yaşında
Vahan –(Moskva restoranlarının ət paylayıcısı,erməni),38 yaşında(illər sonra yaşlanmış)
Astvas – (Moskva toylarının erməni tamadası),40-45 yaşlarında
Qonaqlar –(erməni kişi-qadınları),müxtəlif yaşlarda

## Birinci pərdə,birinci şəkil

***1992-ci ilin soyuq oktyabra ayı.Qarabağın Azərbaycan kəndlərindən xeyli götürülmüş əsirlər tövləyə salınmış və erməni silahlı dəstələri əsirləri bir-bir hüzura gətirdib olmazın əzabını verirlər.***

Mkrtıç :(Qəzəbli və amiranə olaraq) ara,Levon can o qoca axçi var ha,yeriyə bilmirdi.Onu mənim huzuruma gətir.

Levon : Baş üstə komandir,bu dəqiqə gətirərəm.(Tövlənin qapısını açıb,qocanı sürütləyərək gətirir.)

Gülsüm ana : (əlini sinəsinə vurub),siz ermənilər bizdən nə istəyirsiniz?Mənim nə günahım var?(əlilə tövləni göstərib) O tövləyə saldıqlarınız insanların nə günahı var?

Mkrtıç : Ara Levon bu axmaq qocanın bir ağzından vur!

Levon : (sillə ilə Gülsüm ananın ağzından vurur),Kas sasini!

Mkrtıç : (istehzalı gülərək),De gorum oqlun hara qaçdi.Demasan ha,sani olduram,taparam oqlunu pis olduram.

Gülsüm ana : Vallah bilmirəm.(öz-özünə),yaxşı ki,qeyrətli oğlum cəld tərpənib aradan çıxa bildi.Yoxsa əsir olsaydı ürəyim partlayardı.

Mkrtıç : Aparın bu qocanı tövləyə,yemək verməyin.Su da olmaz.Oğlunun yerin deməyincə,beləcə olsun.Bu qocanı özüm əzabla öldürəcəm. Artur bu qocanı sənə həvalə edirəm.Sən ki,Bakılısan,dillərini də yaxşı bilirsən.Dilini işə sal,qocadan oğlunun yerini öyrən.

Artur : Baş üstə,böyük komandir.(Gülsüm ananı tüfəngin qundağı ilə itələyib,tövləyə salır).

Mkrtıç : Ara Gevorq,o yekəpər cavanı huzuruma gətir. Gevorq : Baş üstə.(Bir ayağı yaralı olan Əşrəfin qolundan dartaraq,tövlədən çıxardır.)

Mkrtıç : Ara dığa can,ayaq yox,hop-hop galirsan.San birimci xristiyan olan erməniyə güllə atdı,elami?San qorxmadi.Qordun, boyük ermani balasi sani hop-hopa etdi.

Əşrəf : Mənim tüfəngim olmaylb.Bizim rəhbər alçaqlar,bizdən tüfəngləri almışdılar.Əgər mənim silahım olsaydı,(əlini yumruqlayıb sinəsinə vurur)siz daşnaqları sağ buraxmazdım.

Mkrtıç : (əlini siqaretdən saralmış sarı buğuna çəkərək).Yakşi man vurmadi,san yıkılmadi.De gorum nadan hop edirsan.

Əşrəf : (kinayəli)Ayağımda çiban var,güllə yarası deyil!

Mkrtıç : Ara bir gostar çobani.

Əşrəf :yaranı göstərir.Baxın!

Mkrtıç : (Güllə ilə Əırəfin yaralı ayağını,deşik-deşik edir.)Ara bu da sana qulla yarası olsun ha.Tez bu musurman gədəsin tövləyə atın.Gevorq,mən səninləyəm! Gevorq :Mən hazıram,komandir.(Levonla bərabər Əşrəfi tövləyə atırlar).

Mkrtıç : O musurman gədənin yarasını bağlamayın.Duz tökün yaraya ağzının sərhədin bilsin.Bir bunun hikkəsinə bax.Silahım olsaydı siz daşnakları öldürərdim.Sən öləsən.Birdə ki,tövlədəki körpə musurman uşaq-

ları səs çıxartsa elə yerindəcə güllələyin!Eşitdiz!Məğlubeduilməz erməni silahlıları.Bu günlük bu qədər.

***Gecə qaranlığında körpə uşaqlar aclığa,susuzluğa dözə bilməyib ağlaşırlar.Güllə səsləri və qışqırıqlar eşidilir.***

Əşrəf :( tövlədən hirsli olaraq bağırır) Alçaq erməni daşnaqları,uşaqların nə günahı var?!

Gevorq : Bu əclafın başını kəsmək gərəkdir.Qoy səhər açılsın.Görəcəm biz alçağıq,yoxsa sənin gəbərmək vaxtın gəlib.

Gülsüm ana : Allah sizin cəzanızı versin.Kirvə deyib qapımızda yallandız,indi də pis niyyətinizi göstərirsiniz.(öz-özünə) Görəsən oğlum Qeyrət bu qəddarlardan canını qurtara bildimi.Mən cəhənnəm.Bir ayağım burda,biri gorda.Kaş onu əsir götürməyəydilər.Yoxsa dözə bilmərəm.

***Səhərin açılmağına bir az qalmış Mkrtıç görsənir.***

Mkrtıç : Ara Gevorq gecə eşidilən güllə səsləri məni sübh gəlməyə məcbur edib.

Gevorq : Düz buyurursunuz komandir,üç uşaq öldürdük,bir də (əli ilə qarnını şiş göstərərək) doğan arvadı körpəsi ilə bərabər cəhənnəmə göndərdik.

Mkrtıç : Yaxşı ki,güllələnənlər uşaqlar olub.Böyüklərlə mənim öz haqq-hesabım var.

Gevorq : Komandir,biz sənin cəza vermək xobbini gözəl bilirik.

Mkrtıç :Yaxşı bəs,Levon,Artur haradadırlar?

Gevorq : Onlar bərk yorulublar.Mən güllələyirdim,onlar isə xəndək qazıb basdırırdılar.İndi gələrlər.

Mkrtıç : Gevorq,dünən qıçasını yaraladığım gəbərməyibsə,gətir huzuruma.

***Erməni silahlısı Gevorqu əli ilə kənarlaşdıran Əşrəf məğrur baxışları ilə,heç nə olmamış kimi Mkrtıça yaxınlaşır.***

Mkrtıç : Ara,san hala olmadi?!Sana gulla vurmadı?

Əşrəf : (qıçasından çıxardığı gülləni ona göstərir) Sənin güllən də özün kimi çürükdü.Uşaqları,hamilə qadını doğum anında güllələmək kişilik deyil.

Mkrtıç : Ara,bir bunu dilin bax ha.Kasaram dilin.(cibindən xəncərini çıxardıb Əşrəfə yaxınlaşır) Dilin qostar.

Əşrəf : al alçaq!(Yumruq zərbəsi ilə Mkrtıçı yerə sərir.)

Mkrtıç : ara,sani axçilər ku...m. Sani qoyda asar olaram. Gevorq,Levon,Artur o zırpını ağaca bağlayın!

***(Əşrəfin gücü qarşısında pərəm-pərəm olan erməni silahlıları onu bir təhər ağaca bağlayırlar).***

Mkrtıç : ara,Levon bu zırpının qıçaların bağlayın demədim.(əlindəki xəncəri qayışında itiləyib,Əşrəfin qulaqların kəsir.) Bu da sani qulaq.(Əşrəfin məğrur baxışlarından qeyzlənən Mkrtıç gülləəri ilə Əşrəfi deşik-deşik edir.)Levon,bura gəl.Bu qulaqları mənim sevimli Vazgen itimə ver.İtim qulaq sevəndir.

Levon : Baş üstə,sənin Vazgen itin bütün ermənilərin sevimlisidir.Musurman qanın su kimi içir.

Mkrtıç :Gevorq bu qulağı kəsilmiş yekəpəri rahatlamaq sənlikdir.Artur hardasan?

Artur :Əmrindəyəm komandir.

Mkrtıç : Sən dilini bildiyin o oğlu qaçmış qoca arvadı bura gətir.Yəqin qocadan oğlunun yerini öyrənə bilməmisən.

Artur : Yox,komandir. Elə deyir ki,yerini bilmirəm.

Mkrtıç : (dodaqlarını gəmirərək.) Deyəsən bu qocanı da cəza ilə öldürəcəm. Gətir bura qocanı.

Artur :Baş üstə.(Qocanı gətirir.)

Gülsüm ana : Erməni olanda nə olar.Gecə uşaqları,hamilə qadını güllələdiz,o pəhlivan cavanı əzabla öldürdüz.Heç sizin insanlığınız,insafınız yoxdur?!

Mkrtıç : Levon,qulaqları Vazgenə verdinmi.İndi təzə qulaq aparmalı olacaqsan sevimli vazgenimizə.

***Qəflətən Artur güllə ilə Gülsüm ananı ölümcül yaralayır.***

Mkrtıç : Artur,səni öldürrəm.Niyə qocanı güllələdin.Vazgenimi qulaq yemindən kəm etdin.Cavab ver!

Artur : Komandir mən anamın qisasını aldım.Bakıda yaşayarkən belə bir qoca anamı qaynar su ilə yandırmışdı.

Mkrtıç : Qisas aldığına görə qocanı sənə bağışladım.Apar rahatla.

Artur : Sağ ol komandir.(Gülsüm ananı sürütləyərək gözdən itir.)

***Artur Gülsüm anaya veriləcək cəzaya dözməyib biləræəkdən onu ani ölümlə xilas etməyi vacib bilmişdi.Gülsüm ananı dəfn edərkən yumulmuş əlindəki kağız parçasını və üzüyü görüb,cibinə qoymuşdu. Artur vərəqədəki kağızda yazılmış şeiri oxuyur:***

Ana da düşmənə əsir olarmı?
Erməni əlində yesir qalarmı?
Başına döndüyüm oğul,tez yetiş,
Dərddən solan anan,de sağ qalarmı?

**_Birinci pərdə,ikinci şəkil._**

**_Kənd cammatı anası da daxil olmaqla erməni silahlıları tərəfindən əsir götürüləndən sonra,Qeyrət gizlincə evə qayıdıb,anasının dar gün üçün saxladığı zinət əşyalarını götürərək,vaxtilə əsgəri xidmətini başa vurduğu və tez-tez əlaqə saxladığı Moskvadakı Vostok bazarına getməyi,pul qazanaraq dolanışığını düzəltməyi,sonra anasının xilas etməyi qərara alır.Bu minvalla Qeyrət Moskvadakı Vostok bazarına üz tutur._**

Qeyrət : İlahi,gör bazar necə də dəyişilib.(Karıxmış olaraq qalmış Qeyrəti meyvə-tərəvəz satıcıları olaraq iki qadının Azərbaycan dilində mübahisəli danışıqları cəlb edir.)

Sonya :Ağəz Güliçka,bu karıxmış gədə bazar adamına oxşamır,özü də bizi yaman marıtdayıb.

Güldəstə : Az,yaxşı görək.Bu bazarda səni tanıyandandı,qəşəng gədə görən kimi dodağın sallanır.Həməşə belə olub.Marıtdayıb.Yox bir gözləriynən səni barıtdayıb.(Şaqqa çəkib gülür)

Sonya : Ağəz,and olsun Qriqoryan yaradanımıza o gədənin gözü məndədir.

Güldəstə : Az,səni canın bəsdir.Bakıda doğulub o yekəlikdə tarix məktəbini bitirmisən.Məhlim orada özünə bir gədə tapa bilməmisən?

Sonya : Ağəz,nöş tapmamışdım.Varım idi.Papaşam gorbagor olmuş qoymadı.Dedi ki,mənim musurman nəvəm ola ha,bıçağı soxaram qarnına.

Güldəstə : Yaxşı,bəs sonrası necə oldu?

Sonya : Necə olecek.Yaraşığına heyran olduğumla gizlincə görüşüb,məhəbbətin dadını çıxardırdım.Elə ki,gördü hamiləyəm,birdəfəlik itdi.Ancaq,svoluç çox qoryaçiy kavaler idi.

Güldəstə : Az,bəs hamiləliyin axırı nə oldu?

Sonya : Nə olacek.Saldırdım tifili.Yoxsa gorbagor papaşanın bıçağı işə düşəcəkdi.Bir nasionalist idi ki,gəl görəsən.

Güldəstə : Az,papanı günahkar etmə.Onsuz da yer üzünün bütün ermənilərі nasinalistdirlər. Ancaq,hayıf o tifildən. Yaxşı de görüm erməni balası olsan da,üzünü görmədiyim Bakımızı çox sevirdinmi?

Sonya : Sevirdin nədir ağəz,Bakı əsil erməni şəhərinə çevrilmişdi.Bütün ermənilər Bakı ləhcəsində danışmaq üçün ölürdülər,şirin ləhcəydi hayıflar olsun.

Güldəstə : Az Sonya,yaman yanıqlı danışırsan,deyəsən Bakımız tək sənin yox,(əl barmağını boğazına aparır)bütün ermənilərin boğazında qalıb.

Sonya : Ağəz Güliçka,sən məni nöşün başa düşmürsən.Erməni dilində çıxan "Kommunist"qəzetində Böyük Ermənistanımız haqqında bala-bala yazırdım.Başbilən er-

mənilər dedilər ki, siyasi yazma,bizi Bakıdan köçürərlər.Axırda özləri elə siyasi oyun çıxartdılar ki,Bakıdan özləri köçdülər,biz qarışıq.

Güldəstə : Az,eşitməmisən.Gəmidə oturub,gəmiçiynən dava edən gəmidən qalar.(İstehzalı olaraq gülür.)

Sonya : Qaldılar da.Bakılılarda bir məsəl var:-sirkə nə qədər tünd olsa,elə qabın sındırar.

Güldəstə : Yaman dedin ha.Az,Bakıda da səni Sonya deyə çağırırdılar?

Sonya : Ağəz Güliçka,Bakıda kavalerım də daxil olmaqla mənə Sona,-deyə müraciət edirdilər.Mən başı daşdı bu xarabada Sonya olmuşam.(ağlamsınır)

Güldəstə : Yaxşı da qəhərlənmə.De görüm Bakıda ermənilər ən çox harada yaşayırdılar.

Sonya : Deyim də səninçün.Ermənikənd tarixi məskənimiz idi.Yasamalda işdən çıxan kimi Avakyan küçəsi məni yola salırdı,Montində Tumanyan qarşılayırdı.Bir ucu Bayıl,sonu erməni rəhbərimiz Şaumyanda qurtarırdı.

Güldəstə : Az külbaş nasionalist olmasaydınıs,indi Bakıda fironluq edirdiniz.De görüm,bu Qutqaşen,Noraşen,Vartaşen rayonları da ermənilərin adların daşıyır.

Sonya : Qriqoryan məzhəbimi yandıra bilmərəm.Qutqaşen(təəccüblü olaraq) bizdə qut adı olmayıb,ancaq Noraşen,Vartaşen bizim Nora ilə Vartanın adını daşıyır.

Güldəstə:( zarafatla) Az,sizi qırılmıyasınız.(öz-özünə) kökünüz kəsilsin.Day deynən ki,Azərbaycanı erməni sürüsü bürüyübmüş ki?

Sonya : Ağəz mən tarixçiyəm a,biləsən.Hələ nə qədər torpaqlarınız yuridiçiski erməniləşdirilib.Heç xəbərin varmı?

Güldəstə : Hardan xəbərimiz olsun ki?Başımızı aşağı salıb dədə-baba yurdumuzda yaşayırdıq.Bizlərə “tork” deyib,yurdumuzdan didərgin saldılar.

Sonya : Azərbaycan torpağında Ermənistanlıların köç salması Rus çarlarının adı ilə bağlıdır.Sovet dövründə Yerevanı Moskva başbilənlərinin əli ilə Ermənistana paytaxt veriblər.

Güldəstə : Az,boy.Nağıl danışmırsan ki?Demək İrəvan bizim torpağımız,məkanımız olub.

Sonya : Boyuldama.Mənim nağılım real nağıldır.Qulağın məndə olsun.Yerdə qalan torpaqların Ermənistana verilməsindən danışım.

Güldəstə : Yaxşı,qulağım səndə.Vırtılda real nağılını.

Sonya : Sovet qurulandan sonra Azərbaycana bir neçə ay Mirzə və Ruhulla adlı Azərbaycanlılar rəhbərlik ediblər.

Güldəstə : Az,yanı deyirsən bu Azərbaycanlılar torpağı Ermənistana veriblər?

Sonya : Ağəz yox! Onlar Moskvanın öhdəliklərini yerinə yetirməyiblər,ona görə də vəzifələrinə əlvida deyiblər.

Güldəstə : Az,partdadım axı.De görüm bizim torpaqları hansı gözüçıxmışlar Ermənistana verib.

Sonya : Güliçka.(gülə-gülə)Torpaq verənlərin gözləri çoxdan çürüyüb,çıxmağına ehtiyac qalmayıb.Sizin Bağırova qədər Azərbaycana üç rus,üç erməni rəhbərlik edib-

lər.Onların içərisində Kirov və Levon Mirzoyanın "Böyük Ermənistan"a tükənməz sevgiləri olduğundan xeyli torpaqlar Ermənistana verilib.

Güldəstə : Allah onların evlərini yıxsın.O urus Kirova Bakının qəlbi yerində heykəl qoyublar,əlbət yaxşı satqın olub.Qaldı ki,Levona o da erməni nasionalisti olub da.

Sonya : Ağəz o biçarələr neyləsin.Balıq başdan iylənər,- deyiblər.Baş da Moskva idi.Bildinmi.Başını aşağı salıb yurdunda yaşaya bilməyən külbaş.Ancaq,Bağırov gələndən sonra,ermənilərin torpaq sevdasına son qoyuldu.

Güldəstə : Allah Bağırovun qəbrini nurla doldursun.Amin!Amin deməyən dillər qurusun.

Sonya : Ağəz yaxşı Amin!Sonrası bilirsən ermənilər hansı hiyləyə əl atdılar.

Güliçka : Nə hiylə az.Hələ nağılının hiyləli dalısı da var.

Sonya : Həri,ağəz.Canım sənə desin ki,nasionalist ermənilər sakit oturmayıb,Azərbaycanlıları dədə-baba torpaqlarından Moskva başbilənlərinin əli ilə köçə saldılar.Bir ucu ilan mələyən Muğan düzündən tutmuş,Kazaxıstana,Türkmənistana qədər qovuldular.

Güldəstə : Düz deyirsən,ay Bakı Sonası.Bizim qohumlardan dediyin yerlərdən yaşayanlar var.

Sonya : Sonra da,canım sənə desinki,erməni nasionalistləri 1988-ci il qırğınlarını ,Qarabağ müharibəsini törətdilər ki,indi sənlə mən bazar alverçisi olmuşuq.

Güldəstə : Demə,bacı.Allah bu nasionalistlərin bəlasını versin.

Sonya : Ağəz,baxanda yenə siz xoşbəxt millətsiniz.Sizin Heydər Əliyev kimi başçınız olub.İnşallah yenə də gəlib xalğına rəhbərlik edər.

Güldəstə : Allah ağzından eşitsin.Kaş o gün gələydi.

Sonya : H. Əliyev rəhbər vəzifədə olanda,bizim erməni nasionalistləri yaltaqlıq donunu geyərək tısbağa kimi başlarını qınlarına soxmuşdular.

Güldəstə : Düz deyirsən bacı,Əliyevin vaxtında qardaşlaşma var idi.O Dəmirçi idi,nəydi,yanına da bir yan qoyub H.Əliyevin əlini sıxırdı.

Sonya : Ağəz,Dəmiçiyana şükür.Moskvada oturanlar Dəmirçiyanı və Əliyevi vəzifədən uzaqlaşdırıb Qarabağ oyununu ortaya atdılar.

Güldəstə : Aranı qarışdıran elə o Kremldə oturanlardır.Allah görmürmü,görəsən.

Sonya : Yəqin hər şey vaxtına çəkmiş olacaq.Ancaq,ürəyimə damıb ki,H.Əliyev yenə də rəhbər olacaq,bütün torpaqları da qaytarıb Əliyev soyunu tarixə salacaq.

Güldəstə : Allah,Əliyev soyunu millətimizin başından əskik etməsin.

Sonya : Ağəz o qədər sən deməli, vırt-mırt etdik ki,bir sürü qoyunu qurda verdik.Heç bazarlıq da sən deyən etmədik.(birdən gözü onlara tərəf gələn marıtdamış gədəyə sataşır).Ağəz bir bax,Güliçka marıttdamış gədə bizə tərəf gəlir.

Güldəstə : Az,səni yeməyə gəlmir ki,insan də,qoy gəlsin.

Sonya : Ağəz,bütün bədənim,sinəm tir-tir əsir.

***İki xanımın uzun-uzadı söhbətlərinin başa çatdığını görən Qeyrət,onlara yaxınlaşır.***

Qeyrət : Bacılar,məni bağışlayın sizi narahat edirəm.Bazar elə dəyişilib ki,ət satılan köşkləri tapa bilmirəm.Bəlkə yerini mənə göstərəsiniz.

Sonya : Güliçka,dillənsənə.Məni əsməcə tutub.

Güldəstə : Qardaş.Burdan düz get,sağa çön.Kilsə görəcəksən.Onun qarşısında ət satılan köşklər olacaq.

Qeyrət : Sağ ol bacı.(Bir gözü Sonyada qalmış Qeyrət az qala yıxılacaqdı.Özünü yığışdırıb gözdən itir).

***Birinci pərdə, üçüncü şəkil*.**

***Qeyrət qızların göstərişi ilə ət sallaqxanasını tapıb yaxınlaşdı. Ət satanların içərisində yekəpərin birini görüb Azərbaycanlı hesab etdiyindən müraciətləndi.***

Qeyrət : Qardaş,sən Azərbaycanlısanmı?

Ət satan : Necə bəyəm,oxşamıram Azərbaycanlıya.

Qeyrət : Yox,Allah eləməsin.Əsil Azərbaycanlısınız ki,varsınız.Bilmək olar adınızı.

Ət satan : Adım İsrafildir.Ancaq buralarda mənə ermənilərdən savayı hamı Slavik deyə müraciət edirlər.De görüm,ətin hansı hissəsi xoşuna kəlir,kəsim.Axı sən mənim eloğlumsan.

Qeyrət : Çox sağ olun.Mənə əsil ürək verdiniz,İstafil qardaş.

İsrafil : (Yekə buddan yapışıb,kötük üstünə qoyaraq) Hə,eloğlu yağlı yerindən kəsimmi?

Qeyrət : İsrafil qardaş.Mən ət almaq niyyətində deyiləm. Özümə iş axtarıram.Rəhmətlik atam kəndimizin tanınmış qəssabı idi.Uşaqlıqdan atamın yanında qəssablıq etmişəm.Bəlkəköməklik edib mənə iş verəsiniz.

İsrafil : Belə de.Əslində mənə köməkçi lazımdır.(Əlindəki baltanı Qeyrətə verib)Göstər qəssablığını.Əti sümükdən ayır.

Qeyrət : (Sevincək baltanı əlinə alıb,sümüyü ətdən elə ayırır ki,ətrafdakı baxanlar məətəl qalırlar.) Necədir İsrafil qardaş!

İsrafil : Əla.Atana rəhmətlik,sənin işinə muşduluq.Yanımda işləyəcəksən.

Qeyrət : Allah ömür versin sənə İsrafil qardaş.

Yekə burun,yastıbaşın biri İsrafilə yaxınlaşır.

İsrafil : Xoş gördük,Ayrik.Yenə donuz başı almağa gəlmisən?

Ayrik : Ara,İsrapılcan.San bilır,man donuz başı doymam.Donuz başı alar,evda utu edar,yeyaram.Başı ağrımaz.

İsrafıl : Hə,düz deyirsən.( Yana çevrilib öz –özünə)Elə donuz başı yeyirsiniz ki,ağlınız donuz kimidir.

Ayrik : Ara,İsrapıl san na dedi,başına duşmadi.

İsrafil : Əşi heç.Deyirəm ki,donuz başı ütüb yemək siz ermənilərin hamısını ağıllı edir.

Ayrik : ara,san ol duz dedi.Bizi başı donuz baş kimi umnidi ha.(Donuz başını götürüb gözdən itir.)

Qeyrət : İsrafil qardaş,bu ermənilər kəndlərimizə od vurur,insanları əsir götürür,sonra da utanmazlar gəlib bizdən ət alırlar.

İsrafil : Ay Qeyrət,burası Rusiyadır.Ruslar da bunların din qardaşı.Bilirsən nə qədər erməni vəzifəliləri var burada.Biz ət satanlar sadə adamlarıq.

Qeyrət : Sözündən belə çıxır ki,burada ermənilər xod gedənlərdir.

İsrafıl : Düz başa düşmüsən.İşimiz-peşəmiz erməni restoran-kafelərinə ət paylamaqdır.

Qeyrət : Demək ermənilər olmasa biz ət sata bilmərik.

İsrafil : İndi burda durmusan.Bir dənə rus gəlib ət alır.Gedib mağazalarda iki-üç yüz qram ət alırlar.Ermənilər isə,aşağısı on-on beş kilo götürürlər.Ancaq,o qədər hiyləgərdilər ki,bişirdikləri kababları dəyər-dəyməzinə bizlərə satırlar.

Qeyrət : Da de,biz burda da batdıq ki?!Vətənimizdə torpağımızı işğal edib,bizləri köç halına salıblar,burda da ətimizi alıb,kabab edib,dədəsi Poqosyanın qiymətini də üstünə qoyub bizə satırlar.

İsrafıl : Hələ bu harasıdır.Xalam oğlu yeniyetmə uşaqları ilə zirzəmilərdə erməni işbazları üçün araq çəkirlər.Əvəzində də yatmaq,yemək pulu alırlar.

Qeyrət : Vallah mən bu milləti başa düşə bilmirəm.Bunlar cindilər,şeytandılar.Harda aş,orda başdılar.

İsrafil : Bəs eşitməmisən,deyirlər arxalı köpək qurd basar.Bu ermənilər az qala iki əsrdir ki,arxalı köpəkdilər.

Qeyrət : Aydındır,İsrafil qardaş.Arxalı köpəklərin tarixi,kökü olmasa da,heç nədən vətən sahibi olurlar.

İsrafil : Orta məktəbdə SSRİ tarixi keçərdilər.Azərbaycan tarixinə az yer verər,vətənsiz ermənilərə Urartı ölkəsi

sırıyardılar. Bizlərə nədənsə rus tarixini öyrətməyə çalışardılar.Kitabları müəllifləri rus-ermənilər olardılar.

Qeyrət : Düz buyurursan,İsrafil qardaş.Bu günə kimi mən öz tariximizi bilmirəm.

İsrafil : Eh,dərd böyükdür hansını danışasan.Danışmağınan,böyük bir qoyun sürüsünü qurda vermiş olduq.Hava da qaralır,satılmayan ətləri soyuducuya yığmaq lazım gələcək.(Hər ikisi ətləri soyuducuya yığırlar.) Qalmağa yerin varmı?

Qeyrət : Yox.Elə poyuzdan düşüb vaxt itirməmək üçün bura gəldim.(Düşüncələrə dalır)

İsrafıl : Fikir etmə.Əlin isinənə kimi yanımda qalarsan.Sonrası allah kərimdir.(Ət köşkünü bağlayıb hər ikisi gözdən itirlər)

***İkinci pərdə,dördüncü şəkil.***

***Qeyrətin Moskvaya gəlişindən xeyli illər keçmişdi.Əsir düşən anası haqqında belə bir qənaətə gəlmişdi ki,yəqin dünyasını çoxdan dəyişib və axtarışların mənası olmayacaq.Bu illər ərzində Qeyrət ermənilər arasında məşhur qəssab olaraq hörmətli olmuş və onların sevimli Qarikinə çevrilmişdi.Bazara ilk gəlişində erməni qızı Sonyaya aşiq olan Qeyrət,onunla sevgili olaraq gələcəkdə ailə qurmaq qərarında idi.Bazarda ət məhsulu satıçısı olaraq böyük köşk sahibi idi. Qeyrət öz köşkündə yeni kəsilmiş ətləri piştaxtaya yığmaq üzrədir.***

Qeyrət(Qarik) : (Vahanın gəldiyini görür),Vahan niyə belə gec gəlmisən?Sənin "MUŞ"restoranın üçün sübhdən iyirmi kilo ət göndərmişəm.

Vahan : Ara,saq olasa sani.Qarik can atin yaxşı(əli ilə baldırını göstərir) qondardi.

Qeyrət(Qarik) : Hə canın üçün,əsil kabablıq göndərmişəm.

Vahan : Qarik can bizi cigar Suren var ha.Onun restoran "Ararat"a at qondardi.

Qeyrət(Qarik) : Hə, Suren dünən gəlmişdi.On kilo kabablıq quzu əti,beş kilo da donuz əti zakaz verib.Bir-iki saata onun zakazını həll edəcəm.

Vahan : Qarik,cigar.Quzu var ha (əlin atır qıça arasına) bura da var,o mani olar.Onu man ha ver.Suren bilma olsun elami.Xoşuna galir bura.(Qoyunun qıça arasın göstərir.)İki yera elar,şişda yağ tokar,dadlı olar,yeyar kişi olar ha.(qəşş edib gülür)

Qeyrət(Qarik) : Ə Vahan başa düşmədim e.(İstehzalı təbəssümlə). Sən oranı yeyib kişi olursan,Ayrik,var ha donuz başı yeyib,donuz kimi ağıllı olur.(bərk gülür)

Vahan :ara,sani da ye.Donuz başı aqıl olar,orası da kişi olar.

Qeyrət(Qarik) : Vallah,Vahan qardaş,siz yesəniz elə mənə bəs edər.

Vahan : Qarik can,san evlanmadi.Qospodi bok sana yaxşi bir gozalça yetirsi ha.

Qeyrət(Qarik) : Qospodi bok,elə mən bazara gələn gündən qismət edib.

Vahan : Ara sani can,kim ola?

Qeyrər(Qarik) : Bazarın gözü,Qarikin ürəyi Sonya,Bakılı Sona.

Vahan : (qısqancıqla) ara Qarik can,Sonya qozal,sozu yok.Kardaş Artur dalidi.Karabağda müsurmanla voyevat edib.Bila ha,Sonya kavaler musurman ola(əlini bıçaq tək boğazına aparır)) xırt eda ola.

Qeyrət(Qarik) : Vahan,səndən eçidirəm ki,Sonyanın qardaşı var.

Vahan : Ara,Qarik can bak ha.Sora ati da gedar,toporu da.Mani sandan xoşu qaldi dedi.Saq ol.Ha yadında çıxdı.(Əlini qıça arasına aparıb).Buranı da ver.Kişi ola lazım.(Aradan çıxır)

İş vaxtının bitməsinə az qalırdı.Köşkdə yır-yığış edəndə, köşkün pəncərəsin Sonya döyüb,qapını açdırır. Sonya : Qarik can,səni çox gözlətmədim ki?

Qeyrət(Qarik) : Nə danışırsan,mənim Bakılı Sonam, gəl içəri.(qucaqlaşırlar).

Sonya : Sən mənə hər dəfə Bakılı Sonam deyəndə,bütün bədənim,sinəm(əli ilə əsdirdiyi sinəsin göstərir) belə titrəyir.

Qeyrət (Qarik): Bilirəm Sonacığım.Hələ bu yaşıma qədər məni sənin qədər heç kim sevməyib.

Sonya : Mən səni Ararat dağı qədər sevirəm.Yüz erməni elçisi gələ səndən başqasını seçə bilmərəm,deyib Qarikin qucaqlayır.

Qeyrət (Qarik) :Səni görən gündən anladım ki,könlümün qapısını səndən başqa heç kim aça bilməz.

Sonya : (Qarikinin qoluna girib,irişə-irişə) Ciyərim,düzün de görüm məndən qabaq heç sevgililərin olmayıb?

Qeyrət(Qarik):mənim yox,anam bir qız qaralamışdı,hətta üzüyü belə sinəsində gizlədərdi.Əsgərlikdə də,bir Niniçka var idi.O məni qucaqlayıb öpmək istəyəndə,mən utandlğımdan onu itələyib özümdən kənar saxlayardım.Əsgərlik başa çatanda yazıq qız mənə baxıb ağlayırdı.

Sonya : Yazıq Niniçkanı bir dəfə öpüb,savab iş görməmisən.Əsgərlikdən sonra da,heç kimi sevmədin?

Qeyrət (Qarik) : Yox sevə bilmədim.Müharibə başladı,anam əsir düşdü,mən təsadüfən sağ qalıb əsgəri xidmət etdiyim Moskvaya gəldim.Səni gördüm və sevdim.

Sonya : Mənim canım Qarik.Bəs heç ananı axtarmadın,bəlkə sağdır.

Qetrət (Qarik) : Düzü baş qoşa bilmədim.Altmış doqquz yaşı var idi əsir götürüləndə.İndi çoxdan dünyasın dəyişib.

Sonya : Eybi yox.(Qariki qucaqlayıb öpür) Mən səni elə sevərəm ki,anan yaddan çıxar.

Qeyrət (Qarik) : Ayıbdır,Suren,Vahan görərlər.Məni camaat içində bir də öpmə.

Sonya: Qarik,sən Vahanı hardan tanıyırsan?

Qeyrət (Qarik) : Necə yəni, məndən ət alır.Hə yaxşı yadıma düşdü.Vahan deyirdi ki,Sonyanın qardaşı var və Qarabağda müsəlmanlara güllə atıb.

Sonya : Vahan qələt eliyir.Məndən yanı ölürdü,rədd etdim.İndi səni sevdiyimi görüb,qardaşım Arturu böhtanlayır.

Qeyrət(Qarik) : Köpəkoğlu Vahanın hərəkətinə bir bax. Ətini kəsəcəm,ağlı başına gəlsin.

Sonya : Ətini kəsmə,qoy dolansın.Ancaq qardaşım Artur məni çox istəyir.

Qeyrət (Qarik): Yaxşı bəs,niyə yanına gəlmir?

Sonya : Artur deyir ki,nə vaxt ərə getsən,toyuna gələcəm.

Qeyrət(Qarik) :Bəs niyə ərə getməmisən bu vaxta kimi,heç olmasa Artur qardaşın toyuna gələrdi.

Sonya : Bilmirəm. Ay mənim məhəbbət bağımın bağbanı Qarikciyəzim.(Əzilib-büzülür)Məni al ki,toyumuz olsun,o yazıq da gəlib Bakının şanson mahnılarına sümüyün sındırsın.

Qeyrət(Qarik) : Ev yox.Pul yığmaq lazımdı ki,sənə qızıl-mızıl ala bilim.

Sonya : Bax əziz Qarikim.Mən sənsiz yaşaya bilmərəm.Əgər məni almasan gedib çıxacam "Ostonkino" telequlləsinə özümü atacam.

Qeyrət(Qarik) : Az nə danışırsan?! Mənim səndən başqa kimim var ki?Ay mənim Bakılı Sonam.

Sonya : Mənim Qarikim.Ev məndə,toy pulu səndə.

Qeyrət(Qarik) :Onda Sonacığım.Bir az vaxt ver ki,pul yığım toy üçün.

Sonya : Bax bu sevdamız oldu əla.(Sevindiyindən çırtıq vurub,yanların əzdirir)Qarik,bir kino var e,qız kavalerinə deyir ki, pulun var.Kavaler də deyir:-Var,var.Qız da,deyir ki,onda belə gələrəm.(oynayır)

Qeyrət(Qarik) : Ay mənim Bakılı Sonam.Pulsuz kişi olar.Uzağı bir aya toy olacaq.

Sonya : (sevincli halda) Qarik deyir toy olacaq,Sonya Qarik bir olacaq.

***İkinci pərdə,beşinci şəkil.***

***Moskva.Kilsənin yanında restoran.Ayaqdan başa qara geyimli kişili-qadınlı qonaqlar restorana daxil olurlar.Bəy Qarik qara,gəlin Sonya isə sarı gəlinlikdə başda oturublar.Erməni xalq mahnısı kimi təqdim olunan "Sarı gəlin" mahnısı "Sari axçi" kimi oxunur.***

Qeyrət(Qarik) : Sonacığım.Sən gərək sarı gəlinlik paltarı geyməyəydin.Bütün gəlinlər ağ geyinir.Bir baxsan,"Sarı gəlin""Sari axçi" kimi başa düşmədiyim dildə oxunur.

Sonya: Mənim Qarikim.Bunları mən yox,kimsə düşünüb.Fikir vermə.Əsas bizim ailə qurmağımızdır.

Qeyrət(Qarik) : Yaxşı bəs toya gələn qonaqların siyahısın kim tutub ki,İsrafil qardaşım iştirak etmir.

Sonya: İsrafil də,bi az nasionalizmi var.Gələrdi şuluqluq olardı.Vahan belə məsləhət görübdür.Mən də üz vurmadım.

Qeyrət(Qarik) : Yenə Vahan! O vaxt onun ətin kəssəydim,indi oyun çıxartmazdı.

Sonya : Yaxşı,əsəbləşmə.Qardaşım Artur bizə tərəf gəlir.

Artur: (Bacısı Sonyanı qucaqlayıb öpür.Qulağına nə isə pıçıldayır,sonra Qarikə əl uzadır)Salamlar olsun əziz kürəkənimiz Qarikə.

Qeyrət(Qarik) : Çox şadam siz Bakılı Arturu gördüyümə.Sona kimi təmiz Bakılı kimi danışırsınız.

Artur : Bəli mən sizdən fərqli olaraq əsil Bakılıyam.Hətta,Bakılılar yeznəni eşşəyə bərabər tutduqlarından,sənə kürəkən deyə müraciət etdim.(Bu dəm Vahan Arturu rəqsə edir)

Vahan : Hayıf,Sonyadan ki,musurmana ərə gedir.Gərək imkan verməzdin.

Artur : Keyfini pozma.Musurmana ərə getsə də,balası erməni olacaq.

Astvas : (toy aparıcısı) Hörmətli Sonyamızın əziz qardaşı Artura ürək sözlərini demək üçün söz verilir.

Artur: Tamadamız Astvasa təşəkkür edirəm ki,mənə söz verdi.Əlbəətə bacıma xoşbəstliklər arzu edib,illərdir ürəyimdə qalmış bir hadisəni sizlərə danışmaq istərdim.

Astvas : Buyur,Artur qardaş.Söz sizdədir.

Qonaqlar : (xorla) Artur buyurub danışsın.

Artur : Qarabağda illər qabaq vuruşarkən,bir qoca qadın əsir götürülmüşdü.Əsirlik əzablarına dözməyən qarı keçinmişdi.Onun bir əlləri elə sıxılmışdı ki,gücünən əllərini açıb,kağıza bükülmüş üzük gördüm.Kağızda isə şeir yazılmışdı.Mən Bakılı olduğum üçün Azərbaycan dilini keçdiyimdən şeiri oxuya bilərəm:

Ana da düşmənə əsir olarmı?
Erməni əlində yesir olarmı?
Başına döndüyüm oğul,tez yetiş,
Dərddən solan ana,de sağ qalarmı?

Qonaqlar: (xorla) ermənilləri düşmən sayıb bu qoca qarı!Artur gərək bu şeiri oxumazdınız.Ölüb,cəhənnəmə ki?

Artur :Mənim şeiri oxumaqda məqsədim var.Qarı deyir ki,oğul tez yetiş,məni əsirlikdən qurtar.Oğul da,qeyrətsiz çıxıb.Ancaq,(üzüyü göstərir)bu üzüyü niyə əlində sıxmışdı,onu bilmədim.

Qeyrət(Qarik) : Üzüyü görüb,tanıyır.Deməli ölən qoca, anam imiş.

Vahan : O qeyrətsiz oğul,anası əsir düşəndə, tülkü kimi aradan çıxıb.

Qonaqlar : (Gülüşürlər və xorla) Məqlubedilməz erməni ordusunun qarşısında musurman dığası duruş gətirə bilməz.

Sonya : Qarikciyəzim.Nə olub belə rəngin qapqara olub.Bizim toyumuzdu axı.De-gül.

Qeyrət(Qarik) : (Qəzəblə) Güləcəm indi,özü də çox bərk güləcəm.

Sonya : Eh,bu Artur da,bizə iş tapdı.Bu nə şeirdir ki,oxudu.Heç,hənanın yeriydi.Qarikimin də kefi pozuldu.

Qeyrət(Qarik) : (cəld yerindən qalxıb,Artura yollanır və üzüyü əlindən alır) Artur de görüm anamı inciitmisiniz ölüb?!

Artur : Qoca sənin ananmış? Yox ürəyi partlayıb ölmüşdü,heç kim incitməyib.

Qonaqlar: (öz aralarında pıçıldaşırlar)Demə,ölən qoca musurman bəyimizin anası imiş.

Qeyrət : Üzük və şeir olan vərəqəni əlində sıxaraq,toy mərasimini tərk edir.

Qonaqlar:( öz aralarında) Sonyanın musurman bəyi qaçdı.Daha gəlməz.

Sonya : (ağlayaraq)Mənim Qarikim,hara getdin.Mən sənsiz yaşaya bilmərəm.(Sonya da,toy mərasimini tərk edir.

Qeyrət : (tənha olaraq parkda oturub,anası üçün göz yaşı tökür.Xeyli hönkürdükdən sonra analı günlərini yadına salır).Yadıma gəlir ki,orta məktəbdə şair Əli Kərimin "Qaytar ana borcunu" şeirini əzbər öyrənə bilmirdim. Anam isə,əzbərdən şeiri deyə bilirdi.(Qeyrətin gözü qaralır. Sanki,anası qeybdən peyda olub şeiri deyir:

Ana oğul böyütdü,gur,çatmaqaş,gensinə,
Ana oğul böyütdü,özgəyə qismət oldu.

Qeyrət : Ana bağışla məni.Adımı Qeyrət qoydun,adımı doğrulda bilmədim.Şeiri dedikcə az qala ürəyim partlayır.

Qeybdən görsənən ana isə şeirini deyirdi:

Deyirəm ki,o boyu,buxunu qaytar geri!
Deyirəm ki,varını,yoxunu qaytar geri!...
Qaytar ana borcunu,
O borc sənin özünsən,özünü qaytar geri!

**SON**

***(pərdə bağlanır)***

## Kitabın içindəkilər:

Bayatılar dastanı (dastan). .............................................3

### Hekayələr

İki sevəniniztirablı sonluğu ..........................................46
Köçküçülük və arsız "ağsaqqal" .....................................55
Səndən şair olmaz ...........................................................67
Çərxi fələyin oyunu ........................................................79
Mənim Türkiyəm .............................................................90

### Özünəməxsus şeirlər

Anama məktub (poema) .................................................103
İnan ...................................................................................106
Nə qaldı ............................................................................107
Bu gün ...............................................................................108
Dostumdan dostuma .......................................................109
Fəhlə .................................................................................110
Kommunistlər ..................................................................111
Ay ana ...............................................................................112
Uğursuz sevgi ..................................................................113
Deyişmə ...........................................................................114
Mincivanım ......................................................................115
Vəsiyyət ...........................................................................116
Qoca dünya ......................................................................117
Ay ata ...............................................................................118

Nəvəmə ........................................................................ 119
Sənin ürəyin ................................................................. 120
Məqsədli gəlin ............................................................... 121
Dönməyin quşlar ............................................................ 122
Günəş səxavəti,duman xəbisliyi .................................... 123

**Pyes**

Qarabağda əsir ana ölümü,Moskvada yarımçıq toy.... 125

SURXAY SUBU

# BAYATILAR DASTANI

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 15.09.2023
Şərti çap vərəqi 9, 5. Sifariş № 358
Kağız formatı 60x84 1/16. Tiraj 300
**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4